Ümumrusiya Azərbaycanlıları Konqresi Rusiyanın digər şəhərlərində də faciənin ildönümü ilə bağlı tədbirlər keçirmişdir. Sankt-Peterburq şəhərində Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayevin xatirə gecəsi təşkil olunmuşdur. Gecədə Sankt-Peterburq şəhər rəhbərliyinin nümayəndələri, azərbaycanlı ziyalılar və tələbələr də iştirak etmişlər. Ümumrusiya Azərbaycanlıları Konqresinin və Federal Milli Mədəni Muxtariyyətinin regional bölmələri tərəfindən Rusiyanın Sankt-Peterburq, İvanova, Murmansk, Yekaterenburq, Çeboksarı, Arxangelsk və digər şəhərlərində etiraz aksiyaları, dəyirmi masalar, seminarlar və anım mərasimləri təşkil edilmişdir.

2006-cı ildə Ümumrusiya Azərbaycanlıları Konqresinin və Federal Milli Mədəni Muxtariyyətinin regional bölmələri tərəfindən Rusiyanın Moskva, Sankt-Peterburq, İvanova, Murmansk, Yekaterenburq, Çeboksarı, Arxangelsk və digər şəhərlərində "31 Mart Azərbaycanlıların Soyqırımı Günü" ilə bağlı etiraz aksiyaları, dəyirmi masalar, seminarlar və anım mərasimləri təşkil edilmişdir.

2007-ci il yanvarın 19-20-də Rusiya Federasiyasının əksər vilayətlərində həmçinin şəhərlərində 20 Yanvar faciəsini anan tədbirlər keçirilmişdir. Ümumrusiya Azərbacanlıları Konqresindən verilən məlumata əsasən, 20 Yanvar şəhidlərinin xatirəsinə həsr ediləcək anma mərasimlərində faciəni anladan foto, rəsm qalereyaları və filmlər nümayiş etdirilmişdir.

2007-ci ilin 25 fevral tarixində Heydər Əliyev Fondunun dəstəyilə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu (MDBM) Azərbaycandan olan Gənclər Klubunun prezidenti Leyla Əliyevanın və Rusiya Azərbaycanlı Gənclərin Əlaqələndirmə Şurasının təşəbbüsü ilə Moskva şəhərinin "Sahibkarlar Ev"ində təşkil edilən, «Xocalısız 15 il» adlı Xocalı soyqırımı qurbanlarının anma mərasimi keçirilmişdir. Leyla Əliyeva qeyd etmişdir ki, Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilən bütün tədbirlərin

məqsədi dünya ictimaiyyətinə Xocalı soyqırımı barədə doğru, düzgün və obyektiv məlumat verməkdir. Leyla Əliyevanın çıxışından sonra Heydər Əliyev Fondunun təqdim etdiyi sənədli film və “Fəryad” bədii filmi nümayiş etdirilmişdir. Tədbirdə Azərbaycanlı Gənclərin Əlaqələndirmə Şurasının sədri Siyavuş Məmmədov və AMEA-nın İnsan Hüquqları İnstitutunun direktoru, siyasi elmlər doktoru Rövşən Mustafayev öz çıxışlarında ermənilərin Azərbaycan torpaqlarında tarixən törətdikləri vəhşiliklərdən danışmışlar. Tədbirdə Dövlət Komitəsində fəaliyyət göstərən əməkdaşlar və Rusiyada olan Azərbaycan diasporunun nümayəndələri olubdur.

Rusiya Federasiyasında yaşayan azərbaycanlılar haqqında danışarkən, Dağıstan azərbaycanlıları haqqında da bəhs etməmək olmaz. Dağıstanda aparılmış siyahıyaalmanın nəticələrinə görə respublika ərazisində yaşayan əhalinin 4.5%-ni azərbaycanlılar təşkil edir. Həmin məlumatlara görə Dağıstan azərbaycanlılarının sayı 120-140 min nəfər, bəzi mənbələrdə isə hətta 150 min nəfər civarında göstərilir.

Bununla belə, azərbaycanlılar arasında əhalinin artım dinamikasının digər xalqlar, o cümlədən avarlar və ləzgilərlə müqayisədə aşağı olmasına dair fikirlər soydaşlarımız tərəfindən də təsdiqlənir. Ümumrusiya Azərbaycan Konqresinin Dağıstan regional bölməsinin verdiyi məlumata görə, son illərdə azərbaycanlılar arasında rus və Avropa mədəniyyətinin geniş şəkildə yayılması nəticə etibarilə çoxuşaqlı ailələrin sayının azalmasına gətirib çıxarmışdır.

Azərbaycanlılar vaxtilə Dağıstan əhalisinin böyük əksəriyyətini təşkil etmişdir. Dağıstanın aborogen əhalisi olan azərbaycanlıların sayının son illər ərzində sürətlə azalması bir tərəfdən əhalinin artım tempinin aşağı düşməsi ilə əsaslandırılırsa, digər tərəfdən respublikada yaşayan başqa xalqların sayının süni şəkildə artırılmasın üçün hesablanmış tədbirlərlə izah olunur. XIX əsrin əvvəllərindən etibarən yeridilən bu siyasət çar Rusiyasının cənub sərhədlərinin təhlükəsizliyini təmin etmək məqsədilə

əlaqədar olmuşdur. SSRİ dövründə də bu siyasət davam etdirilmişdir. Nəticədə Dağıstan əhalisinin əksəriyyətini təşkil edən azərbaycanlıların sayı digər xalqlarla müqayisədə tədricən azalmağa başlamışdır.

Azərbaycanlılar arasında miqrasiya saldosunun aşağı olması iri şəhərlərdə soydaşlarımızın sayının azalmasına səbəb olur. Belə ki, Dağıstanın müxtəlif regionlarında məskunlaşmış digər xalqlar böyük şəhərlərə miqrasiya etdiyindən azərbaycanlılar iri şəhərlərdə azlıqda qalırlar. Dərbənd şəhərində son illərdə digər xalqların sayının azərbaycanlılarla müqayisədə kəskin şəkildə artmasının səbəblərindən biri də budur.

## 2.2. Ukrayna, Belarus və Moldovada yaşayan azərbaycanlılarla həmrəylik

Azərbaycanlıların kütləvi şəkildə məskunlaşdığı MDB ölkələrindən biri də Ukrayna Respublikasıdır. Qeyri-rəsmi məlumatlara görə Ukraynada 500 mindən çox azərbaycanlı yaşayır. Azərbaycanlılar əsasən Kiyev, Xarkov, Dnepropetrovsk, Donetsk Odessa, Nikolayev, Zaporojye və Lvov şəhərlərində məskunlaşmışlar. Ukrayna Respublikasında yaşayan soydaşlarımız 21 mart 1999-cu ildə Ümummilli lideri Heydər Əliyevin tövsiyəsi ilə yaradılmış Ukrayna Azərbaycanlıları Konqresində (UAK) birləşmişlər. UAK-ın Ukraynanın müxtəlif regionlarında təşkilatları fəaliyyət göstərir. UAK üzvləri arasında elm və sənət, ictimai xadimlər, dövlət hökümət strukturlarında aparıcı vəzifələrdə çalışanlar vardır. Konqresin Sədri Oqtay Əfəndiyev 2006-cı ildə Bakıda qeyd edilən Dünya Azərbaycanlılarının 2-ci Qurultayında Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının İdarə Heyətinə üzv seçilmişdir. *Hazırda UAK`a Yuri Osadçenko sədrlik edir. Bunu da qeyd edək ki Y.Osadçenko I Qarabağ Müharibəsi veteranıdır.*

UAK 1999-cı ildən bəri Ukraynada gedən ictimai-siyasi proseslərdə fəal iştirak etmişdir. Ukraynada yaşayan digər

xalqların diaspor təşkilatları ilə sıx əlaqədə işləyən UAK ötən müddət ərzində onlarla birlikdə bir sıra tədbirlər keçirmişdir. Bundan əlavə, cəmiyyət hər il Azərbaycan milli bayramlarını da mütəmadi olaraq qeyd edir, xalqımızın qədim tarixinin, zəngin mədəniyyətinin təbliğ olunması istiqamətində tədbirlər həyata keçirir, Azərbaycan həqiqətlərinin Ukrayna ictimaiyyətinə çatdırılması məqsədilə fəal iş aparır.

UAK nəzdində yaradılmış "Azərbaycan" mahnı və rəqs ansamblı həm Kiyev şəhərində, həm də Ukraynanın müxtəlif bölgələrində xalqımızın qədim və zəngin müsiqi mədəniyyətini çoxsaylı xalqlar arasında təbliğ edir. UAK-ın Dnepropetrovsk, Xarkov, Nikolayev, Sumi, Zaporojye, Odessa kimi böyük regional təşkilatların nəzdində yaradılmış uşaq xoreoqrafiya kollektivlərinin fəaliyyəti bu ölkədə doğulub böyüyən azərbaycanlı uşaqlarda milli mədəniyyətimizə bağlılığın qorunub saxlanmasına xidmət edir. UAK-ın mətbu orqanı olan "Azərbaycanın səsi" qəzeti mütəmadi olaraq nəşr edilir və soydaşlarımız arasında ümummilli ideyaların möhkəmlənməsində, habelə Azərbaycanın tarixi, müasir həyatı, xalqımıza qarşı ermənilər tərəfindən törədilmiş terror və soyqırım aktları barədə həqiqətlərin Ukrayna ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayır.

UAK-ın təşəbbüsü ilə 2003-cü ildə Ukraynada fəaliyyət göstərən milli azlıqların ictimai təşkilatları tərəfindən İrpen şəhərində Ukraynanın dahi şairi Taras Şevçenkonun abidəsi ucaldılmışdır. Konqresin Ukraynanın ictimai həyatında fəal iştirakı bu ölkənin dövlət rəsmiləri tərəfindən dəfələrlə qeyd olunmuşdur.

2001-ci ildə ulu öndər Heydər Əliyev UAK fəalları ilə görüşü zamanı soydaşlarımıza siyasi həyatda daha fəal iştirak etmək, parlamentdə həmçinin hökumət strukturlarında təmsil edilməsi barədə tövsiyələr vermişdir. Ölkə Prezidenti İlham Əliyev cənabları 2004-cü ildə Ukraynaya rəsmi səfərində bu ölkədə, habelə Belarus və Moldovada fəaliyyət göstərən Azərbaycan diasporlarının nümayəndələri ilə görüşündə, soydaşlarımız ictimai-

siyasi həyatda fəal iştirakının mühüm əhəmiyyət daşıdığını söyləmişdir.

Ukrayna Azərbaycanlıları Konqresi xalqımızın zəngin mədəni irsinin təbliği istiqamətində ötən müddətdə bəzi tədbirlər həyata keçirmişdir. Belə ki, 2005-ci il avqust ayında Ukrayna Respublikasının Dnepropetrovsk şəhərindəki T.Şevçenko adına Musiqili Akademik Dram Teatrında Azərbaycan Respublikasının Ukraynadakı səfirliyi və UAK-ın dəstəyi ilə dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun "Arşın malalan" operasının premyerası keçirilmişdir. Premyera Ukrayna Respublikasının Müstəqillik Gününə və Ü.Hacıbəyovun anadan olmasının 120 illiyinə həsr edilmişdir.

2005-ci ilin may ayının 27-də Respublika Günü ilə əlaqədar Kiyev şəhərində Azərbaycanın Ukraynadakı səfirliyinin və Ukrayna Azərbaycanlıları Konqresinin birgə tədbir təşkil etmişdir.

Ukrayna Azərbaycanlıları Konqresi, eyni zamanda, Azərbaycan həqiqətlərinin bu ölkənin ictimaiyyətinə çatdırılması istiqamətində də iş aparır. 2005-ci ildə Ukraynada təhsil alan azərbaycanlı tələbələr Heydər Əliyev adına Sosial Elmlər və Beynəlxalq Münasibətlər İnstitutunda Xocalı soyqırımına həsr edilmiş mitinq keçirmişlər. Mitinqə 300-dən çox tələbə qatılmışdır. Mitinq iştirakçıları arasında azərbaycanlılardan başqa, ukraynalılar, ruslar, polyaklar, belaruslar, türklər, almanlar və digər xalqların nümayəndələri də olmuşlar.

2005-ci ildə Ukrayna Azərbaycanlıları Konqresi bu ölkədəki Azərbaycan səfirliyi ilə birlikdə Kiyev şəhərində Xocalı soyqırımının 13-cü ildönümünə həsr edilmiş konfrans keçirmişdir. Xarkov şəhərində isə Azərbaycan-Ukrayna Dostluq Cəmiyyətinin təşəbbüsü ilə faciənin 13-cü ildönümü münasibətilə dəyirmi masa təşkil olunmuşdur. Tədbirdə yerli hakimiyyət nümayəndələri də iştirak etmişlər. Ukrayna Azərbaycanlıları Konqresinin Dnepropetrovsk, Zaporojye, Donetsk, Lvov, Jitomir, Krım və digər regional təşkilatları da faciə ilə bağlı tədbirlər keçirmişdir.

2005-ci ildə 31 mart Azərbaycanlıların Soyqırımı Günü münasibətilə Ukraynada təhsil alan azərbaycanlı tələbələrin yürüş-mitinqi Ukrayna Azərbaycanlıları Konqresi tərəfindən təşkil olunmuşdur. Yürüş iştirakçıları əllərində şüarlar tutaraq BMT-nin Ukraynadakı ofisi qarşısında toplaşmış, erməni separatçılarının Azərbaycan xalqına qarşı apardığı işğalçılıq siyasətini pisləmiş, Xocalı soyqırımını beynəlxalq təşkilatlar tərəfindən tanınmasını tələb etmişlər.

31 mart 2005-ci il tarixdə Kiyev şəhərində BMT-nin ofisi qarşısında Ukrayna Azərbaycanlıları Konqresin təşkilatçılığı ilə Ukrayna Heydər Əliyev adına Sosial Elmlər İnstitutunda, Ukrayna Beynəlxalq Münasibətlər Universitetində və Ukrayna Heyətin İdarəolunması Akademiyasında təhsil alan azərbaycanlı və türkdilli tələbələrin iştirakı ilə etiraz aksiyası keçirilmişdir. Aksiya UAK-ın şəhər Meriyasına müraciətinə əsasən icazəli olmuşdur. Aksiyada 80-dan çox tələbə iştirak etmişdir. Aksiya iştirakçıları əllərində erməni terrorizmi və separatçılığını pisləyən, erməni işğalçılarının təcili olaraq Dağlıq Qarabağı tərk etmək tələbləri ilə şuarlar tutmuşlar.

Aksiya iştirakçıları BMT rəhbərliyindən Dağlıq Qarabağ və Aəzərbaycanın ərazi bütövlüyü ilə bağlı qətnamələrin yerinə yetirməsini tələb etmişlər. Tədbirin sonunda BMT rəhbərliyinə müraciət oxunmuş və müraciət BMT-nin Ukrayna üzrə nümayəndəliyinin rəhbərinə təqdim edilmişdir.

30 mart 2005-ci il tarixdə Dnepropetrovsk şəhərində UAK-n 15-ə yaxın regional təşkilatının (Xarkov, Dnepropetrovsk, Donetsk, Luqansk, Kirovoqrad, Zaporojye, Sevastopol, Krım və s.) rəhbərlərinin və fəallarının iştirakı ilə 31 mart azərbaycanlıların soyqırımına həsr edilmiş dəyirmi masa keçirilmişdir. Konfras zamanı Azərbaycanlılara qarşı törədilmiş soyqırım aktlarının tarixi barədə müzakirələr aparılmış və mətbuat orqanlarda müvafiq materialların işıqlandırılmasıi qərara alınmışdır. Eyni zamanda BMT-yə müraciət qəbul edilmişdir.

Ukrayna Azərbaycanlıları Konqresinin Xarkov, Krım, Donetsk, Zaparojye və digər region şöbələri tərəfindən etiraz aksiyaları, elmi konfranslar, seminarlar, müxtəlif tədbirlər keçirilmişdir. Diaspor təşkilatlarının təşkil etdiyi tədbirlərdə ermənilərin 1802-ci ildən etibarən Anadoluda həmçinin Azərbaycanda törətmiş olduqları cinayətləri göstərən müxtəlif sənədli eyni zamanda bədii filmlər nümayiş etdirilərək fotostendlər qurulmuşdur.

2007-ci ildə Ukrayna Azərbaycanlıları Konqresi Azərbaycan Respublikasının Ukraynadakı səfirliyi ilə birlikdə yanvarın 19-da Kiyev şəhərindəki «Müəllimlər evi»ndə 20 Yanvar faciəsinin ildönümünə həsr olunmuş mərasim təşkil etmişdilər. Mərasimdə Ukraynada fəaliyyət göstərən digər xalqların nümayəndələri, jurnalistlər, müxtəlif diaspora təşkilatlarının nümayəndələri də iştirak etmişlər. Mərasim zamanı 20 Yanvar faciəsindən bəhs edən fotosərgi və film nümayişi olmuşdur.

2007-ci ildə Ukrayna Respublikasının Xarkov şəhərində yerləşən Beynəlxalq Slavyan Universitetində Azərbaycanın dili, tarixi həmçinin mədəniyyətini tədris edən siniflər açılmışdır. Sinfin açılmasında əsas məqsəd ukraynalı tələbələrə Azərbaycanın mədəniyyətini, tarixini öyrətməkdən, habelə onları Ukrayna ilə Azərbaycan arasında əlaqələrin bütün sahələri barədə məlumatlandırmaqdan ibarətdir. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılar ilə İş Üzrə Dövlət Komitəsi sinfin açılışına yardım etmək məqsədilə Xarkov Beynəlxalq Slavyan Universitetinin rus bölmələri üçün nəzərdə tutulmuş Azərbaycan dili dərsliyi həmçinin lüğət, danışıq kitabçaları eləcə də Azərbaycan ədəbiyyatı üzrə sorğu kitabı, o cümlədən ölkəmizin tarixindən və mədəniyyətindən bəhs olunan ədəbiyyatlar, məşhur rəssamların əsərləri, habelə milli musiqi alətləri ilə təmin etmişdir.

2007-ci il martın 23-də ölkəmizin Kiyevdəki səfirliyi və Ukrayna Azərbaycanlıları Konqresi Novruz bayramı ilə əlaqədar konsert təşkil etmişlər. Ukraynanın Təhlükəsizlik Xidmətinin Mədəniyyət evində qeyd edilən konsertdən öncə iştirakçılar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının

Novruz bayramı ilə əlaqədar Azərbaycan xalqına olan təbrikinin mətni diqqətə çatdırılmışdır.

2007-ci ildə Xarkov İncəsənət Muzeyinin sərgi salonlarında Xarkovdakı “Dostluq” Azərbaycan-Ukrayna cəmiyyətinin təşkilatçılığı ilə istedadlı həmyerlimiz, rəssam Anar Əliyevin fərdi sərgisi keçirilmişdir.

2007-ci ildə Kiyev şəhərində Ukrayna Azərbaycanlıları Konqresinin təşkilatçılığı ilə Şuşanın işğalının 15-ci ildönümünə həsr olunmuş dəyirmi masa keçirilmişdir. Ukraynanın siyasi partiyalarının, Azərbaycan, türk və digər diaspor təşkilatlarının nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə nəinki xalqımıza, bütün insanlığa qarşı terror siyasəti həyata keçirən məkrli erməni siyasəti barədə ətraflı məlumat verilmişdir. Şuşa şəhərinin işğalı nəticəsində mədəniyyət abidələrinin, məktəblərin, kitabxanaların və digər inzibati binaların dağıdıldığı, 100 nəfərdən çox insanın qətlə yetirildiyi, 121 nəfərin itkin düşdüyü bildirilmişdir.

Azərbaycanlıların ən çox məskunlaşdığı Moldova Respublikasında 5000-dən çox azərbaycanlı yaşayır.

Azərbaycanlıların Moldovaya mirqasiyası prosesi, əsasən, 20-ci əsrin ilk onilliyindən başlamışdır. Azərbaycanlılar Moldovaya işləmək həmçinin təhsil almaq məqsədilə köçürdülər. Bu proses 1960-1980-ci illərdə daha intensiv xarakter almışdır. Moldovanın Kişinyov şəhəri də başda olmaqla, başqa şəhərlərinə və rayonlarına səpələnmiş azərbaycanlıların başlıca iş yerləri ticarət obyektləri həmçinin elm-təhsil müəssisələridir. Burada 1993-cü ilə qədər pərakəndəlik var idi. Bu tarixdən başlayaraq təşkilatlanmaq vətənlə əlaqə yaratmaq, birləşmək ideyası gündəmə çıxmışdır.

Əvvəllər təbliğat sahəsində bəzi uğurlar qazanan Moldovada yaşayan azərbaycanlılar "Araz" adında qəzet nəşr etmişdilər. Moldova televiziya kanallarında, həmçinin radio proqramlarında eləcə də qəzetlərdə Azərbaycan eyni zamanda azərbaycanlılar haqqında bəzi məlumatlar da dərc olunur, yayımlanırdı. Hazırda Moldovada bir sıra Azərbaycan diaspor təşkilatları fəaliyyət

göstərir. 1991-ci il tarixində Kişinyov şəhərində fəaliyyətə başlamış "Araz" adlı Cəmiyyət Moldovada yaşayan azərbaycanlıların sosial hüquqlarının müdafiə edilməsi, Azərbaycanla Moldova arasında münasibətlərin inkişaf etdirilməsilə məşğuldur.

1995-ci il tarixində Kişinyov şəhərində yaradılan "Azəri" adlı Mədəniyyət Mərkəzi Moldovada Azərbaycan mədəniyyətinin, dilinin, o cümlədən elminin təbliğ edilməsi yönündə işləyirlər.

2000-ci il tarixində Kişinyov şəhərində təsis edilən Moldova ilə Azərbaycan Əməkdaşlıq Cəmiyyəti hər iki dövlətin arasında hərtərəfli əlaqələrin yaradılması və inkişaf etdirilməsi üçün prinsipial mübarizə aparır.

2001-ci ildə Moldovada yaşayan azərbaycanlıları öz ətrafında birləşdirən Moldova Azərbaycanlıları Konqresi (MAK) təsis edilmişdir. Konqres Mərkəz, Cənub həmçinin Şimal, Şərq o cümlədən Qərb regionları olaraq 5 regional təşkilatı özündə cəmləşdirir. MAK azərbaycanlıların milli-mənəvi dəyərlərinin qorunub saxlanması, ölkəmizlə bağlı həqiqətlərin Moldova ictimaiyyətinə çatdırılması məsələlərinə böyük diqqət yetirilir. İndiki dövrdə MAK-ın nəzdində məhz Azərbaycan dilini həmçinin tarixini keçən «Həftə sonu» adlanan məktəb fəaliyyət göstərir. Bununla bərabər, MAK-da Azərbaycanın mədəniyyətini həmçinin musiqisini təbliğ etmiş olan rəqs ansamblı da yaradılmışdır.

MAK tərəfindən 2005-ci ilin aprel ayının 21-də Kişinyov şəhərinin görkəmli yerlərindən birində dahi Azərbaycan şairi və filosofu Nizami Gəncəvinin adına salınmış parkın və onun xatirəsinə ucaldılmış abidəsinin açılış mərasimi keçirilmişdir. Abidə kompleksinin açılış mərasimində Azərbaycanın Prezidenti cənab İlham Əliyev və Moldovanın Prezidenti cənab Vladimir Voronin iştirak etmişlər.

MAK Azərbaycan həqiqətlərinin Moldova ictimaiyyətinə çatdrılması istiqamətində ötən müddətdə bir sıra tədbirlər təşkil etmişdir. Belə ki, 2005-ci ildə Kişinyov şəhərində təşkilatın ofisində Xocalı soyqırımına həsr olunmuş dəyirmi masa təşkil edilmişdir. Tədbirdə Azərbaycan diasporunun nümayəndələri ilə

yanaşı, yerli ictimaiyyətin təmsilçiləri, ziyalılar, tarixçi mütəxəssislər də iştirak etmişlər.

Mart ayının 31-də isə MAK tərəfindən 31 mart Azərbaycanlıların soyqırımı günü ilə bağlı etiraz aksiyası keçirilmişdir. Aksiyada Ermənistanın Azərbaycana qarşı apardığı soyqırımı və təcavüz siyasətinə etiraz şüarlar qaldırılmış, beynəlxalq ictimaiyyətin Qarabağ münaqişəsinə münasibətdə ədalətli mövqe tutmasını ifadə edən çağırışlar səsləndirilmişdir.

2006-cı il noyabr ayının 24-də Kişinyov şəhərində Moldova Azərbaycanlıları Konqresinin növbəti Hesabat-seçki konfransı keçirilmişdir. Hesabat-seçki konfransında Azərbaycan Respublikasının Moldova Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri İsfəndiyar Vahabzadə və səfirliyin əməkdaşları da iştirak etmişlər.

Yığıncaqda Konqresin sədri Vüqar Novruzov hesabat dövrü ərzində konqresin gördüyü işlər və qarşıda duran planlar barədə geniş məruzə ilə ətraflı çıxış etmişdir. Konqres üzvləri sədrin məruzəsi ətrafında geniş müzakirələr aparmış, ötən müddət ərzində əldə olunmuş nailiyyətlər barədə fikirlərini bildirmişlər. Müzakirələrin ümumi nəticəsi olaraq MAK-ın ötən dövr ərzindəki fəaliyyəti qənaətbəxş hesab olunmuşdur.

Hesabat-seçki konfransında Dünya Azərbaycanlılarının 2-ci Qurultayının nəticələri, Azərbaycan dövlətinin diaspor quruculuğu məsələsinə xüsusi önəm verməsi, Azərbaycan Respublikası Prezidentinin bu sahədə atdığı mühüm addımlarla bağlı da fikir mübadiləsi aparılmışdır. Çıxış edənlər 2006-cı il tarixində keçirilən Dünya Azərbaycanlı Ziyalıları Forumunun nəticələrini yüksək qiymətləndirdiklərini bildirmişlər. Azərbaycan Respublikası Prezidentinin təşəbbüsünə görə 2007-ci il tarixində Bakıda keçirilməsi nəzərdə tutulmuş Azərbaycan eyni zamanda Türk diaspor təşkilatlarının rəhbərlərinin I Forumu ilə bağlı fikirlərini bölüşən toplantı iştirakçıları, bu tədbirin bütün Türk dünyasında böyük əks səda doğuracağına inamlarını ifadə etmişlər.

Konfrans iştirakçıları Azərbaycan Respublikasında gedən sosial-iqtisadi inkişaf proseslərini məmnunluqla izlədiklərini bildirmişlər. Qeyd olunmuşdur ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyev cənabları ulu öndər Heydər Əliyevin siyasi kursuna sadiq qalaraq respublikanı yeni inkişaf mərhələsinə çıxarmış, Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin möhkəmləndirilməsi istiqamətində önəmli addımlar atmağa nail olmuşdur.

Konfrans iştirakçıları MAK-ın qarşısında duran vəzifələrlə əlaqədar geniş fikir mübadiləsi aparmışlar. 2007-ci il mayın 28-də Moldovada Leoqrant adlı salonda Azərbaycanın bu ölkədəki səfirliyi və diaspor üzvlərinin təşkilatçılığı ilə «Azərbaycan günü» keçirilmişdir. Tədbirdə Azərbaycanın qədim tarixini əks etdirən fotostendlər və sənədli filmlər nümayiş etdirilmiş, Azərbaycan muğamı səsləndirilmişdir. Tədbir çərçivəsində həmçinin Azərbaycan rəssamlarının əsərlərindən ibarət rəsm sərgisi də təşkil olunmuşdur. Daha sonra isə Azərbaycan incəsənət ustalarının iştirakı ilə konsert proqramı təşkil olunmuşdur. Qeyd edək ki, tədbirin təşkilinə Azərbaycanın bu ölkədəki səfirliyi də dəstək vermişdir.

2006-cı ildə Moldova Azərbaycanlıları Konqresinin Azərbaycan Respublikasının Moldovadakı səfirliyi ilə birlikdə Xocalı soyqırımına həsr olunmuş xatirə gecəsi təşkil etmişdir. Bu kimi bir sıra tədbirlərin keçirilməsindəki əsas məqsəd Azərbaycan həqiqətlərinin Moldova ictimaiyyətinə çatdırılmasıdır.

2020-ci ildə Moldova Azərbaycanlıları Konqresinin növbədənkənar iclası keçirilmiş və Elçin Bayramov yeni sədr olaraq seçilmişdir. Hazırda Elçin Bayramov həmin vəzifəni yerinə yetirməkdədir.

Azərbaycanlıların məskunlaşdığı digər bir MDB ölkəsi isə Belarusdur. Azərbaycanlıların Belarusda məskunlaşması prosesi II dünya müharibəsi dövrünə təsadüf edir. Belarusun Faşist Almaniyası tərəfindən işğal edilməsindən sonra genişlənmiş partizan hərəkatında yüzlərlə azərbaycanlı iştirak etmişdir.

Müharibədən sonra bir çox azərbaycanlı burada məskunlaşmış, ailə həyatı qurmuşlar. Müharibədən sonra İttifaq miqyasında aparılan bərpa-quruculuq işlərində iştirak etmək üçün Belarusa miqrasiya edənlər də az olmamışdır. 1970-ci illərdə soydaşlarımız Belarusa təhsil almaq məqsədilə köçmüşlər. Burada daimi şəkildə məskunlaşan azərbaycanlı mühacirlər Belarus sosial-iqtisadi həyatında mühüm rol oynamışlar. 1991-ci il tarixindən etibarən Belarusda Azərbaycan diasporunun yaradılması prosesi başlanmışdır. Hazırda Belarusda 7000-ə yaxın azərbaycanlı yaşayır. Həmin azərbaycanlıların əsas yaşadıqları şəhərlər Minsk həmçinin Tallin, Magilyov və başqalarıdır.

Ziyalı, biznesmen və orta səviyyə təbəqəsində müəyyən saya malik azərbaycanlılar arasında bəzi anlaşılmaz məsələlər var. Bu anlaşılmazlıq bir tərəfdən Belarus dövlət siyasətinin keçmiş siyasi sistemə fərqli yanaşması və liderlik uğrunda icmadaxili narazılıqla şərtlənir. Nəticə etibarı ilə bu vəziyyət Belarus azərbaycanlılarının təşkilatlanmasına öz təsirini göstərmişdir. Müxtəlif peşələrdə çalışan soydaşlarımızın əksər hissəsi orta və xırda ticarətlə məşğul olanlardır. Faktların azlığı burada da Azərbaycan naminə lobbiçilik və informasiya təbliğatının zəif olduğunu təsdiqləyir.

Belarusda Azərbaycan diasporunu rəsmi şəkildə təmsil edən "Azərbaycan İcmaları Konqresi" Beynəlxalq İctimai Birliyidir. 23 noyabr 2002-ci ildə Minskdə keçirilmiş Təsis Konfransında Belarusda fəaliyyət göstərən cəmiyyətlər vahid bir təşkilatda – Belarus "Azərbaycan İcmaları Konqresi"ndə birləşmişdir. 14 oktyabr 2003-cü ildə «Azərbaycan İcmaları Konqresi» Beynəlxalq İctimai Birliyi Belarus Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.

Təşkilatın sədri çoxqat dünya və Avropa çempionu, Belarusun cüdo üzrə milli komandasının baş məşqçisi, Belarusun əməkdar idman ustası Natiq Bağırovdur. O, eyni zamanda, 17 aprel 2004-cü ildə Berlində keçirilmiş Avropa Azərbaycanlıları Konqresinin (AAK) təsis Konfransında AAK-nin vitse-prezidenti seçilmişdir. N. Bağırov, həmçinin Minsk şəhərində yaşayan

azərbaycanlıları özündə birləşdirən “Qobustan” ictimai təşkilatının sədridir. Həmçinin Belarusun Qomel, Qrodno, Mogilyov və Bobruysk şəhərlərində Azərbaycan cəmiyyətləri (Minskdə “Qobustan”, Mogilyovda “Xəzər”i, Qrodnoda “Dostluq”, Bobruyskda “Azərbaycanın mədəniyyət və tarixi cəmiyyəti”) fəaliyyət göstərir.

Hər ay Belarusun Azərbaycan İcmaları Konqresinin idarə heyətinin iclası keçirilir. İclaslarda müxtəlif təşkilatı və texniki məsələlər, planlaşdırılan tədbirlərin keçirilməsi, azərbaycanlıların hüquqlarının müdafiəsi sahəsində görülən işlər və s. müzakirə olunur. Təşkilatın maliyyələşdirilməsi hər ay yığılan üzvlük haqlarından təşkil olunur. Soydaşlarımızın təşkilata cəlb edilməsi sahəsində daimi iş aparılır. Təşkilat Azərbaycanın Belarusdakı Səfirliyi və Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsi ilə sıx əlaqədədir.

Azərbaycan dövləti tərəfindən “Azərbaycan İcmaları Konqresi” Beynəlxalq İctimai Birliyinə diqqət və müəyyən yardım göstərilir, Konqres üzvləri Azərbaycanda yaranan ictimai-siyasi və iqtisadi proseslər barədə məlumatlandırılır, Belarusda yaşayan azərbaycanlıların hüquqlarının qorunması və müdafiəsi sahəsində yardım göstərilir, Azərbaycanın milli bayramları, tarixi günləri diaspora ilə birlikdə keçirilir.

Belarus Azərbaycan İcmaları Konqresinin təşəbbüsüilə 2005-ci ilin may ayının 30-da Belarus Respublikasının paytaxtı Minsk şəhərində 28 may Respublika günü münasibətilə tədbir keçirilmişdir. Tədbirə Belarus Respublikasının Dövlət strukturlarının nümayəndələri, Belarusa akkreditə olunmuş diplomatik korpusların rəhbərləri, konqresin regional təşkilatlarının sədrləri və Belarusda yaşayan soydaşlarımız iştirak ediblər.

Belarus Azərbaycan İcmaları Konqresi Azərbaycan həqiqətlərinin ölkə ictimaiyyətinə çatdırılması prosesində eynilə aktiv iştirak etməkdədir. 2007-ci ildə Belarus Azərbaycan İcmaları Konqresi yanvarın 19-da Minsk şəhərində 20 Yanvar faciəsinə həsr olunmuş mərasim keçirmişdir. Mərasimdə Belarus Respub-

likasında fəaliyyət göstərən başqa xalqların diaspor nümayəndələri də iştirak etmişdir.

Xocalı soyqırımı ilə bağlı anma mərasimləri Belarusda da təşkil olunmuşdur. Belarus Azərbaycan İcmaları Konqresi 2005, 2006 və 2007-ci illərdə Azərbaycan Respublikasının Belarusdakı səfirliyi ilə birgə Xocalı şəhidlərinin xatirə gecəsini keçirmişdir.

Yuxarıda göstərilən faktların analizi göstərir ki, Azərbaycan dövləti MDB ölkələrində yaşayan soydaşlarımızla əlaqələrə xüsusi diqqət və həssaslıqla yanaşır, onların problem və qayğılarının həllinə hər cür yardım göstərməyə çalışır. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, Ümumrusiya Azərbaycan Konqresi, Ukrayna Azərbaycanlıları Konqresi, həmçinin Moldova Azərbaycanlıları Konqresi, eləcə də Belarus Azərbaycan İcmalarının Konqresi kimi nüfuzlu təşkilatlar məhz Azərbaycanın mənəvi-siyasi dəstəyi sayəsində yaradılmışdır. Bu qurumlarla mütəmadi iş aparan Azərbaycan dövləti onların fəaliyyət göstərdikləri ölkələrin ictimai-siyasi həyatına təsir imkanlarına malik real qüvvəyə çevrilməsinə çalışmaqdadır.

## 2.3. Mərkəzi Asiya və Gürcüstan azərbaycanlıları milli maraqların keşiyində

Dünya azərbaycanlılarının həmrəylik hərəkatı istiqamətində yeridilən dövlət siyasətinin əsas subyektlərindən biri də Qazaxıstan Respublikasıdır. Rəsmi məlumata görə Qazaxıstanda hal-hazırda 90 mindən azərbaycanlı yaşayır. Hazırda, Qazaxıstanda məskunlaşan azərbaycanlılar elm, incəsənət həmçinin kənd təsərrüfatı, kiçik eləcə də orta biznes və başqa sahələrdə çalışırlar. Həmçinin, onlar Qazaxıstanın ictimai-siyasi baxımdan həyatında yaxından iştirak edərək dövlət orqanlarında təmsil edilirlər. Həmvətənlər Qazaxıstanın qanunlarına müvafiq şəkildə özlərinin bir sıra milli-mədəni təşkilatlarını yaratmışlar.

Son zamanlar Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsinin dəstəyi ilə Qazaxıstanın Taldı-Kurqan

şəhərində «Naxçıvan», Çu şəhərində Azərbaycanlıların Mədəniyyət Mərkəzi yaradılmış və Astana, Almatı, Taldıkurqan, Karaqanda şəhərlərində Azərbaycan dilində «Həftə sonu» məktəbləri açılmışdır. Dövlət Komitəsi tərəfindən Qazaxıstanda fəaliyyət göstərən cəmiyyətlər və «Bazar günü» məktəbləri qismən orta məktəb kitabları və təbliğat, təşviqat materialları ilə təmin edilmişlər. Bu cəmiyyətlər Qazaxıstanda yaşayan azərbaycanlıların bir-biri ilə əlaqə yaratmasında, dünya azərbaycanlılarının həmrəy-liyinin əsası olan «azərbaycançılıq» prinsipinin Qazaxıstanda yaşayan soydaşlarımız arasında təbliğ edilməsində, onların tarixi vətənlə əlaqələrinin gücləndirilməsində, Azərbaycan mədəniyyətinin, milli–mənəvi dəyərlərinin təbliği–istiqamətində təqdirəlayiq fəaliyyət göstərirlər.

Azərbaycanlıların kütləvi surətdə məskunlaşdığı Mərkəzi Asiya ölkələrindən biri də Özbəkistan Respublikasıdır. Rəsmi məlumata görə Özbəkistanda hal-hazırda 60 mindən çox azərbaycanlı yaşayır. Azərbaycanlılar digər Mərkəzi Asiya ölkələrində olduğu kimi Özbəkistanda da daha çox elm, incəsənət həmçinin kənd təsərrüfatı, kiçik eyni zamanda orta biznes və başqa sahələrdə çalışırlar. Onlar həm də Özbəkistanın ictimai eyni zamanda siyasi həyatında yaxından iştirak edir, dövlət orqanlarında təmsil olunurlar.

Həmvətənlər Özbəkistanın qanunları ilə tənzimlənən bir neçə milli-mədəni təşkilat yaratmışlar. 1992-ci ildən Səmərqənd şəhərində «Azərbaycan-Özbəkistan» Mədəni-İqtisadi Əlaqələr Mərkəzi fəaliyyət göstərir. Mərkəzin əsas vəzifəsi iki ölkənin mədəni və iqtisadi münasibətlərin inkişafına kömək göstərmək, həmvətənlərimiz arasında milli-mənəvi dəyərlərin qorunub saxlan-masına yardım göstərməkdir. Dili, dini həmçinin adət-ənənələri bərabər olan özbək milləti ilə azərbaycanlıların münasibətlərinin güclənməsi Mərkəzin qarşısında dayanan əsas vəzifələrdəndir.

Azərbaycanın Mədəniyyət Mərkəzi olan «Qardaşlıq» 1989-cu il, sehtyabr ayında Daşkənddə yaradılıbdır. Mərkəzin başlıca məqsədi Özbəkistanda məskunlaşan soydaşlarımız arasında sıx

münasibətlər yaratmaq, onları Azərbaycanda yaranan hadisələr ilə yaxından tanış etmək, həmçinin milli-mədəni dəyərləri qoruyub saxlamaq, iki qardaş xalq arasında dostluq əlaqələrini möhkəmləndirməkdir.

1999-cu ildə Daşkənddə Azərbaycan Mədəniyyət Mərkəzi açılmışdır. Yeni qurumun yaradılmasından məqsəd Daşkənddə fəaliyyət göstərən 30-dək milli mədəniyyət mərkəzi arasında sıx əlaqələr yaratmaqdan ibarətdir.

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev 1997-ci ilin iyun ayında Özbəkistan Respublikasında rəsmi səfərdə olarkən oradakı Azərbaycan diasporunun nümayəndələri ilə görüşmüşdür. Ümumilli liderimiz bu görüşdə soydaşlarımıza verdiyi dəyərli tövsiyələr, diaspor qarşısında qoyduğu vəzifələr bu ölkədə yaşayan azərbaycanlılarla işin keyfiyyətcə yüksəlməsinə təkan vermişdir.

2002-ci ilin 24 noyabr tarixində isə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılar ilə İş Üzrə Dövlət Komitəsinin dəstəyilə Özbəkistan respublikasında «Azərbaycanlıların Milli və Mədəni Mərkəzləri Assosiasiyası» təsis edilmişdir. Assosiasiyanın vilayətlərdə yerli təşkilatları da fəaliyyət göstərir. Həmin Assosiasiya Özbəkistanda yaşayan azərbaycanlı şəxslərin bir-birilə münasibət qurmasında, «azərbaycançılıq» ideyasını həmvətənlərimiz arasında təbliğ etməsində həmçinin onların tarixi vətənlə əlaqəsinin möhkəmləndirilməsində, Azərbaycan dilinin, mədəniyyətinin o cümlədən milli–mənəvi dəyərlərin tanıdılmasında mühüm rola malikdir.

2004-cü il martın 24-də Daşkənddə Azərbaycan Mədəniyyət Mərkəzinin geniş açılış mərasimi olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev cənabları mərasimdə iştirak etmişdir. Prezident İlham Əliyev Daşkənd şəhərinin ən görkəmli guşələrindən birində yerləşən Mərkəzin qarşısındakı küçəyə xalqımızın ümummilli lideri olan Heydər Əliyevin adının verilməsini bildirən xatirə lövhəsini açmışdır. Prezident İlham Əliyev cənabları Daşkənddə Azərbaycanın Mədəniyyət Mərkəzinin yeni binasının açılışını

mühüm hadisə kimi qiymətləndirmiş və bu mərkəzin xalqımızın qədim tarixinin həmçinin zəngin mədəni irsinin təbliğində mühüm rol oynayacağına inamını ifadə etmişdir: «Əminəm ki, mərkəzdə keçiriləcək tədbirlər, o cümlədən ana dilində aparılacaq tədris proqramları burada yaşayan azərbaycanlılara böyük fayda verəcəkdir».

Soydaşlarımızın kompakt halda məskunlaşdığı Qırğızıstanda rəsmi məlumatlara görə 20 mindən artıq azərbaycanlı yaşayır. Soydaşlarımız əsasən, 1930-cu illərin siyasi repressiya dövründə bu ölkəyə deportasiya olunanların yeni nəslidir. Onlar yığcam halda Bişkek, Kant, Sokuluk, Oş şəhərlərində və ətraf rayonlarda məskunlaşmışlar. Vaxtilə Qazaxıstana sürgün edilmiş azərbaycanlılar içərisində də Qırğızıstana miqrasiya edənlərin sayı az olmamışdır. Qırğızıstandakı soydaşlarımızın bir hissəsi isə Özbəkistandan və Rusiya Federasiyasından bu ölkəyə miqrasiya etmişlər.

Bişkek şəhərində yaradılan və rəsmi qeydiyyatdan keçən "Azərbaycançılar" Assosiasiyası 1992-ci ildə fəaliyyətə başlamışdır. Assosiasiyanın rəhbərliyinə keçən həmvətənlərimiz ölkənin ictimai və siyasi həyatında əhəmiyyətli rola malikdirlər. Assosiasiya Qırğızıstanda məskunlaşan azərbaycanlıların fəallığının artırılması, Azərbaycanla Qırğızıstanın arasında iqtisadi eyni zamanda mədəni əlaqələrin genişlənməsi həmçinin güclənməsi sahəsində fəaliyyətini təkmilləşdirmiş olur.

Qırğızıstanın paytaxtında yaradılmış "Azəri" Mədəniyyət Mərkəzi isə 1992-ci il sonlarından etibarən fəaliyyətə başlamışdır. Mərkəz vəzifəsini Qırğızıstanda, əsasən Bişkekdə məskunlaşan soydaşlarımıza kömək edir, Azərbaycanın iqtisadi, həmçinin ictimai-siyasi eləcə də mədəni həyatı barədə mütəmadi məlumat verir, Azərbaycan və qırğız xalqlarının arasında dostluq əlaqələrini habelə əməkdaşlığı möhkəmləndirir.

1994-cü ildə Qırğızıstanda yeni bir mədəniyyət mərkəzi olan "Xəzər" yaradılmışdır. Qırğızıstanda yaşayan bütün tanınmış azərbacanlılar bu mərkəzin üzvüdürlər. Bu qurum yarandığı

vaxtdan etibarən ölkədə yaşayan soydaşlarımızın vəziyyətini, mövcud problemlərini aradan qaldırmaq, öz dilinə, adət-ənənəsinə, mədəniyyətinə hörmət və məhəbbət hissi aşılamaq, maariflənməsinə çalışmaq kimi məsələləri əsas məqsəd və vəzifə olaraq qəbul etmişdir. Həmçinin Qırğızıstandakı gənclərimizin təlim-tərbiyəsinə, təhsil almasına kömək üçün "Xəzər" bütün imkanlarından istifadə edir. Onlar doğma vətəndə baş verən hadisələri müntəzəm olaraq izləyirlər. Azərbaycanla mədəniyyət, ticarət əlaqələrini lazımi səviyyədə qurmağa çalışırlar. "Xəzər" Mərkəzi Asiyadakı digər Azərbaycan Mədəniyyət mərkəzləri və cəmiyyətləri ilə yaxından əlaqə saxlayır, birgə tədbirlər keçirməyə çalışır.

2005-ci ildə Qırğızıstan Respublikasında fəaliyyət göstərən "Türkel" ictimai birliyinin orqanı olan «Türkel» qəzeti işıq üzü görmüşdür. Sözügedən qəzetdə türkdilli ölkələrin ədəbiyyatı, mədəniyyəti, incəsənəti, tarixi və bu dövlətlərin əməkdaşlığı haqqında geniş materiallara yer verilir. Bundan başqa qəzetdə Mərkəzi Asiyaya sürgün olunmuş soydaşlarımızın həyatları ilə bağlı yazılar da dərc olunur.

Türkmənistan Respublikasında isə rəsmi statistik məlumatlara görə 80 mindən çox azərbaycanlı yaşayır. Soydaşlarımız Türkmənistanın ictimai və siyasi həyatında aktiv iştirak edir, dövlət həmçinin hökumət strukturlarında təmsil olunur, özəl müəssisələrə rəhbərlik edirlər.

Dünyanın bəzi ölkələrində olduğu kimi Türkmənistanda yaşayan soydaşlarımız arasında da əsası ulu öndər Heydər Əliyev cənabları tərəfindən qoyulmuş "azərbaycançılıq" ideyaları təbliğ olunur və inkişaf etdirilir. Faktların təhlili göstərir ki, diaspor quruculuğu sahəsində fəaliyyətin təşkili digər Mərkəzi Asiya respublikalarına nisbətən zəifdir. Bu, hər şeydən əvvəl, 1991-ci ildən sonrakı dövrlərdə Türkmənistanın bir müddət Azərbaycana münasibətdəki qeyri-səmimi mövqeyi, Xəzərin statusunun müəyyən edilməsində konsesusdan uzaq siyasəti ilə əlaqədar olmuşdur. Lakin son dövrdə Azərbaycan Respublikasının

Prezidenti İlham Əliyevin diplomatiyası, Qərb və Şərqin maraqları ilə milli maraqları çulğalaşdıran, qloballaşan dünya üçün vacib olan yeni qonşuluq siyasəti nəhəng dövlətlərlə yanaşı, Türkmənistanın da mövqeyində ciddi redaktələr etmişdir. Yaranan yeni perspektivli şəraitdə Türkmənistanda yaşayan azərbaycanlıların diaspor quruculuğu sahəsində fəaliyyəti üçün də əlverişli şərait yaranmışdır.

Beləliklə, Mərkəzi Asiya ölkələrində məskunlaşmış azərbaycanlılar arasında milli həmrəyliyin möhkəmləndirilməsi sahəsində nailiyyətlər azərbaycançılıq məfkurəsi uğrunda birgə fəaliyyətə, həmvətənlərin beynəlxalq ictimai-siyasi proseslərə təsir imkanlarının daha da artırılmasına zəmin yaradan tədbirlər ildən-ilə daha da genişlənmişdir.

Belə ki, 2005-ci ildə Qazaxıstanda “Turan” Konqresi tərəfindən Almatı şəhər məscidində azərbaycanlıların və digər xalqların nümayəndələrinin iştirakı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş anım mərasimi təşkil etmişdir. Tədbirdə soyqırım barədə iştirakçılara ətraflı məlumat verilmişdir. Bununla yanaşı Qazaxıstan ictimaiyyətinə soyqırıma beynəlxalq birlik tərəfindən hüquqi qiymət verilməsi üçün Qazaxıstandakı Azərbaycan icmasının başlayacağı imzatoplama kampaniyasında fəal iştirak etmək üçün müraciət ünvanlanmışdır.

Özbəkistanda isə Azərbaycanlıların Milli-Mədəni Mərkəzlərinin Assosiasiyası tərəfindən Daşkənddə Heydər Əliyev adına Azərbaycan Evində Xocalı faciəsinə həsr olunmuş tədbir olunmuş, faciənin ayrı-ayrı epizodlarını əks etdirən film nümayiş etdirilmişdir.

2005-ci ildə Özbəkistan Respublikasındakı Azərbaycanlıların Milli-Mədəni Mərkəzləri Assosiasiyası, Azərbaycan Gənclər Təşkilatı, Qazaxıstan Respublikasındakı “Turan” Konqresi, “Xəzər” ictimai birliyi, “Dostluq” Azərbaycan Milli-Mədəni Mərkəzi, “Dostluq” Mədəniyyət Mərkəzi, Qırğızıstandakı «Azəri» Azərbaycanlılar Assosiasiyası, Tacikistandakı “Dostluq” Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən Azərbaycanlıların

Soyqırımı Günü münasibətilə əlaqədar kütləvi tədbirlər keçirilmişdir.

Mərkəzi Asiya ölkələrindəki Azərbaycan icmaları xalqımızın mədəniyyətinin təbliği istiqamətində ötən müddət ərzində bir sıra tədbirlər təşkil etmişlər. Belə ki, 2005-ci ildə Daşkənddə olan “Musiqi” adlı nəşriyyat Muxtar Əşrəfinin adına Özbəkistanın Dövlət Konservatoriyasının professorları olan Nərgiz Poladxanovaya məxsus “Xüsusi fortepiano” həmçinin Ramidə Poladxanovaya məxsus “Konsertmeyster ustalığının sinfində opera səhnələri üzərində iş” adlı kitablar rus dilində çap edilmişdir. 2005-ci ilin 17 noyabr tarixində Özbəkistanda işləyən Azərbaycanın Mədəniyyət Mərkəzləri Assosiasiyası Azərbaycan Respublikasının bu ölkədəki səfirliyi ilə birlikdə Milli Dirçəliş Gününə həsr edilmiş təntənəli bayram tədbiri təşkil olunmuşdur. 2006-cı ildə avqust ayının 24-dən 27-nədək Qazaxıstan Respublikası, Manqistay vilayətinin Aktau şəhərində Xəzəryanı ölkələrin iştirakı ilə “Xəzər-dostluq dənizi” adlı beynəlxalq festival keçirilmişdir. Festivalda 700-ə yaxın qonaq iştirak etmişdir. Azərbaycanlılardan ibarət nümayəndə heyəti də festivala fəal şəkildə qatılmışdır. Tədbir çərçivəsində Aktau şəhərindəki Azərbaycan Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən “Dostluq” rəqs ansamblının üzvləri milli geyimdə Azərbaycanın rəqslərini nümayiş etdirmişlər. Qeyd edək ki, cəmiyyətin Azərbaycanı layiqincə təmsil etməsi məqsədilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılar ilə İş Üzrə Dövlət Komitəsi Azərbaycan Mədəniyyət Mərkəzini milli rəqs geyimləri və digər vəsaitlərlə təmin etmişdir.

Həmin il Qazaxıstanın Cambul vilayətində bu ölkədə yaşayan milli azlıqların mədəniyyət mərkəzlərinin iştirakı ilə festival keçirilmişdir. Festivalda əsasən vilayətin Çu rayonunda yaşayan 30-dan çox millətin mədəniyyət mərkəzləri nəzdində fəaliyyət göstərən incəsənət kollektivləri iştirak etmişlər. Tədbirdə səslənən Azərbaycan musiqiləri Cambul vilayətinin əhalisi tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

Cambul festivalında Çu rayonunun soydaşlarımızın sıx yaşadığı Janijol (Yeni Yol) kəndində rəsmi dövlət qeydiyyatından keçən Nəsimi adına Azərbaycan Milli Mədəniyyət Mərkəzinin nəzdində yenicə yaradılan «Azərbaycan Qızları» rəqs qrupu maraqlı və rəngarəng proqramla çıxış etmişdir.

2006-cı ildə 20 yanvar faciəsinin 16-cı ildönümü ilə bağlı olaraq Qazaxıstanda, Özbəkistanda, Qırğızıstanda, Tacikistanda fəaliyyət göstərən Azərbaycan icmaları tərəfindən də müxtəlif tədbirlər təşkil olunmuşdur.

Həmin il fevralın 25-də Özbəkistan Respublikası Daşkənd şəhərində Azərbaycan Respublikasının bu ölkədəki səfirliyi ilə birlikdə Heydər Əliyev adına «Azərbaycan Evi», Azərbaycanlıların Milli-Mədəni Mərkəzlərinin Assosiasiyası və Azərbaycan Gənclər təşkilatı Xocalı soyqırımına həsr olunmuş konfrans keçirmişlər.

Martın 31-də Almatı şəhərində Qazaxıstan Xalqlar Assambleyasının binasında «Turan» Konqresi Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı mərasim keçirilmişdir. Mərasimdə digər xalqların diaspor rəhbərləri də iştirak etmişlər. Tədbirdə ermənilərin Azərbaycanlılara qarşı törətdikləri soyqırımdan danışılmış, iştirakçılara bu barədə ətraflı məlumat verilmişdir.

Elə həmin gün Astana şəhərində fəaliyyət göstərən «Xəzər» İctimai Birliyi Azərbaycan Respublikasının Qazaxıstandakı səfirliyi ilə birlikdə Səfirliklə birlikdə Azərbaycanlıların Soyqırımı Gününə həsr edilmiş mərasim təşkil etmişdir.

«Dostluq» Azərbaycan Milli-Mədəni Mərkəzi Aktau şəhərində soyqırımla bağlı tədbir təşkil etmişdir. Digər xalqların diaspor təşkilatları rəhbərlərinin qatıldığı tədbirdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırım aktları pislənilmiş və beynəlxalq birliyin erməni terrorizminin dayandırılması istiqamətində konkret addımlar atmasının zəruriliyi bildirilmişdir.

Qazaxıstan Respublikasında yaşayan azərbaycanlıların bir hissəsini öz ətrafında birləşdirən «Dostluq» Mədəniyyət Mərkəzi mart ayının 31-də Pavlodar şəhərində azərbaycanlıların soyqırım

ilə bağlı anım mərasimi təşkil etmişdir.

Azərbaycanın Özbəkistandakı səfirliyi Daşkənddəki diasporumuzun üzvləri ilə birgə Azərbaycanlıların Soyqırımı Günü münasibətilə bağlı mərasim keçirmişdir. Soyqırım qurbanlarının xatirəsi bir dəqiqəlik sükut ilə yad edilmişdir. Mərasimdə Azərbaycan Prezidenti İlham Əliyevin soyqırımı günü ilə bağlı Azərbaycan xalqına müraciətini oxuduqdan sonra, ermənilərin son iki əsr ərzində azərbaycanlıların başına gətirdikləri müsibətlərdən danışılmışdır. Mərasimin sonunda iştirakçılara azərbaycanlıların soyqırımı, erməni terrorizminə dair materiallar toplusu paylanmışdır. Həmin məlumatlar Özbəkistanın kütləvi informasiya vasitələrinə və bu ölkədə akreditə olunmuş diplomatik korpuslara, beynəlxalq təşkilatların yerli nümayəndəliyinə də göndərilmişdir.

Qırğızıstan Respublikasının Bişkek şəhərində "Azəri" Azərbaycanlılar Assosiasiyası Tarix muzeyində azərbaycanlıların Soyqırım Günü ilə bağlı tədbir keçirmişdir. Burada soyqırımın tarixi ilə bağlı ətraflı məlumat verilmiş, erməni vəhşiliklərini nümayiş etdirən faktlar diqqətə çatdırılmış və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərdən danışılmışdır. Mərasimdə Qırğızıstan Respublikasında yaşayan digər xalqların diaspor rəhbərləri də iştirak etmişlər.

2007-ci il yanvarın 20-də paytaxt Astanada Azərbaycan Respublikasının Qazaxıstandakı səfirliyinin və «Xəzər» ictimai birliyinin dəstəyi ilə anma mərasimi keçirilmişdir. Tədbirdə 20 Yanvar hadisələrinə həsr edilmiş fotosərgi və kinofilm nümayiş etdirilmişdir. Elə həmin gün Qazaxıstanın Petropavlovsk şəhərində «Novruz» Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə tədbir keçirilmişdir. Yanvarın 18-də Tacikistanın paytaxtı Düşənbə şəhərində «Dostluq» Azərbaycan Mədəniyyət Mərkəzinin iştirakı ilə anma mərasimi təşkil olunmuşdur.

2007-ci ildə Qırğızıstandakı Azərbaycan icması Türk diasporu ilə birlikdə Xocalı Soyqırımının 15-ci ildönümü ilə bağlı tədbir keçirilmişdir. Qırğızıstandakı digər xalqların nümayəndələri və dövlət rəsmiləri iştirak etdiyi tədbirdə Xocalı Soyqırımıyla

bağlı sənədli film nümayiş etdirilmiş, beynəlxalq təşkilatlara müraciət qəbul olunmuşdur.

2007-ci il tarixində Azərbaycan Respublikasının Özbəkistan Respublikasındakı səfirliyi bu ölkədə fəaliyyət göstərmiş diaspor təşkilatlarımızla birlikdə 31 Mart  Soyqırım Günü ilə bağlı tədbir keçirmişdir. Tədbirdə mart ayının 9-da Bakıda keçirilən Azərbaycan həmçinin Türk Diaspor Təşkilatlarının Rəhbərlərinin 1-ci Forumunda Ermənistanla Azərbaycan, yəni, Dağlıq Qarabağ münaqişəsilə əlaqədar qəbul edilən müraciətin Özbəksitanda yerləşən digər dövlətlərin səfirliklərinə və buradakı milli azlıqların nümayəndələrinə göndərilmişdir.

Bunu da qeyd edək ki, 2009-cu ilin oktyabr ayının 3-də Naxçıvan şəhərində Türkdilli Dövlətlərin Şurası yaradılmışdır. Hazırda Şuranın adı Türk Dövlətləri Təşkilatıdır. Şuraya Mərkəzi Asiyadan ilk olaraq Qazaxıstan və Qırğızıstan qatılmışdır. 2019-cu ildə isə Özbəkistan üzv olmuşdur. Azərbaycan və Türkiyə Şuranın digər üzvləridir. Türkmənistan müşahidəçi üzv statusuna malikdir. Üzv ölkə rəhbərləri rəsmi olaraq ildə bir dəfə (qeyri-rəsmi olaraq da ildə bir dəfə) müxtəlif şəhərlərdə toplanırlar. Bu toplantılar ölkələr arasında əlaqələrin daha genişlənməsinə təkan verməkdədir.

Azərbaycanlıların tarix boyu yaşadığı Qərbi Azərbaycan-indiki Ermənistan ərazisinin azərbaycanlı əhalisi 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində tamamilə deportasiyaya məruz qaldığından, orada bir nəfər belə azərbaycanlı qalmadığından, Rusiyanın "forpost"u, bu monoetnik Respublika obyektiv olaraq tədqiqata cəlb edilməmişdir.

Azərbaycanlıların kompakt halda yaşadığı Gürcüstandır Gürcüstanda yaşayan azərbaycanlıların sayı təqribən 600 min nəfər civarındadır. Buna görə də azərbaycanlılar Gürcüstanda olan milli azlıqların arasındakı say çoxluğuna əsasən birinci yerdədir.

Gürcüstanda soydaşlarımız xüsusilə Kvemo-Kartli, həmçinin Şida-Kartli eləcə də Kaxet bölgələrində məskunlaşıblar. Onlar yığcam şəkildə Marneuli, Bolnis, Dmanisi, Qardabani rayonlarında, Zalqa rayonunun Ərcivan elatında, Kaxet bölgəsinin Qaraçöp

elatında, qismən amma Tetrisxaro (Ağbulaq) həmçinin Zalqa (Barmaqsız) eləcə də Telavi, Laqodex habelə Kaspi, Msxeta və Qori rayonlarında yaşayırlar.

Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvəllərində keçmiş SSRi məkanında baş vermiş proseslərin nəticəsi olaraq, Gürcüstan da müstəqillik qazandıqdan sonra bir çox mürəkkəb ictimai-siyasi və sosial-iqtisadi problemlərlə üzləşdi. Uzun müddət davam edən qeyri-sabitlik, siyasi qarşıdurmalar ölkənin bütün əhalisi kimi, azərbaycanlıların da yaşayış tərzinə, siyasi və ictimai statusuna mənfi təsirini göstərmişdir.

1991-ci ilin mayından 1992-ci ilin yanvar ayına qədərki dövrdə həyata keçirilən «milliləşdirmə» siyasəti azərbaycanlılara münasibətin aqressivləşməsinə və ölkənin ictimai həyatında iştirak səviyyəsinin azalmasına gətirib çıxardı. 16 iyul 1991-ci il tarixli «Gürcüstanda köçmə proseslərinin tənzim olunması haqqında» fərmanı bu prosesə rəvac verdi. Məhz, bu dövrdə 94 nəfər azərbaycanlı oğurlanmış, 660 nəfər vəzifəsindən kənarlaşdırılmış, 27.500 nəfər yurd-yuvasını tərk etməyə məcbur edilmişdir. Dmanisi rayonunun Ermənistanın Taşir (sabiq Kalinino) rayonu ilə sərhəddə yerləşən Muğanlı və Saatlı kəndlərinin sakinləri doğma yurdlarını tərk edərək, Bakıya köçməyə məcbur oldular. Rayonun Salamməlik, Məhəmmədağalar, Hüseynkənd, Qarabulaq, Güdəkdağ, Şindilər və s. kəndlərinin də əhalisinin böyük əksəriyyəti Azərbaycana pənah gətirdi. Həmin fərmandan sonra Bolnisi və Dmanisidə cəmi bir neçə gün ərzində «köçüb getməyi arzulayan», «könüllü olaraq» tutduğu vəzifədən azad edilməsini «xahiş edən» minlərlə şəxsin evi gürcülər tərəfindən “satın” alındı.

Azərbaycanlıların yaşadıqları bölgələrdə toponimlərin kütləvi şəkildə dəyişdirilməsi də məhz bu dövrə təsadüf edir. Həmvətənlərin yaşadığı 60-a qədər kəndin adı dəyişdirilərək gürcü adları ilə əvəzləndi. Azərbaycanın o zamankı səriştəsiz rəhbərliyinin fəaliyyətsizliyi üzündən bu proseslərə ciddi müdaxilə olunmadı.

Gürcüstan azərbaycanlılarının “Milli dayaq” hesab etdiyi

ümummilli lider H.Əliyevin hakimiyyətə qayıdışından sonra, soydaşların həyatında köklü dəyişiklik baş verdi.

1995-ci ildə Eduard Şevarnadze Gürcüstanın Prezidenti seçildikdən sonra ölkədə sabitliyin bərqərar edilməsi azərbaycanlıların da həyatında öz izini daha qabarıq göstərməyə başladı.

Gürcüstan azərbaycanlılarının ictimai, iqtisadi, mədəni-ədəbi həyatının güzgüsü olan "Gürcüstan" qəzeti baş verən dəyişiklikləri nəinki Gürcüstan azərbaycanlıları arasında, eləcə də Azərbaycanda təbliğ edirdi. Müəyyən zaman kəsiyində "Qeyrət" xalq hərəkatının eyniadlı qəzeti, Aşağı Kartli bölgə idarəsinin orqanı olan "Diyar", "Dayaq" assosiasiyasının qəzeti, "Çənlibel", "Yeni düşüncə" qəzetləri də nəşr olunmağa başladı. Hazırda maliyyə problemləri üzündən həmin qəzetlərin çapının dayanması bölgədə yaşayan soydaşların problemlərindəndir. Tbilisidə "Gürcüstan mənim vətənimdir" cəmiyyətinin orqanı olaraq "Söz", Marneulidə "Borçalı mollası” satirik, Ziyalalar Birliyinin orqanı "Ziya" qəzetlərinin qeyri-ciddi nəşrinin də azərbaycanlıların həmrəyliyinə xidmətləri danılmazdır.

Gürcüstanda soydaşlarımızın fəaliyyəti hələlik ciddi koordinasiya olunmayan bir neçə ictimai təşkilat və birliyi fəaliyyətdədir.

Azərbaycanlıları öz ətrafında birləşdirən təşkilatlardan biri "Qeyrət" xalq hərəkatıdır. 1990-cı illərdə əhalinin çətin vəziyyətdən çıxmasında, öz doğma dədə-baba yurdlarında duruş gətirməsində bu cəmiyyətin böyük rolu olmuşdur.

Üzvlərinin say baxımından iri cəmiyyətlərdən biri "Gürcüstan Azərbaycanlıları Ziyalılar birliyi"dir. Bu birlik respublikada ziyalıların əksər hissəsini, müəllimləri həmçinin şair-nasirləri, digər peşə sahiblərini ətrafinda cəmləməyə nail olmuşdur.

"Yeni yol" Birləşmiş İttifaqı 2004-cü ildə Gürcüstan parlamentinə keçirilən seçkilərdə böyük fəallıq nümayiş etdirmişdir. Qurumun sədri Kamal Muradxanlı azərbaycanlıların təmsilçisi kimi parlamentə deputat seçilmişdir.

Acarıstanda (Batumi şəhərində) 2000 nəfərdən artıq soydaşımızı cəmləşdirən "Acarıstan Gürcüstan-Azərbaycan Xeyriyyə Cəmiyyəti" adlı ictimai təşkilat yaradılmışdır. Tbilisidə yerləşən "Dayaq" assosiasiyası, "Birlik", "Gürcüstan mənim vətənimdir", "Gürcüstanın azərbaycanlı icmasının inkişaf mərkəzi" kimi ictimai birliklər, habelə "Gürcüstanın azəri qadınları", "Gürcüstan azərbaycanlı gəncləri", eləcə də bölgələrdə "Ozan" (Marneuli), "Vətən" (Qardabani) cəmiyyətləri və digər birliklər də fəaliyyət göstərir.

1997-ci ildə yaradılmış «Gürcüstan mənim vətənimdir» cəmiyyətinin üzvləri, əsasən, orta məktəbi gürcü dilində bitirən gürcüdilli azərbaycanlılardan ibarətdir. Təşkilatın 10 mindən çox üzvü vardır.

Faktların təhlili bu cəmiyyətlər arasında əlaqələrin çox aşağı səviyyədə olmasından və onların fəaliyyətinin koordinasiya olunmamasından xəbər verir. Liderlik problemi, şəxsi iddialar Azərbaycan təşkilatlarının bir araya gəlməsinə mane olur. Dövlət Komitəsi Azərbaycan cəmiyyətlərinin işini koordinasiya etmək məqsədilə Ümumgürcüstan Azərbaycanlılarının Konqresini təsis etmək barədə təşəbbüslə çıxış etsə də həmin cəmiyyətlərin bu məsələyə münasibəti birmənalı olmamışdır. Bəzi cəmiyyətlər belə bir qurumun yaradılmasına hətta ehtiyac olmadığını bildirmişdir.

2005-ci il tarixində Xarici Ölkələrdə Yaşayan azərbaycanlılar ilə İş Üzrə Dövlət Komitəsi Azərbaycan Respublikası Baş nazirinin göstərişi ilə iyul ayında Gürcüstanda yaşayan azərbaycanlıların problemlərilə əlaqədar Azərbaycan ictimaiyyətində, habelə kütləvi informasiya vasitələrində öz əksini tapan ziddiyyətlərə aydınlıq gətirmək, soydaşlarımızın problem və qayğılarını dəqiq şəkildə müəyyənləşdirmək məqsədilə, işçi qrup yaratmışdır. İşçi qrupu tərəfindən aparılmış ilkin araşdırmaların nəticəsi olaraq, Gürcüstanda yaşayan azərbaycanlıların problemlərini və onların həllinə yönələn təklifləri özündə birləşdirən xüsusi arayış hazırlanıbdır. Həmin arayış Azərbaycan Respublikasının Prezidentinə eyni zamanda Azərbaycan

Respublikasının Nazirlər Kabinetinə verilmişdir.

Cəmiyyətin geniş marağını, Gürcüstanda yaşayan soydaşlarımızın problemlərilə əlaqədar ictimaiyyətin narahatlığını nəzərə alıb, Azərbaycan Respublikası Prezidentinin tapşırığıilə Xarici Ölkələrdə Yaşayan azərbaycanlılar ilə İş üzrə Dövlət Komitəsinə sədr olan Nazim İbrahimovun rəhbərliyilə Azərbaycandakı bir sıra ictimai təşkilatların və kütləvi informasiya vasitələrinin təmsilçilərindən ibarət nümayəndə heyəti 2005-ci ilin 26-29 sentyabr tarixində Gürcüstan Respublikasında ezamiyyətdə olmuşdur. Nümayəndə heyəti Gürcüstanın azərbaycanlılar yaşayan bir sıra bölgələrində olmuş, soydaşlarımızın hüquqlarının müdafiəsi ilə məşğul olan ictimai təşkilatların təmsilçiləri, yerli hakimiyyət orqanlarının rəhbərləri, Gürcüstan Respublikasının dövlət rəsmilərilə görüşmüşdür. Məhz bu görüşlərdən sonra həmvətənlərin problemlərinin araşdırılması, dövlət səviyyəsində onlara yardım göstərilməsi, Gürcüstanın dövlət siyasətinə təsir edilməsi intensivləşmişdir.

Azərbaycanlılar Gürcüstanın bir neçə rayonunda yaşasalar da, onların qarşılaşdıqları problemlərin xarakteri demək olar ki, eynidir. Gürcüstanda yaşayan azərbaycanlıların ən əsas problemlərindən biri torpaq bölgüsü ilə bağlıdır. Həyata keçirilən iqtisadi islahatların aparılmasında müəyyən qüsurlara da yol verildiyindən, torpaqlar gürcü milliyyətli şəxslər tərəfindən özəlləşdirildikdən sonra icarəyə verilməklə təsərrüfat üçün qeyri-bərabər şərait yaradırdı. Halbuki, azərbaycanlıların kompakt yaşadığı bölgələr Gürcüstan iqtisadiyyatında önəmli yer tutur. Təkcə, Kvemo-Kartli bölgəsində 2001-ci ildə 126 min ton kartof istehsal edilib ki, bu da bütün Gürcüstanda istehsal olunan kartofun 41,8 faizinə bərabərdir. Gürcüstanın tərəvəz məhsullarının 25,4 faizini də məhz bu region verir. Regionun iqtisadiyyatında heyvandarlıq da xüsusi çəkiyə malikdir. Belə ki, ölkədə olan iri buynuzlu mal-qaranın 11 faizi Kvemo-Kartli bölgəsinin payına düşür.

Gürcüstan azərbaycanlılarının digər problemi təhsil sahəsi ilə

bağlıdır. Hazırda *Gürcüstanda 116 azərbaycandilli və Azərbaycan bölməsinin olduğu məktəb fəaliyyət göstərir. Bunların 104-ü Kvemo Kartli, 9-u Kaxeti, 3-ü isə Tbilisidədir.* Hər il bu məktəbləri 1000 nəfərdən çox şagird bitirir. Azərbaycan dilli məktəblərə şagird kontingentinin gəlişi Gürcüstanın dövlət siyasəti səbəbindən, gürcü dilini bilməyənlərə dövlət qurumlarında iş verilməməsi qərarı üzündən sürətlə azalır. Gürcüstanda 2005-ci ilin aprel ayında qəbul edilmiş yeni təhsil qanununda isə ölkə ərazisində fəaliyyət göstərən bütün məktəblərin gürcü dilində tədrisə keçməsi ilə bağlı xüsusi müddəa öz əksini tapmışdır ki, bu da azərbaycanlılar üçün ciddi problem yaradır.

1989-cu ildə Gürcüstanda təxminən 80 minə yaxın azərbaycanlı orta təhsil aldığı halda, 1999-cu ildə bu rəqəm 40 minə. 2005-ci ildə isə 35 minə enmişdir. Bu məktəblərdə 4 minə yaxın azərbaycanlı müəllim çalışdığı halda, hazırda bu sayda kifayət qədər azalma müşahidə edilməkdədir.

Həmvətənlərimizin ölkəni kütləvi şəkildə tərk etməsinin əsas səbəblərindən biri də budur. Təkcə 2005-ci ildə Gürcüstanda 4 Azərbaycan məktəbi öz fəaliyyətini dayandırmalı olmuşdur. 2021-ci ildə isə 3 məktəb bağlanmışdır.

Gürcüstan azərbaycanlılarının əsas problemlərindən biri də gürcü cəmiyyətinin idarəçiliyinə inteqrasiya prosesinin kifayət qədər ləng getməsidir. Ölkə ərazisində keçirilən bütün seçkilərdə soydaşlarımız fəal iştirak etsələr də, öz səslərindən siyasi proseslərə və ölkə hakimiyyətinə təsir vasitəsi kimi istifadə edə bilmirlər. Məsələn, ötən parlament seçkilərində Gürcüstanın qanunverici orqanında azərbaycanlılar 6 deputatla təmsil olunduğu halda, 2004-cü il seçkilərində onların sayı 3 nəfərə (Marneuli rayonundan majoritar qaydada seçilmiş polkovnik Adil Cəfərov, hakim Milli Hərəkat - Demokratlar Blokunun partiya siyahısı üzrə seçilmiş Kamal Muradxanov və Allahverdi Hümmətov) enmişdir. Halbuki, seçkilərdə 25 azərbaycanlının deputatlığa namizədliyi irəli sürülmüşdü. Bu fakt Gürcüstandakı azərbaycanlıların siyasi fəallıq dərəcəsinin getdikcə zəiflədiyini göstərir. *Qeyd edək ki, son*

*parlament seçkilərində də azərbaycanlı deputatların sayı 3 olmuşdur.*

Soydaşlarımızın gürcü dilini mükəmməl bilməməsi dövlət və hakimiyyət orqanları ilə ünsiyyət qurmağa, hüquq və azadlıqlarının təmin olunması üçün müvafiq strukturlar qarşısında məsələ qaldırmağa, eyni zamanda qəbul olunmuş qanunların müsbət və mənfi məqamlarını öyrənməyə də imkan vermir. Bu fakt Qafqaz Sülh, Demokratiya və İnkişaf İnstitununun hesabatında da üz əksini tapmışdır. Azərbaycan Respublikası Baş nazirinin göstərişi ilə Dövlət Komitəsində Gürcüstanda yaşayan azərbaycanlıların problemlərinin həlli ilə bağlı hökumətlərarası proqram layihəsi hazırlanmışdır. Hazırda həmin layihə əsasında Gürcüstan azərbaycanlılarının cəmiyyətə inteqrasiyası ilə bağlı müəyyən işlər görülür.

Qeyd etmək lazımdır ki, Gürcüstan azərbaycanlılarının problemlərinin həllinə Azərbaycan hökuməti tərəfindən kifayət qədər diqqət göstərilsə də, bu problemləri tamamilə ləğv etmək mümkün olmamışdır. Bunun əsas səbəblərindən biri, Gürcüstan hökumətinin milli azlıqlarla bağlı siyasətində həddən artıq ehtiyatlı davranmasıdır. Tbilisi bütün milli azlıqların problemlərinin eyni vaxtda və eyni templə həll edilməsinə üstünlük verir.

Digər tərəfdən, Gürcüstan hökuməti milli azlıqların ölkədən miqrasiyasına mane ola biləcək tədbirləri o qədər də böyük həvəslə həyata keçirmir. Məsələn, beynəlxalq təşkilatların tövsiyələrinə baxmayaraq, Gürcüstan hökuməti «Regionların və milli azlıqların dili haqqında Avropa Partiyası»nı, «Ərazi və milli icmaları və hakimiyyətlər arasında transsərhəd əməkdaşlığına dair çərçivə konvensiyası»nı ratifikasiya etməmişdir. Bundan başqa, azərbaycanlılar yaşayan bölgələrdə torpaqların böyük əksəriyyəti etnik gürcülərə verilmişdir. Məktəblərdə Azərbaycan dilinin tədrisinin məhdudlaşdırılması istiqamətində iş yenə də aparılmaqdadır. Belə bir şəraitdə həmvətənlərin həmrəyliyinə, milli mədəniyyət nümunələrinin təbliğinə həsr olunmuş tədbirlərin keçirilməsi daim diqqət mərkəzində saxlanılır. 2006-cı il mart

ayının 31-də "Yeni Yol" Birləşmiş İttifaqı Tbilisi şəhərində Azərbaycanlıların Soyqırım günü ilə bağlı mərasim təşkil etmişdir. Mərasimdə ermənilərin törətdikləri soyqırımın faciəli nəticələrindən danışmış, bu hadisələrə aid tarixi faktlar diqqətə çatdırılmışdır.

Elə həmin gün Marneuli şəhərində Azərbaycanın Mədəniyyət Mərkəzi Azərbaycanın Gürcüstandakı səfirliyi ilə birlikdə soyqırım gününə həsr edilmiş anım mərasimi keçiribdir.

Mart ayının 31-də Marneuli şəhərində 31 mart soyqırımının qurbanlarının xatirəsinə həsr olunmuş daha bir tədbir keçirilmişdir. Gürcüstan Azərbaycanlılarının Ziyalılar Birliyinin təşəbbüsü və təşkilatçılığı ilə keçirilən mərasimdə soyqırım qurbanlarının xatirəsi bir dəqiqəlik sükut ilə yad edilmiş, 1918-ci ilin 31 mart hadisələrinə dair faktlar iştirakçıların diqqətinə çatdırılmışdır.

2007-ci il yanvarın 19-da Gürcüstanın Marneuli şəhərindəki Azərbaycanlıların Mədəniyyət Mərkəzində 20 yanvar faciəsinin 17-ci ildönümü ilə bağlı yığıncaq keçirilmişdir. Tədbir zamanı Mədəniyyət Mərkəzinin binasında 20 yanvar faciəsinə həsr olunmuş fotostendlər və sənədli film nümayiş etdirilmişdir.

Qeyd edilənləri nəzərə alaraq, Azərbaycan hökumətinin Gürcüstan azərbaycanlılarının problemlərinin həlli ilə bağlı konkret strategiya hazırlamasına ehtiyac zərurəti özünü diqtə edir.

# III FƏSIL. ABŞ, AVROPA VƏ TÜRKİYƏDƏ YAŞAYAN HƏMVƏTƏNLƏRİN AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ MARAQLARININ MÜDAFİƏSİNƏ TƏSİRİ

## 3.1.ABŞ-da məskunlaşan soydaşların Azərbaycan dövlətinin beynəlxalq reputasiyasının yüksəldilməsində rolu

ABŞ-a türkün miqrasiyası XIX əsrin sonlarından başlayır. 1860-1921-ci illərdə Amerikaya 1 milyon 200 min nəfər mühacirət etmişdir. ABŞ İmmiqrasiya İdarəsinin məlumatına görə təkcə 1900-1920-ci illər arasında Türkiyədən həmin ölkəyə 391.435 nəfər mühacir daxil olmuşdur. ABŞ-a köçənlər rəsmi orqanlarda məhz türk milliyyətindən olan şəxslər kimi qeydiyyatdan keçdiyindən, eyni zamanda o dövrdə azərbaycanlılar daha çox Azərbaycan türkləri kimi tanındığından nə qədər soydaşımızın bu ölkəyə miqrasiya etdiyi barədə dəqiq məlumatlar yoxdur.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra bolşeviklər tərəfindən təqiblərə məruz qalmış soydaşlarımızın bir qismi ABŞ-a üz tutmağa məcbur olmuşlar. Bunların sırasında Xalq Cümhuriyyətində milli təhlükəsizlik naziri olmuş Nağı bəy Şeyxzamanlını və başqalarını göstərmək olar.

1939-1945-ci il İkinci dünya müharibəsi zamanı Almaniyaya əsir götürülmüş minlərlə azərbaycanlı içərisində də ABŞ-a mühacirət edənlər az olmamışdır. Müharibə zamanı faşistlər tərəfindən əsir götürülmüş soydaşlarımızın bir hissəsi sonradan Amerika Birləşmiş Ştatlarına mühacirət etmişdir.

1979-cu ildə baş vermiş İran İslam inqilabı zamanı Şah rejimini müdafiə edən minlərlə azərbaycanlı yeni hökumətin təqiblərindən xilas olmaq üçün ABŞ-a mühacirət etmişlər. Onlar Amerikada məskunlaşaraq bu ölkənin bərabərhüquqlu vətəndaşlarına çevrilmişlər. Bu dövrdə ABŞ-a köçmüş cənubi azərbaycanlıların çox az bir qismi sonralar İrana qayıtmışlar.

Azərbaycanlıların Amerikaya miqrasiyasının sonuncu

mərhələsi isə Sovet İttifaqının süqutu və ölkəmizin dövlət müstəqilliyininin ilk illərinə təsadüf edir. Bu dövrdə ABŞ-a köçən soydaşlarımız içərisində ziyalılar daha çox üstünlük təşkil etmişdir. Onlar daha çox elm, texnika, informasiya texnologiyaları sahəsində çalışan mütəxəssislər, habelə tanınmış mədəniyyət və incəsənət xadimləri idi. Onlardan Çingiz Sadıqov, Ceyhun Mollazadə və başqalarını göstərmək olar.

ABŞ-da yaşayan həmvətənlərlə əlaqələrin yaradılmasına xüsusi nəzarət edən ulu öndər Heydər Əliyev cənabları 1995-ci ilin oktyabr ayının 20-də ABŞ-a səfəri zamanı soydaşlarımızla görüşündə Azərbaycanın qarşılaşdığı problemlərlə bağlı soydaşlarımıza ətraflı məlumat verərək, onların dövlətçiliyimiz və tarixi vətənin maraqları ətrafında sıx birləşməyə çağırmışdır. Bu, Azərbaycan Prezidentinin ABŞ-dakı azərbaycanlılarla ilk görüşü idi. Məhz bu görüşdən sonra ABŞ-dakı Azərbaycan icmaları daha fəal iş aparmağa, ölkəmizin milli maraqlarını daha qətiyyətli şəkildə müdafiyə etməyə başlamışlar.

1997-ci il iyulun 29-da Vaşinqtonda Azərbaycan icmasının nümayəndələri ilə görüşən Heydər Əliyev soydaşlarımızı milli-mənəvi dəyərlərini, adət-ənənələrini unutmamağa çağırmışdır. Heydər Əliyevin diaspor nümayəndələri ilə bu görüşü artıq yeni dövrün – Azərbaycanda ictimai-siyasi sabitliyin bərqərar edildiyi, iqtisadi inkişafın start götürdüyü mərhələnin başlanğıcına təsadüf edirdi. ABŞ-da yaşayan soydaşlarımız dövlətin və onun rəhbərinin diaspor quruculuğu işinə nə qədər böyük önəm verdiyini dərk edərək daha ciddi, ardıcıl fəaliyyət göstərirdilər.

ABŞ-a səfəri zamanı 1997-ci il avqustun 4-də Çikaqoda Azərbaycan Mədəniyyət Cəmiyyətinin nümayəndələri ilə görüşündə soydaşlarımızla müxtəlif məsələlər ətrafında fikirlərini bölüşərək Heydər Əliyev erməni diasporunun ABŞ-da böyük imkanlara malik olduğunu vurğulamış, Amerikada yaşayan türklərlə güclərini birləşdirməyi tövsiyə etmişdir.

Heydər Əliyev Azərbaycan və Türkiyənin bir millət, iki dövlət olduğunu xatırladaraq, Azərbaycan və türk diasporunun

birlikdə daha böyük nailiyyətlər qazana biləcəyinə əminliyini ifadə etmişdir. Məhz bu tövsiyə Azərbaycan və Türk diasporunun bütün dünyada birgə fəaliyyətini nəzərdə tutan ideya və təşəbbüslərin kütləviləşməsində mühüm rol oynamışdır.

Qeyd edək ki, hazırda ABŞ-da fəaliyyət göstərən Azərbaycan icmaları öz fəaliyyətlərində ölkəmizin milli maraqlarının müdafiəsini, milli-mənəvi dəyərlərimizin qorunub saxlanmasını, mədəni irsimizin təbliğini, ermənilərin apardığı təbliğatın qarşısının alınmasını prioritetlər kimi qəbul edir.

Amerikada Azərbaycanın diaspor təşkilatı ilk dəfə 1956-cı il tarixində yaradılmış Azərbaycan-Amerika Cəmiyyəti (AAC) olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin məşhur nümayəndələrindən Nağı bəy Şeyxzamanlının təsis olunmuş bu cəmiyyət Amerikada Azərbaycanın həqiqətlərini təbliğ edir, respublikanın Sovetlər tərəfindən işğalını bəyan edirdi. AXC-ın qabaqcıl üzvləri Azərbaycan Respublikasının "Heç bir yerdə məskunlaşmayın, bizim gözəl ölkəmiz var. Nə zamansa bir gün biz geri dönərək, orada yaşayacağıq» arzusu ilə sələflərinə vəsiyyət etmiş Nağı Şeyxzamanlı kimi banilərin nəvələri həmçinin nəticələridir.

AAC azərbaycanlıları öz ətrafında cəmləyərək xalqımızın qədim tarixi eyni zamanda zəngin mədəniyyəti haqqında Amerika ictimaiyyətini məlumatlandırır. Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində milli azadlıq hərəkatının genişlənməsi, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünə təcavüzünə həmçinin Dağlıq Qarabağ ətrafında yaranan hadisələrə etiraz ilə əlaqədar AAC, ABŞ-dakı ən aktiv Azərbaycan diaspor təşkilatlarından birinə çevrilibdir.

1992-ci il tarixində ermənilərin ən sıx məskunlaşmış olduğu Ştatların birində, həmçinin şimali Kaliforniyada təsis olunmuş Azərbaycan Mədəniyyət Ocağı məhz bütün Amerika cəmiyyətinə vətənin məruz qaldığı erməni qaniçənliyi, xalqımızın humanizmi haqqında faktları çatdırır. Erməni diasporunun həqiqəti təhrif edən məkrli əməlləri həqiqətin yayılmasının qarşısını almağa çalışsa

belə, azərbaycanlıların vətən, milli dövlət və Türk diaspor təşkilatları ilə sıx əməkdaşlıq mühitində həyata keçirdiyi fəaliyyətlər qarşıya qoyulmuş məqsədlərin reallaşmasını təmin edir.

1994-cü ildən Vaşinqtonda fəaliyyət göstərən Amerika-Azərbaycan Şurası milli həmrəyliyin daha da möhkəmləndirilməsinə, Azərbaycan və Amerika xalqlarının arasında qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsində mükəmməl təcrübə qazanmışdır. ABŞ-ın siyasi elitası, dövlət eyni zamanda qeyri-hökumət təşkilatlarıilə əlaqələrə malik bu qurum, yəhudi və türk diasporu ilə də əməkdaşlıq edir.

1995-ci ildən Vaşinqtonda fəaliyyət göstərmiş olan Amerika və Azərbaycan Ticarət Palatası ölkəmizin iqtisadi potensialı, ABŞ-la əlaqələrinin hazırkı vəziyyəti və gələcək perspektivləri ilə bağlı Amerika ictimaiyyətini məlumatlandırmağa çalışır.

2002-ci il tarixində yaradılmış Şimali Azərbaycan Mədəniyyət Mərkəzi isə San Fransiskoda fəaliyyət göstərir. Bu qrumda toplaşan azərbaycanlıların başlıca məqsədi miqrant həyatı ilə bağlı qarşılaşdıqları çətinlikləri birlikdə həll etməkdən ibarətdir.

2005-ci ilin yanvar ayında təsis edilmiş, Nyu-York şəhərində məskunlaşmış soydaşlarımızı birləşdirən Azərbaycan Nyu-York Assosiasiyası azərbaycanlıların hüquq və azadlıqlarının qorunmasına dəstək vermək, Amerika cəmiyyətinə inteqrasiyasını sürətləndirmək, xalqımızın mədəni irsini geniş şəkildə təbliğ etmək istiqamətində Azərbaycan dövləti ilə koordinasiyalı fəaliyyət göstərir.

2006-cı ilin oktyabr ayında Amerika Birləşmiş Ştatlarının Mayami şəhərində yaşayan azərbaycanlıların birgə toplantısı keçirilmişdir. Toplantıda şəhərdə məskunlaşmış soydaşlarımızın birlikdə yeni diaspor təşkilatı yaratmaq barədə təşəbbüsü qəbul edilmişdir. Sonda təşkilatın rəhbər strukturları seçilmiş və rəsmi qeydiyyata alınması üçün müvafiq sənədlər hazırlanaraq, Florida ştatının Tallahassi şəhərinin müvafiq orqanına göndərilmişdir.

2006-cı ilin noyabrında ABŞ-da Amerika-Azərbaycan Tədqiqatlar İnstitutu yaradılmışdır. Amerika Azərbaycan Tədqiqatlar İnstitutunun yaradılmasının başlıca məqsədi Azərbaycanla ABŞ

arasında münasibətlərin inkişaf etməsinə dəstək vermək, həmçinin Amerika ictimaiyyətini Azərbaycanın keçmiş tarixi, zəngin mədəniyyəti o cümlədən müasir ictimai eyni zamanda siyasi həyatı haqqında məlumatlandırmaqdan ibarətdir. Tədqiqatlar İnstitutu o cümlədən Amerika və Azərbaycanın şəhərlərinin qardaşlaşması layihəsini həyata keçirərək, tələbə mübadiləsi aparır, Vaşinqtonda, Bakıda tədbirlər, ölkələrin arasında nümayəndə heyətlərinin qarşılıqlı şəkildə səfərlərini təşkil edir. İnstitut Azərbaycanın turizm həmçinin iqtisadiyyat sahələrinə töhfə verməkdədir.

2006-cı ilin oktyabr ayında Kaliforniyanın Azərbaycan-Amerika Şurası (KAAŞ) Azərbaycanın Los-Anjelesdəki Baş konsulluğu, ABŞ-Azərbaycan Ticarət Palatası və Amerikanın Azərbaycan Cəmiyyəti ilə birgə ABŞ-da yaşayan azərbaycanlı gənclərin birinci forumunu keçirmişdir. Kaliforniyanın Los-Anjeles Universitetində təşkil edilən foruma yüz nəfərdən çox azərbaycanlı gənc toplaşaraq, ölkəmizi ABŞ-da daha da geniş tanınmasının yollarını müzakirə etmişlər. Forumda çıxış edən şəxslər diasporun təşkilatlanması, ABŞ-ın qanunverici orqanları ilə əlaqələrin inkişafı, habelə Azərbaycanın geosiyasəti həmçinin mövcud iqtisadi durumu eləcə də təhsil sistemində vəziyyət olaraq mühüm mövzulara diqqət etmişlər. Amerikanın fərqli ştatlarından gəlmiş forum iştirakçıları yerinə yetirdikləri layihələr haqqında fikir mübadiləsi aparıblar.

2006-cı ildə iyun ayının 8-də Antalyada keçirilən Dünya Azərbaycanlı Ziyalılarının Forumu çərçivəsində Amerikada fəaliyyət göstərən Azərbaycan icmalarının toplantısı keçirilmişdir. Toplantıda Azərbaycan icmalarının nümayəndələri ilə yanaşı, Amerika Türk Assosiasiyaları Assambleyasının sədri Vural Cengiz, ABŞ Yəhudi icmasının nümayəndəsi Nobert Yevdayev də iştirak etmişlər. Toplantıda Amerikada fəaliyyət göstərən Azərbaycan icmalarının birləşərək Amerika Azərbaycan Assosiasiyaları Assambleyasının yaradılması təşəbbüsü ilə çıxış etmişlər.

ABŞ-da 1992-ci ildə qurulmuş Amerika Azərbaycan Evi, 2002-ci il tarixindən fəaliyyət göstərən Azərbaycan-Amerika mədəniyyət mərkəzi, həmin ildə əsası qoyulmuş Azərbaycan Mədəniyyət Birliyi,

2004-cü ildə yaradılmış Azərbaycan-Amerika Təhsil həmçinin Mədəniyyət Fondu kimi ümumilikdə 30-dan artıq Azərbaycan diaspor təşkilatı vardır.

ABŞ-dakı Azərbaycan diasporu ötən müddət ərzində Azərbaycan həqiqətlərinin bu ölkənin ictimaiyyətinə çatdırılmasına xidmət edən bir sıra mühüm tədbirlər keçirmişdir. Belə ki, 2003-cü ildə ABŞ-nın St Luis ştatında Türk və Azərbaycan diaspor nümayəndələrinin təşəbbüsü ilə Sent Luis Mərkəzi kitabxanası və muzeyində Azərbaycanla bağlı güşə açılmışdır. Burada Azərbaycanın təbiəti, tarixi, müasir ictimai həyatı ilə bağlı eksponat və məlumatlar nümayiş etdirilir.

2003-cü il oktyabr ayının 24-də Nyu-York şəhərində Ermənistanın BMT yanındakı daimi nümayəndəliyində qatı cinayətkar, qondarma «Dağlıq Qarabağ Respublikası»nın separatçı «lideri» Arkadi Qukasyan ABŞ-da olarkən keçirdiyi mətbuat konfransı zamanı Amerika-Azərbaycan Cəmiyyəti Kolumbiya Universitetinin Tələbə Assosiasiyası ilə birgə etiraz mitinqi təşkil etmişdir. Aksiya zamanı mətbuat konfransının iştirakçılarına, habelə sadə insanlara əyani vəsaitlər və məlumat vərəqələri paylanmışdır.

2004-cü ilin yanvar ayında 57 türk icmasını özündə birləşdirən «Amerika – Türk Assosiasiyaları Assambleyası»nın ABŞ-ın Vaşinqton şəhərində keçirilmiş XXIV qurultayının ikinci günü bütövlükdə Azərbaycana həsr edilmişdir. Tədbirdə ABŞ-ın və Türkiyənin tanınmış siyasət və dövlət adamları, o cümlədən Türkiyə Cümhuriyyətinin baş naziri olan Rəcəb Tayyib Ərdoğan cənabları, Türkiyənin bir sıra nazir və millət vəkilləri, eyni zamanda, ABŞ Konqresinin üzvləri, Amerika və Kanadada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının nümayəndələrin iştirak etmişlər. Tədbir çərçivəsində təşkil olunmuş «Azərbaycanın müasir dünyada yeri və inkişaf perspektivləri» mövzusunda konfrans ölkəmiz haqqında ABŞ ictimaiyyətini məlumatlandırmağa xidmət etmişdir. Tədbirdə Azərbaycan Prezidenti cənab İlham Əliyevin qurultay iştirakçılarına ünvanlanmış müraciəti

oxunmuşdur. Türkiyə və Azərbaycan diaspor nümayəndələrinin qurultayda iştirakını yüksək dəyərləndirən cənab R. T. Ərdoğan çıxışının əsas hissəsini Azərbaycan-Türkiyə münasibətlərinə həsr edərək bu sahədə qazanılmış nailiyyətlər, Azərbaycan və türk diasporlarının əlaqələrinin möhkəmləndirilməsi yolları barədə fikirlərini açıqlamışdır.

2004-cü il fevralında Amerikanın Azərbaycan Cəmiyyətinin təşəbbüsü Nyu-Yorkda «Heydər Əliyev ucalığı» adlı mövzuda anma mərasimi keçirilibdir. Tədbirdə Azərbaycanın dövlət həmçinin hökumət nümayəndələri, Milli Məclisin deputatları ilə yanaşı, Kolumbiya Universitetinin professoru Tadeus Svetaxovski, professor Evan Kliger, tanınmış yazıçı-jurnalist Tomas Qolts, Amerikanın Yəhudi Cəmiyyətinin, ABŞ-dakı Azərbaycan Yəhudiləri Cəmiyyətinin və Azərbaycan diaspor təşkilatlarının nümayəndələri iştirak etmişlər.

2005-ci ildə Xocalı faciəsinin on üçüncü ildönümü ilə əlaqədar İndiana Universitetində azərbaycanlı tələbə və aspirantların təşəbbüsü ilə sərgi keçirilmişdir. Tələbələr Xocalı soyqırımına dair konqresdəki obyektiv çıxışına görə, konqresmen Den Bertona təşəkkür məktubu ünvanlamışlar.

Amerikanın Azərbaycan Cəmiyyəti də Xocalı soyqırımı ilə bağlı aksiyalar təşkil etmişdir. Ermənilərin törətdikləri vəhşiliklərə etiraz yürüşündən sonra cəmiyyətin adından Amerika ictimaiyyətinə, siyasi xadimlərə və mediyaya ünvanlanmış xüsusi press-relizlər yayılmışdır. Vaşinqtondakı Amerika-Azərbaycan Ticarət Palatası isə Azərbaycan icması ilə birlikdə Ermənistan səfirliyinin qarşısında piket keçirmişdir.

Həmin ilin mart ayında Amerikanın Azərbaycan Cəmiyyəti «Azərbaycanlıların Soyqırımı Günü»nün 87-ci ildönümünə həsr edilmiş anım mərasimi keçirmişdir. Cəmiyyət üzvləri 1918-ci ilin martında ermənilər tərəfindən Azərbaycanda törədilmiş vəhşi qətllərin qurbanlarını yad etmişlər. Cəmiyyətin Amerikadakı kütləvi İnformasiya vasitələrinə və ictimai təşkilatlarına ünvanlanmış press-relizdə azərbaycanlıların soyqırımına aid faktlar öz

əksini tapmışdır.

2006-cı il sentyabr aynın 17-də Los-Qatos şəhərində Şimali Kaliforniyadakı Azərbaycan Mədəniyyət Cəmiyyətinin təşkilatçılığı ilə yerli azərbaycanlıların 8-ci yığıncağı keçirilmişdir. 600 nəfərə yaxın soydaşımızın iştirak etdiyi tədbirə San Xose şəhərinin meri vəzifəsinə əsas namizəd Sindi Çavez də qatılmışdır. Cəmiyyətin fəaliyyətinin müzakirə olunduğu tədbirdə San Xose şəhərinə Azərbaycanda qardaş şəhərin müəyyənləşdirilməsi fikri irəli sürülmüşdür.

Oktyabr ayının 18-də Nyu-York şəhərində Azərbaycan diasporunun təşəbbüsü ilə azərbaycanlı şagirdlər üçün «Həftə sonu» məktəbi açılmışdır. Şagirdlərin sayının artmasından sonra milli mədəniyyətin öyrədilməsi məqsədi ilə dərsdənkənar fəaliyyətlər də proqrama daxil edilmişdir.

ABŞ-dakı diaspora xüsusi diqqət göstərən Azərbaycan Prezidenti İ. Əliyev xarici ölkələrə səfərlərində Azərbaycan diasporunun nümayəndələrini dəfələrlə qəbul etmiş, onların problemləri və qayğıları ilə maraqlanmışdır. 2006-cı il aprel ayının 27-də ABŞ-a səfəri çərçivəsində Vaşinqtonda Azərbaycan icmasının üzvləri ilə görüşmüş, əksər mühüm məsələlərlə əlaqədar diplomatik səylərin artırılmasıilə bərabər, güclü diaspora ehtiyac yarandığını söyləmiş, onun öz imkanlarından səmərəli şəkildə istifadə etməyin zəruriliyini vurğulamışdır. Əsas nəzarətin Ermənistan-Azərbaycan həmçinin Dağlıq Qarabağ münaqişəsinin həll edilməsinə yönəldilməsini, bu istiqamətdə birlikdə fəaliyyətin möhkəmləndirilməsinin zəruriliyini vurğulamışdır.

ABŞ azərbaycanlıları ilə milli həmrəyliyim möhkəmləndirilməsi istiqamətində həyata keçirilən siyasət tarixinin araşdırılması, güclü diasporların, məsələn Yahudi, eləcə də təcavüzkar erməni xislətli diasporların təcrübəsinin öyrənilməsi milli diasporun fəaliyyətindəki çatışmazlıqları və inkişaf perspektivlərini dəqiqləşdirməyə imkan verir. Məsələn, milli diasporun ayıqlığı sayəsində Nyu-Yorkun Amerika Təbiətşünaslıq Muzeyində dünyanın bütün xalqları haqqında, o cümlədən erməni və gürcülərin tarixindən bəhs edən iki

bölmə olduğu halda, Azərbaycana aid ekspozisiyanın olmadığı aşkarlanmışdır. Həmin Muzeydə təəccüb doğuran məqamlardan biri də budur ki, hətta türklər, İslam dünyası, keçmiş SSRİ respublikalarının tarixindən bəhs edən bölmələrdə də xalqımızın adı çəkilməmişdir. Bu barədə məlumat alan Azərbaycanın ABŞ-dakı səfirliyinin səyi ilə ölkəmizin tarixi və mədəniyyəti haqqında məlumatların ABŞ ictimaiyyətinə və bura səfərə gələn müxtəlif ölkələrin nümayəndələrinə çatdırılmasında mühüm rol oynayacaq Nyu-York Amerika Təbiətşünaslıq Muzeyində Azərbaycan ekspozisiyasının açılması baş tutmuşdur. Bundan əlavə məhz diaspor fəaliyyətlərinin nəticəsində 2011-2016-cı illər arasında Texas, Arkanzas, Tennessi, Pensilvanya, Vest Virciniya, Florida, Konnektikut, İndiana, Yuta, Montana, Aydaho və Arizona ştatları Xocalı soyqırımını rəsmən tanıdıqlarını bildiriblər.

Azərbaycan diasporunun ölkədəki digər xalqların diaspor təşkilatları ilə sıx əməkdaşlığı da genişləndirilmişdir. 2004-cü ildə Amerikada Yaşayan Rusdilli Yəhudilər Komitəsi və Yəhudi İcmaları Şurasının Nyu-Yorkda fəaliyyət göstərən digər icmalarla birlikdə Türkiyənin BMT-dəki nümayəndəliyi qarşısında İstanbulda baş vermiş terror aktları ilə əlaqədar türk xalqına dəstək mitinqinin keçirilməsi ümumi problemlər və maraqlar ətrafında birləşmək səylərinin təzahürü olmuşdur.

2004-ci il tarixində 160 il bundan öncə yaranan həmçinin dünyanın 58 ölkəsində olan nümayəndəliyi fəaliyyət güstərən «The Bnai Birth» (BBI) ABŞ-ın nüfuzlu yəhudi qurumunun vitse-prezidenti, o cümlədən qurumun ictimai və siyasət mərkəzinin direktoru olan Daniel Maraşinlə Vaşinqtonda keçirilmiş görüşdə də xalqlarımızın bir-birilərinə olan səmimi münasibətləri barədə fikir mübadiləsi aparılmışdır.

Azərbaycan və yəhudi icmaları arasında əməkdaşlığa nümunə kimi, «Amerikada Yaşayan Rusdilli Yəhudilər Komitəsi», «Yəhudi Komitəsi və Yəhudi İcmaları Şurası», Nyu-York şəhərində fəaliyyət göstərən digər yəhudi icmalar ilə birgə Türkiyənin BMT-dəki nümayəndəliyi qarşısında 2005-ci ilin

noyabrında İstanbulda törədilmiş terror aktları ilə bağlı türk xalqına dəstək mitinqinin keçirilməsini, hər il Nyu-Yorkda keçirilən ənənəvi «Türk yürüşündə» yəhudi icmalarının fəal iştirakını göstərmək olar.

2006-cı il mayında Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılar ilə İş Üzrə Dövlət Komitəsi sədri olan Nazim İbrahimov Amerika Yəhudiləri Komitəsinin dəvətilə təşkilatın 100 illik yubileyilə bağlı keçirilən irimiqyaslı tədbirlərdə iştirak etmişdir. ABŞ-a səfəri zamanı Dövlət komitəsinin sədri Nyu-Yorkda fəaliyyət göstərmiş olan Azərbaycan diaspor təşkilatlarının rəhbərlərilə də görüşmüşdür. Bu görüşlərdə ABŞ-dakı Azərbaycan icmalarının fəaliyyətinin gücləndirilməsi, bu ölkədəki türk və yəhudi diaspor təşkilatları ilə əməkdaşlığın genişləndirilməsi ilə əlaqədar məsələlər müzakirə olunmuşdur.

Azərbaycan icmaları türk diasporu ilə də fəal əməkdaşlıq edir. Təsadüfi deyildir ki, Dövlət Komitəsinin sədri sözügedən səfər zamanı türk diasporunun nümayəndələri ilə də görüşlər keçirmişdir. Türk icmalarının rəhbərləri ilə görüşlər zamanı erməni diasporunun Azərbaycan və Türkiyə əleyhinə apardığı təbliğat kampaniyasının qarşısının alınması yolları da müzakirə olunmuşdur. Bildirilmişdir ki, ermənilərin yalançı soyqırım iddialarının tarixi əsaslardan məhrum olduğunu sübut etmək, habelə bu ölkənin Azərbaycana qarşı işğalçılıq siyasəti yürütdüyünü göstərmək üçün diasporlar arasında əlaqələrin gücləndirilməsinə ciddi ehtiyac var.

2006-cı ilin iyununda Amerika Türk Assosiasiyalarının Assambleyasının Prezidenti Çengiz Vuralın rəhbərliyi ilə qurumun üzvlərindən ibarət nümayəndə heyəti Azərbaycana səfərə gəlmişdir. Səfərin əsas məqsədi Azərbaycanla daha yaxından tanış olmaq, ölkəmizdə həyata keçirilən iqtisadi inkişaf proqramlarının nəicələri, xalqımızın qədim həmçinin zəngin mədəniyyəti haqqında məlumat toplamaq, Ermənistan-Azərbaycan eyni zamanda Dağlıq Qarabağ münaqişəsilə bağlı ətraflı informasiya əldə etməkdən ibarət olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev cənabları iyun ayının 28-i tarixində Prezident sarayında Vural Cengizi qəbul

etmişdir.

Elmi araşdırma dünyanın digər ölkələrindəki milli diasporlarımızla müqayisədə ABŞ-dakı Azərbaycan icması ən fəal diasporlardan biri olması təəsüratını yaradır. Təsadüfi deyildir ki, dünya azərbaycanlılarının 2-ci qurultayında daha çox nümayəndə həmçinin qonaqlarla təmsil edilən ölkələrdən biri də məhz ABŞ olmuşdur. Belə ki, bu ölkəni qurultayda Azərbaycan, türk həmçinin yəhudi diasporlarının nümayəndələrindən ibarət 38 nəfər təmsil etmişdir. Yeri gəlmişkən, məhz bu qurultay ərəfəsində Azərbaycan Respublikasının Prezidentinin Sərəncamına əsasən Amerika Azərbaycanlılarının Cəmiyyətinin sədri olan Tomris Azəri «Şöhrət» ordeni və Nobert Yevdayev isə «Tərəqqi» medalı ilə təltif edilmişlər.

Amerikadakı demokratik ictimai-siyasi münasibətlər sistemi milli azlıqların, o cümlədən azərbaycanlıların mütəşəkkil bir qüvvə olaraq ölkənin siyasi həyatında daha fəal iştirak etməsinə imkan yaradır. Son illərdə azərbaycanlıların ABŞ-ın siyasi həyatına inteqrasiyası sahəsində müəyyən nailiyyətlər müşahidə edilməkdədir. 2008-ci ildə Amerikada keçiriləcək Prezident seçkilərində namizədlərin seçki kampaniyaları zamanı C. Makkeynin namizədliyini dəstəklədiklərini bəyan etməklə siyasi fəallıq nümayiş etdirən azərbaycanlılar erməni lobbisi və diasporunun aparıldığı təbliğat kampaniyalarının da qarşısının alınması istiqamətində öz imkanlarını maksimum dərəcədə səfərbər etməyə çalışırlar. Bütün bunlar isə gələcəkdə ABŞ-da güclü Azərbaycan diasporunun formalaşması imkanlarının olduğunu söyləməyə əsas verir.

## 3.2. Avropa demokratiyasının azərbaycanlı miqrantların ictimai-siyasi fəallığına mühüm təsiri

Azərbaycan diasporunun yayılması coğrafiyası həmçinin say tərkibinə görə ikinci yeri Avropa qitəsi tutur. Hollandiya, Belçiкa, Danimarкa, İsveçrə və Almaniyada məskunlaşan soydaşlarımızın əksəriyyəti Türkiyə azərbaycanlılarıdır. Böyük Britaniya, Çexiya eləcə də Slovakiya, Polşa, Fransadakı soydaşlarımızın çox hissəsi

cənubi azərbaycanlılardır.

Almaniyada məskunlaşmış azərbaycanlıların əksəriyyəti qeyri-qanuni yollarla məskunlaşan miqrantlardır. Rəsmi məlumatlara görə bu ölkədə ümumilikdə 300 min nəfərdən çox azərbaycanlı yaşayır. Azərbaycan Respublikasından müxtəlif vaxtlarda Almaniyaya əmək miqrasiyası etmiş həmvətənlərimizin sayı 140 mindən çoxdur. Onların bir qismi yəhudi əsilli olan azərbaycanlılardır. Həmvətənlərimizin çoxu orta sosial təbəqədəndir o cümlədən onların içərisində geniş maliyyə imkanlarına malik şəxslər azlıq təşkil edir. Bununla belə, sosial həmçinin iqtisadi sahədə vacib nailiyyətlər əldə etmiş, habelə elm sahəsində tanınmış soydaşlarımız da var. Bunlardan Bonn Universitetinin professoru, Azərbaycanla Almaniya arasında elmi-texniki əməkdaşlığın tədqiqatçılarından olan Əhəd Rəhmanzadəni həmçinin Köln xüsusi Ali Məktəbində professor olan Rza talibi Dəryanı, o cümlədən məşhur bəstəkar Firəngiz Əlizadəni, məşhur müğənni Əzizə Mustafazədəni, pianoçular Elnarə və Samirə İsmayılovaları, rəssam Əşrəf Heybətovu və digərlərini misal göstərmək olar. Hökumətlərarası razılaşmaya uyğun olaraq hər il Azərbaycandan Almaniyaya təhsil almağa gedənlərin sayı artır.

Qeyd edək ki, hazırda Almaniyada yaşayan azərbaycanlıların bir çoxu II dünya müharibəsi zamanı əsir düşərək bu ölkədə qalmağa məcbur olmuş soydaşlarımızın və Azərbaycan Mühacir Hökumətinin bir çox görkəmli nümayəndələrinin övladlarıdır. Ölkəmizin müstəqillik əldə etməsindən sonra Almaniyada yaşayan soydaşlarımızın diaspor quruculuğuna diqqəti artmışdır. Bu günə qədər Almaniyada 40-dan artıq Azərbaycan diaspor təşkilatı yaradılmışdır. Azərbaycanlılar həmişə öz doğma vətənlərinə bağlılığı ilə seçilsələr belə onlar arasında olan davamlı birliyin formalaşdırılması bir çox psixoloji problemlərlə əldaqədar olaraq müəyyən çətinliklər yaratmış olur. Bu hər şeydən öncə soydaşlarımızın təşkilatlanmağa mənəvi-psixoloji cəhətdən hazır olmaması ilə bağlı ola bilər.

Bu gün Almaniyada fəal şəkildə ölkəmizin milli maraqlarının

qorunması istiqamətində iş aparan bir neçə diaspor təşkilatının adını çəkmək mümkündür.

1988-ci ilin əvvəllərində yaranmış Berlin şəhərindəki «Azərbaycan-Almaniya Kültür Dərnəyi» Almaniyada Azərbaycana olan marağın artdığı bir şəraitdə geniş ictimaiyyəti xalqımızın milli dirçəliş prosesi, onun mədəniyyəti, iqtisadiyyatı və incəsənəti ilə tanış edir. Cəmiyyət soydaşlarımız, eləcə də Mərkəzi Asiya dövlətlərinin Almaniyada yaşayan vətəndaşları arasında öz səmərəli fəaliyyəti ilə tanınmışdır. Cəmiyyət üzvləri tərəfindən Azərbaycana yardım məqsədilə xüsusi fond yaradılıbdır. Cəmiyyətin yaxından iştirak etməsilə Azərbaycan ilə həmrəylik mitinqləri təşkil olunur. 1990-cı il 20 yanvar Xocalı faciələrinin, Şuşa, Kəlbəcər və ermənilər tərəfindən işğal olunmuş şəhərlərin işğal günlərində hər il keçirilən mitinqlər bu qəbildəndir.

Cənubi Azərbaycandan mühacirət etmiş azərbaycanlılar tərəfindən 1988-ci il tarixində təsis olunmuş «Berlin və Azərbaycan Kültür Ocağı» Cəmiyyəti üzvləri Azərbaycanda gedən prosesləri izləyir və bütün hadisələrlə bağlı öz mövqelərini nümayiş etdirirlər. Bu təşkilatın əsas məqsədlərindən biri Azərbaycanın mədəniyyətinin geniş formda təbliğinə müvəffəq olmaqdan ibarət olur. Berlin və Azərbaycan Kültür Ocağında təmsil edilən həmvətənlərimizi əsasən, ziyalılardır və onlar İran hakimiyyətinə münasibətdə müxalif mövqedə dayanırlar.

«Azərbaycan-Almaniya Akademiyası» cəmiyyəti 2005-ci ildə Berlində yaşayan azərbaycanlı mütəxəssislər həmçinin azərbaycanşünaslıqla məşğul olan azərbaycanlı olmayan elm eyni zamanda mədəniyyət xadimləri tərəfindən yaradılmışdır. Cəmiyyətin məqsədi Azərbaycanın elmini və mədəniyyətini Qərbi Avropa ölkələrində tanıtmaq, onun Almaniyada inkişaf etməsinə şərait yaratmaqdır. Cəmiyyət tərəfindən Yuri Pompeyevin Qarabağ hadisələrindən bəhs edən kitabı isə alman dilinə tərcümə edilərək nəşr olunmuşdur.

1990-cı ildə Berlində yaradılmış «Qarabağ təşəbbüsü» təşkilatı Azərbaycan torpaqlarına olunan erməni təcavüzü ilə bağlı

Almaniyada yaradılmış ictimai-siyasi o cümlədən milli-mədəni qurumlardandır.

Avropa ölkələrində geniş həmçinin ardıcıl fəaliyyət göstərmiş olan milli mədəniyyət mərkəzlərimizdən olan Almaniyanın Bonn şəhərində olan Azərbaycan Kültür Ocağıdır. Cəmiyyət 1984-cü ildən «Ana dili» adlanan qəzet nəşr etmişdir. Bu ocağın çoxsahəli fəaliyyəti mədəniyyətimizin, ədəbiyyatımızın təkcə Almaniyada yox, Avropanın bəzi başqa ölkələrində də yayılmasına, həmçinin təbliğinə kömək göstərməkdədir. Bonnda Azərbaycan dilində xüsusi məktəb təsis edilmişdi. Bu məktəbin xərcləri cəmiyyət üzvlərinin şəxsi vəsaitləri hesabına ödənilmiş olur.

«Azərbaycan Kültür Ocağı» xeyli milli ədəbiyyat nümunələri nəşr etdirmiş, Azərbaycan musiqisinin ən yaxşı nümunələrinin Almaniyada yaşayan soydaşlarımız arasında kasetlər, vallar şəklində çoxaldıb yayılmasına nail olmuşdur.

1993-cü ilin sonlarında cəmiyyət üzvləri Bonnda Azərbaycan və alman dillərində «Azərbaycan» adlı bütöv Azərbaycan xəritəsini nəşr etdirmişdir. Təşkilatın sədri N. Qərəvi 1994-cü ilin yanvarında Almaniyada yaşayan bir qrup soydaşlarımızla Bakıya gələrək «Azərbaycan» xəritəsi elə həmin günün ikinci yarısında ümummilli liderimiz Heydər Əliyevə təqdim edilmişdir.

Professor Ağabəy Azərbaycaninin təşəbbüsü və yaxından iştirakı ilə Almaniyadan müasir tibb avadanlığı və dərman preparatları ölkəmizə gətirilmiş, tanınmış cərrahlar respublikamıza dəvət olunaraq Qarabağ əlillərini müalicə etmişlər.

«Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti» Almaniyanın Frankfurt şəhərində 1991-ci ildə yaradılmışdır. Cəmiyyətin əsasını Firudin Pərvizniya qoymuşdur. «Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti» bir sıra mədəni tədbirlərin keçirilməsini təşkil etmişdir. Cəmiyyət soydaşlarımızın Azərbaycanla əlaqələrinin genişlənməsinə çalışır. 1991-ci ildən etibarən Mərkəz «Dağyeli Ferlaq» nəşriyyatının sahibi Ildırım Dağyeli ilə birlikdə Azərbaycan ədəbiyyatının ən maraqlı nümunələrinin alman dilinə tərcümə

olunub nəşr edilməsində xeyli iş görmüşdür. Xüsusilə «Azərbaycan Ədəbiyyatı» seriyası adı altında nəşr olunan kitabların müasir Azərbaycan nəsrinin Almaniyada yayılması və təbliği işində əhəmiyyəti böyükdür.

Almaniyanın Köln şəhərindəki «Azərbaycan Kültür Cəmiyyəti» Bakıda 1990-cı il faciəli yanvar hadisələrindən sonra yaranmışdır. Mərkəz fəaliyyətə Bakı hadisələrinə etiraz əlaməti olaraq keçirdikləri mitinq və yürüşlərlə başlamışdır. Bir sıra mədəni-kütləvi tədbirlərin hazırlanıb keçirilməsində fəal iştirak edir.

Almaniyanın Maynts şəhərində yaradılan «Üfüq Mədəniyyət Ocağı» 1988-ci ilin fevralından fəaliyyətə başlamışdır. Ocağın üzvləri əsasən, cənubi azərbaycanlılardır. Cəmiyyət üzvləri əsasən mədəni tədbirlərin keçirilməsinə, alman və türk dillərinin qısa müddətdə tədrisi kurslarını təşkil etməyə üstünlük verir.

Almaniyanın Nyürnberq şəhərində «Azərbaycan Kültür Dərnəyi» 1990-cı ilin fevralında yaranmışdır. Dərnəyin təsisindən bir qədər əvvəl Azərbaycanla həmrəylik komitəsi təşkil edilmiş, Bakıda 1990-cı il yanvar faciəsinə həsr olunmuş izdihamlı mitinq keçirilmişdir. Mitinqin iştirakçıları Bakıda törədilən qanlı faciənin günahkarlarını lənətləmişlər. Dərnək Nyürnberqdə və onun ətrafında yaşayan azərbaycanlıları öz ətrafında birləşdirməyə çalışır.

1996-cı ildə Bonnda alman və azərbaycanlı ziyalı qadınlardan ibarət yeni qurum – «Alman-Azərbaycan Qadınlar Birliyi» yaradılmışdır. Birliyin əsas məqsədi azərbaycanlı uşaq və yeniyetmələrə kömək etməkdir. «Almaniya-Azərbaycan Qadınlar Birliyi» Azərbaycana dəfələrlə humanitar yardım gətirilməsində iştirak etmişdir.

1997-ci ildən Almaniyanın Limburq şəhərində «Azərbaycan evi» açılmışdır. Orada yaşayan və Limburqdakı «AZBA» (Azərbaycan-Bakı) firmasına rəhbərlik edən Ənvər Bayramoğlunun təşəbbüsü və sponsorluğu ilə yaradılmış «Azərbaycan Evi»ndə vahid informasiya mərkəzi də fəaliyyət göstərir.

Essen şəhərində fəaliyyət göstərən «Azərbaycan» Cəmiyyəti milli mədəniyyətimizin təbliği və dövlət maraqlarının müdafiəsi istiqamətində bir sıra işlər görmüşdür.

Almaniyada azərbaycanlıların təşkilatlanması prosesi hazırda da davam edir. 2005-ci ilin noyabr ayının 28-də Berlində Azərbaycan Respublikasının Almaniyada olan fövqəladə həmçinin səlahiyyətli səfiri Pərviz Şahbazovun iştirak etməsilə "Almaniyada Azərbaycan evi" adlı Cəmiyyət yaradılmışdır. Cəmiyyətin yaradılmasının təşəbbüskarları Azərbaycanda uzun müddət yaşamış həmçinin sonradan xarici ölkələrə eləcə də Almaniyaya mühacirət edən yəhudilər, Bakı ali məktəblərində təhsil alıb vətənə geri dönmüş, lakin Odlar Yurdunu unutmamış almanlar və Azərbaycan diasporunun nümayəndələridir.

2001-ci ildə yaradılmış "Azərbaycan Akademik Birliyi" də xalqımızın tarixinin və mədəniyyətinin təbliği, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması yönündə bir çox tədbirlər həyata keçirmişdir. 2005-ci ildə Cəmiyyətin təşəbbüsü ilə Bohum şəhərinin Rur Universitetinin kitabxanasında Azərbaycan güşəsi açılmışdır. Guşənin açılması üçün cəmiyyət öz vəsaiti hesabına kitablar almış və universitetə təqdim etmişdir. Bu kitablar Azərbaycanın qədim tarixini, xalqımızın çoxəsrlik mədəni irsini və zəngin ədəbiyyatını özündə əks etdirir. Bundan başqa, Azərbaycan Akademik Birliyi"nin təşəbbüsü ilə 2005-ci ilin dekabr ayında Bohum şəhərində "Azərbaycan Kinosu Gecəsi" təşkil olumuş və tədbirdə "Özgə vaxt" filmi, 2004-2005-ci illər ərzində Azərbaycan haqqında çəkilmiş sənədli filmlər nümayiş etdirilmişdir.

Avropa ölkələrində, ilk növbədə, Almaniyada Azərbaycan milli mədəni mərkəzlərinin və cəmiyyətlərinin təşkilatlanması prosesi 1996-cı ildə çox böyük uğur qazanmışdır. Belə ki, 1996-cı il iyul ayının əvvəllərində, Berlində Almaniya-Azərbaycan Cəmiyyətləri Federasiyası – AAF təsis olunmuşdur. Federasiyanı yaratmaqda əsas məqsəd Avropada Azərbaycan cəmiyyətlərinin fəaliyyətini koordinasiya etmək olmuşdur. Federasiya Azərbaycan haqda obyektiv informasiyanın Avropa ölkələrində yayılmasını

həmişə diqqət mərkəzində saxlayır.

Almaniyadakı Azərbaycan icmalarının fəaliyyətini koordinasiya etmək məqsədilə 2007-ci ildə Almaniyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının Məşvərət Şurası təsis edilmişdir.

Almaniyadakı Azərbaycan diaspor təşkilatları xalqımızın qədim və zəngin mədəni irsinin təbliği ilə bağlı mütəmadi iş aparır. 2005-ci il mart ayının 19-da Almaniya Federativ Respublikasının paytaxtı Berlin şəhərinin mərkəzindəki «Türk evi»ndə Almaniya Türk İş Adamları Dərnəyi tərəfindən Novruz bayramı münasibətilə «Türk dünyasında «Novruz»un tarixi və bugünkü rolu» mövzusunda seminar keçirilmişdir. Tədbirə Türkiyə Respublikasının Almaniyadakı səfirliyinin əməkdaşları, Azərbaycan və türk diasporlarının nümayəndələri də qatılmışlar.

2006-cı il sentyabr ayının 17-də Almaniya Federativ Respublikasının Maynts şəhərində Azsaylı Xalqların Beynəlxalq Festivalı keçirilmişdir. Festivalda ölkəmizi təmsil edən Maynts Azərbaycan Cəmiyyəti tərəfindən milli musiqimizin və mədəniyyətimizin təbliği məqsədilə bir sıra tədbirlər təşkil olunmuşdur. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsi Maynts Azərbaycan Cəmiyyətinin festivalda Azərbaycanı layiqincə təmsil etməsi üçün təşkilatın lazımı vəsaitlərlə təmin olunmasını öz üzərinə götürmüşdür. Tədbirdə Azərbaycan turizminə, tarixinə, mədəniyyətinə, ictimai-sosial vəziyyətinə və milli mətbəxinə aid materiallar nümayiş etdirilmişdir.

2007-ci ildə Azərbaycanın milli bayramları dünyanın bir çox ölkələrində yaşayan soydaşlarımız tərəfindən təntənəli şəkildə qeyd olunmuşdur. Berlindəki "Azərbaycan Evi" cəmiyyətinin martın 21-də keçirdiyi "Novruzunuz mübarək" bayram şənliyində Azərbaycan incəsənət ustaları konsert proqramı ilə çıxış etmişlər. Tədbirdə Almaniyanın paytaxtında və onun ətrafında yaşayan həmyerlilərimiz, türk diasporunun təmsilçiləri və Berlin ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Həmin il martın 22-də Oldenburg şəhərində, martın 23-də Hamburqdakı Almaniya-Azərbaycan Mədəniyyət Mərkəzində, martın 24-də Köln Azərbaycan-Türk Dayanışma Dərnəyində, martın 25-də Mannhaym şəhərində Azərbaycan və türk icmalarının nümayəndələri tərəfindən Novruz bayramı ilə əlaqədər tədbirlər təşkil olunmuşdur.

Aprel ayının 1-də Frankfurtdakı Azərbaycan Cəmiyyəti və Könitqştayn şəhərinin Əcnəbilər ilə İş üzrə Komitəsi şəhərin bələdiyyə salonunda Azərbaycan mədəniyyəti gecəsi keçirmişdir.

Qeyd etmək lazımdır ki, Almaniyadakı Azərbaycan diaspor təşkilatları ötən müddət ərzində Ermənistanın ölkəmizə təcavüzü, xalqımızın məruz qaldığı terror və soyqırımı aktları ilə bağlı həqiqətlərin Avropa ictimaiyyətinə çatdırılması istiqamətində də mühüm tədbirlər həyata keçirmişlər. 2005-ci il Fevral ayının 24-də Almaniya Federativ Respublikasının paytaxtı Berlin şəhərində Xocalı soyqırımının on üçüncü ildönümü ilə əlaqədar anma mərasimi keçirilmişdir. Mərasim Almaniyadakı Azərbaycan diaspor təşkilatları tərəfindən təşkil edilmişdir. Tədbirdə Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasındakı səfirliyin əməkdaşları və eləcə də Azərbaycan və türk diaspor təşkilatlarının nümayəndələri iştirak etmişlər.

2006-cı il fevral ayının 24-də Almaniya Federativ Respublikasının paytaxtı Berlin şəhərində Xocalı soyqırımının ildönümü ilə əlaqədar anma mərasimi keçirilmişdir. Mərasim Almaniyadakı Azərbaycan diaspor təşkilatları tərəfindən təşkil edilmişdir. Tədbirdə Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasındakı səfirliyin əməkdaşları və eləcə də Azərbaycan və türk diaspor təşkilatlarının nümayəndələri iştirak etmişlər.

Həmin il Almaniyanın Nürnberq şəhərində Almaniya-Azərbaycan Dostluq cəmiyyəti türk icması ilə birlikdə 31 mart Azərbaycanlıların Soyqırım Günü ilə bağlı anım mərasimi keçirmişlər. Tədbir Alman və Azərbaycan dillərində aparılmış, hadisəni əks etdirən bülletenlər iştirakçılarına paylanılmışdır.

Tədbirdə şəhər rəhbərliyinin rəsmiləri, jurnalistlər və yerli sakinlər iştirak etmişlər.

2007-ci il fevralın 24-də Almaniyanın Köln şəhərində Almaniya Kültür Ocağının, Azərbaycan Kültür və Dayanışma Cəmiyyətinin və Heydelberq şəhərində Azərbaycan Kültür Cəmiyyətinin təşkilatçılığı ilə Xocalı faciəsinin ildönümü ilə əlaqədar tədbirlər keçirilmişdir. Qeyd edək ki, Avropa Azərbaycanlıları Konqresi və Almaniyada fəaliyyət göstərən digər diaspor təşkilatlarımız tərəfindən Xocalı soyqırımı ilə bağlı Almaniyanın Berlin, Köln, Maynts, Essen və digər şəhərlərində kütləvi etiraz aksiyaları təşkil edilmişdir. Aksiyalarda Almaniyada yaşayan türk icmasının nümayəndələri də fəal iştirak etmişlər.

Azərbaycanlıların kompakt halda yaşadığı ölkələrdən biri də Belçika Krallığıdır. Rəsmi məlumatlara görə bu ölkədə 15 mindən çox soydaşımız yaşayır. Belçikada yaşayan azərbaycanlılar bir neçə təşkilatda birləşmişlər. 1991-ci ildə Brüssel şəhərində təsis olunmuş "Belçika Azərbaycan Evi" fəaliyyətə başladığı ilk dövrlərdə orada yaşayan soydaşlarımızın təşkilatlanması istiqamətində iş aparmışdır. Ümummilli lider Heydər Əliyevin Belçikaya 1995-ci ilin aprel ayında səfəri zamanı "Belçika Azərbaycan Evi" üzvləri ilə görüş diaspor quruculuğu prosesinə stimul vermişdir.

1999-cu ilin əvvəlində "Belçika Azərbaycan Evi"nin sədri Bülənt Gürcamın dəstəyi ilə Brüsseldə yeni bir təşkilat - "Azərbaycan Belçika Dostluq Cəmiyyəti" təsis edilmişdir. 2004-cü ilin yanvar ayında isə Brüssel şəhərində daha bir diaspor təşkilatı "Avropa Azərbaycanlıları Mərkəzi" fəaliyyətə başlamışdır.

Belçikadakı ən böyük Azərbaycan diaspor təşkilatlarından olan Azərbaycan-Türk Kültür Mərkəzi 1993-cü ildə yaradılmışdır. Haaqada fəaliyyət göstərən bu qurumun təsisçiləri əslən Türkiyənin İqdır vilayətindən olan azərbaycanlılardır. Mərkəzdə dünyanın müxtəlif ölkələrindən gəlmiş həmvətənlərimiz toplaşmışdır. Mərkəz Azərbaycanın milli adət-ənənələrinin və mədəni irsinin təbliği istiqamətində səmərəli fəaliyyət göstərir.

Azərbaycan-Türk Kültür Mərkəzi dəfələrlə Haaqada yerləşən beynəlxalq təşkilatların ofisləri qarşısında Azərbaycan faciələri ilə bağlı etiraz aksiyaları təşkil etmiş, ölkəmizdəki qaçqın və məcburi köçkünlərə yardım göstərmiş, Gəncədə Qarabağ şəhidlərinin xatirəsinə bulaq kompleksi inşa etdirmişdir.

Azərbaycan Dostluq Təşkilatı 2003-cü ildə təsis edilmişdir. Mərkəzi Ofisi Neymehen şəhərində yerləşən bu təşkilat Belçikada, Almaniyada yaşayan həmvətənlərimizlə fəal əməkdaşlıq əlaqələri saxlayır, icma və birliklərimizin daha səmərəli fəaliyyət göstərməsinə öz töhfəsini verməyə çalışır.

Azərbaycanla bağlı keçirilən rəngarəng tədbirlər respublikanın həyatı barədə Belçika ictimaiyyətində zəngin təəssürat formalaşdırır. 2003-cü il fevral ayının 25-də Xocalı soyqırımının ildönümü ilə əlaqədar Belçikadakı «Azərbaycan evi»nin təşəbbüsü ilə Brüssel şəhərinin «Palase de la Monnai» mərkəzi meydanında çadır qurulmuş, Xocalı faciəsini və erməni vəhşiliklərini əks etdirən fotoşəkillər, videofilmlər nümayiş etdirilmişdir. Ekspozisiya ilə tanış olanlar rəy kitabına öz ürək sözlərini yazaraq soyqırımı pisləyən yüzlərlə imza toplanmışdır. Bundan başqa 31 mart Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı keçirilən tədbirdə hadisəni əks etdirən sənədlər toplusu və yığılmış imzalar Belçika parlamentinə təqdim edilmişdir.

2004-cü il oktyabr ayının 18-də Avropa Azərbaycanlıları Mədəniyyət Mərkəzi, Belçika Atatürk Düşüncə Dərnəyi və Belçika Türk Platformu Brüssel şəhərinin «Gare du Nord» meydanında «Erməni soyqırımı iddialarına rədd!» şüarı ilə birgə icazəli yürüş təşkil etmişlər. Mitinq həmin vaxt Avropa Parlamentinin binasında keçirilmiş dünya ermənilərinin konqresinə etiraz məqsədi daşımışdır. Erməni terrorizmi və separatizminin reallıqlarını Avropa ictimaiyyətinin diqqətinə çatdırmaq üçün təşkilatçılar tərəfindən «Lüksemburq» sarayında Xocalı faciəsi ilə bağlı stendlər nümayiş olunmuşdur.

2005-ci il aprel ayının 13-də Belçika Krallığının paytaxtı Brüssel şəhərində “qondarma erməni soyqırımı” ilə bağlı iddiaları

ifşa etmək məqsədilə Azərbaycan diaspor təşkilatlarının birgə yürüş mitinqi keçirilmişdir. Şəhərin mərkəzi küçələrindən biri olan Avenue Franklin Rooseveltdə keçirilmiş və təqribən iki saata qədər davam edən yürüşün sonunda Brüsselin mərkəzində yerləşən "Damla" salonunda "Lobbinin gücü" adlı kitabın təqdimat mərasimi ilə bitmişdir.

Niderland Krallığında isə məskunlaşmış 20 mindən çox azərbaycanlı yaşayır. *Azərbaycan Respublikasından sözü gedən ölkəyə köçənlərin sayı 12 min nəfərdən çoxdur.* Dünyanın müxtəlif ölkələrində olduğu kimi, Azərbaycandan miqrasiya etmək istəyənlərin də çoxu məhz Niderland Krallığına üstünlük verirlər. Yalnız 2002-ci ildə 300-dən çox Azərbaycan vətəndaşı Niderland Krallığında sığınacaq almaq üçün müraciət etmişdir. Hazırda Niderland Krallığında 14 diaspor təşkilatı və icması fəaliyyət göstərir.

Elm və Mədəniyyət Avropa-Qafqaz Mərkəzi Martin şəhərində yerləşir. Təşkilatın təsisçisi Gülşən Kazımova Avropada ilk qadın alimdir ki, elmi işini bütövlükdə Dağlıq Qarabağa və onun tarixinə həsr etmişdir. Təşkilat Bakı və Haaqa məktəbləri arasında dostluq əlaqələrinin yaradılması istiqamətində iş aparır.

«Qartal» Azərbaycan Gənclər təşkilatı 2004-cü ildə təsis edilmişdir. Təşkilat Azərbaycan diasporunun fəallaşması, həm-vətənlərimizin vahid ideya ətrafında birləşdirilməsi istiqamətində kifayət qədər səmərəli fəaliyyət göstərir.

Azərbaycan dövlətinin xüsusi diqqətini hiss etməyə başlayan icma və birliklər son vaxtlar daha aktiv fəaliyyət göstərir, ölkəmiz haqqında həqiqətlərin, xalqımızın faciələri ilə bağlı faktların dünya ictimaiyyətinə çatdırılmasını, Azərbaycan haqqında daha ətraflı və obyektiv məlumatlandırılmasını təmin etməyə çalışırlar. Azərbaycan icma və birlikləri kütləvi informasiya vasitələrində ölkəmiz barədə məlumatların yayılmasına böyük diqqət ayırırlar. Qeyd edək ki, Niderland mətbuatında Azərbaycan haqqında məlumatlara çox nadir hallarda rast gəlinir. 2004-cü ildə məhz Azərbaycan diasporunun fəalliyyətinin nəticəsi olaraq Niderlandın

nüfuzlu qəzetlərindən biri olan «Haren de Krant»da «Azərbaycan dünyaya səs salır» adlı məqalə dərc edilmişdir. Bu məqalənin işıq üzü görməsində Azərbaycan diasporunun mühüm rolu olmuşdur.

Diaspor təşkilatları ermənilərin xalqımız əleyhinə apardığı təbliğatın zərəsizləşdirilməsində də fəal rol oynayırlar. 2003-cü ildə sırf erməni təbliğatına xidmət edən və «Mənim zəfərim haradır» adlı filmin «Niderland-3» telekanalında nümayişinin qarşısının alınması istiqamətində müvafiq işlər həyata keçirilmişdir. Niderlandda və Avropanın digər ölkələrində fəaliyyət göstərən diaspor təşkilatlarımız telekanal rəhbərliyinə minlərlə müraciət ünvanlayaraq, filmdə əks etdirilən kadrların əsl həqiqəti təhrif etdiyini və Qarabağ probleminə dair obyektiv rəy yaratmadığını diqqətə çatdırmışlar. Bu kampaniyada Azərbaycan icmaları yekdil mövqedən çıxış edərək, məkrli erməni təbliğatının qarşısını almağa müvəffəq olmuşlar.

Ermənilər Niderland Krallığındakı həmvətənlərimizin sürətlə təşkilatlanmasından ciddi narahatlıq hissi keçirir və hər vəchlə bu prosesə mane olmağa çalışırlar. Belə ki, 2003-cü ilin sentyabr ayında Azərbaycan-Niderland Cəmiyyətinin təsis konfransında iştirak etmək üçün Xroninqin şəhərindən Amsterdama gələn azərbaycanlılara qarşı bir qrup erməni tərəfindən zor tətbiq edilmiş və onlara silahlı hücum olmuşdur. Nəticədə bir nəfər həmvətənimiz bıçaq yarası almışdır. Hadisəni törədən ermənilər Niderland polisi tərəfindən saxlanılmışdır. Azərbaycan diasporu onların ölkədən çıxarılmasını tələb etmişdir. Bu məsələdə də icma və birliklərimiz yekdil mövqe ortaya qoymuşlar.

Niderland Krallığında fəaliyyət göstərən «Regenbooq» Humanitar Yardım Fondu əsasən qaçqın və məcburi köçkünlərə yardım missiyasını yerinə yetirir. 2003-cü ildə Fond Qarabağ müharibəsi veteranlarına, hərbi əməliyyatlar zamanı öz sağlamlığını itirmiş əlillərə, qaçqın və məcburi köçkünlərə, Azərbaycanın aztəminatlı vətəndaşlarına hümanitar yardım göstərmişdir.

Təşkilatlar Azərbaycan tarixində mühüm əhəmiyyətə malik hadisələrin ildönümlərinin geniş şəkildə qeyd edilməsinə nail

olmuşdur. 28 may 2003-cü ildə Niderland Krallığında fəaliyyət göstərən Azərbaycan Dostluq Təşkilatının təşəbbüsü ilə «Respublika Günü»nə həsr edilmiş təntənəli bayram tədbiri təşkil olunmuşdur. Tədbirdə Azərbaycan xalqının çoxəsrlik mədəni irsi geniş təbliğ olunmuş, Azərbaycan musiqisinin ən sanballı nümunələri nümayiş etdirilmişdir. 2003-cü ilin 20 iyununda «Qartal» Gənclər Təşkilatı Niderland Krallığının Qroningen şəhərində Azərbaycan musiqi sənətini nümayiş etdirən konsert proqramı təşkil etmişdir. 2004-cü ildə Azərbaycan-Niderland Cəmiyyətinin təşəbbüsü ilə Amsterdamda «Respublika Günü» münasibətilə daha bir təntənəli tədbir təşkil edilmişdir. Böyük konsert proqramı ilə müşaiyət olunan bu tədbirdə 250-300 nəfər iştirak etmişdir. İştirakçıların içərisində digər millətlərin nümayəndələri də olmuşdur. Ənənə xarakteri almış bu tədbirlər milli mədəniyyətin Avropa mədəniyyətinə inteqrasiyasını sürətləndirməklə yanaşı, Azərbaycan xalqının milli keyfiyyətlərini də nümayiş etdirir. 2004-cü il fevral ayının 26-da Niderland Krallığının Amsterdam şəhərindəki Azərbaycan-HoIlandiya, Azərbaycan-Türk Kültür cəmiyyətləri və «Qartal» Azərbaycanlı Gənclər Təşkilatının təşəbbüsü ilə Haaqa Beynəlxalq İnsan Hüquqları Məhkəməsi və Niderland parlamenti qarşısında etiraz aksiyaları keçirilmişdir. 2005-ci il fevral ayının 11-də Niderland Krallığının Amsterdam şəhərində Azərbaycanın incəsənət ustalarının iştirakı ilə konsert proqramları olmuşdur. Həmin il martın 20-də isə Niderland Krallığında fəaliyyət göstərən «Ana Vətən» Avropa-Qafqaz Elm və Mədəniyyət Mərkəzi 31 mart Azərbaycanlıların Soyqırım Gunü ilə bağlı imzatoplama kampaniyasına başlamışdır. Cəmiyyət azərbaycanlılara qarşı ermənilər tərəfindən soyqırım aktının törədiliyini təsdiq edən yüzlərlə insanın imzaladığı sənədi, eləcə də Azərbaycan və ingilis dillərində hazırlanmiş press-relizdəki mətnini yaymışdır. 2006-cı ildə Azərbaycanlıların Soyqırım Günü ilə əlaqədar martın 30-da «Ana Vətən» cəmiyyətinin sədri Niderland Parlamentinin Senatoru Nabahat Albayrakla görüşmüşdür. Görüşdə Niderland

Parlamentinin və digər Avropa ölkələrinin parlamentlərinin üzvlərinin soyqırıma məruz qalmış Azərbaycan xalqının haqq səsə dəstək verməsinin vacibliyi qeyd olunmuş, ədalətin bərpa olunması üçün bütün imkanları səfərbər etməyin zəruriliyi bildirilmişdir.

Hazırda Amsterdamda «İrs» muzey-qalareyasını açmaq istiqamətində fəal iş aparırlar. Bu ölkəmizin tarixinin və müasir həyatının təbliğinə xidmət edən ideyalardan biridir. «Bakı» Azərbaycan-Niderland Cəmiyyətinin təşəbbüsü ilə həyata keçiriləcək bu planın reallaşdırılması üçün Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi diasporumuzla birlikdə lazımı tədbirlər həyata keçirir.

Azərbaycan-Niderland Dostluq Cəmiyyəti öz mətbu orqanını təsis etmişdir. «Azərbaycan-Niderland News» adlanan qəzetin «Ədəbiyyat və incəsənət», «İdman», «Elanlar», «Beynəlxalq tanışlıq» və s. rubrikaları fəaliyyət göstərir. Ayda bir dəfə işıq üzü görən bu nəşrdə Azərbaycan haqqında xəbərlər, respublikamızda gedən-ictimai-siyasi proseslər haqqında məlumatlar öz əksini tapır.

2003-cü ilin yanvar ayının 18-də azərbayanlılar Haaqa Məhkəməsinin binası önündə «20 Yanvar faciəsi» ilə bağlı piket keçirmişlər. 2004-cü ilin fevral ayının 26-da Azərbaycan-Türk Kültür Mərkəzi, «Bakı» Azərbaycan-Niderland Dostluq Cəmiyyəti və «Qartal» Azərbaycan Gənclər təşkilatının təşəbbüsü və təşkilatçılığı ilə Haaqada Beynəlxalq Məhkəmənin binası qarşısında Xocalı faciəsinin 12-ci ildönümünə həsr edilmiş böyük mitinq keçirilmişdir.

Avropa-Azərbaycan Təhsil Mərkəzinin təşəbbüsü ilə Azərbaycandakı Uşaq Kolleci ilə Amsterdamın 193 saylı məktəbi qardaşlaşmış məktəblər elan olunublar. Mərkəz hollandiyalı şagirdlərin Azərbaycana səfərini təşkil etməyi özünə missiya olaraq qəbul edib. Burada əsas məqsəd onların ölkəmiz haqqında dolğun biliklər əldə etməsini təmin etməkdən ibarətdir.

Azərbaycanlıların məskunlaşdığı Qərbi Avropa ölkələrindən biri də Avstriyadır. Onların sayının 19 min nəfər olduğu təxmin

edilir. Avstriyada bir neçə diaspor təşkilatı fəaliyyət göstərir.

1990-cı ildə Vyana şəhərində fəaliyyətə başlamış "Azərbaycan Mədəniyyət Cəmiyyəti", 1991-ci ildə Qrats şəhərində yaradılmış "Avstriya Azərbaycan İqtisadi Cəmiyyəti", 1993-cü ildə Salzburq şəhərində fəaliyyətə başlayan, əsasən Türkiyənin Qars viləyətindən gələn azərbaycanlıları öz ətrafında birləşdirən "Əhlibeyt" Məscidi və Mədəniyyət Cəmiyyəti, 2001-ci ildə təsis edilmiş "Yeni Bakı və Vyana" Cəmiyyəti, 2002-ci ilin 18 oktyabr tarixində rəsmi qeydiyyatdan keçmiş, Vyanada təhsil alan bir qrup azərbaycanlı tələbə tərəfindən təsis etmiş "Avstriya Azərbaycan Akademik Birliyi" bu sıradandır.

Avstriyadakı daha bir Azərbaycan diaspor təşkilatı "Azər-ATA" (Azərbaycan-Türkiyə-Avstriya) Dostluq Cəmiyyətidir. Mərkəz Vyana şəhərində yerləşir. 2004-cü ildən etibarən fəaliyyətə başlamışdır. Təşkilatın əsas məqsədi Azərbaycan həqiqətlərini təbliğ etməkdir. Azərbaycanlılar həmişə öz doğma vətəninə bağlılığı ilə seçilsələr də onlar arasında davamlı birliyin yaradılması bir çox psixoloji problemlərlə əldaqədar olaraq müəyyən çətinliklər yaradır. Bu daha çox soydaşlarımızın təşkilatlanmağa mənəvi-psixoloji baxımdan hazır olmaması ilə izah edilir.

Azərbaycanlıların kompakt halda yaşadığı ən böyük Avropa ölkələrindən biri də Böyük Britaniyadır. Onların əksəriyyəti İrandan köçmüş azərbaycanlılardır. Böyük Britaniyada bir neçə Azərbaycan diaspor təşkilatı fəaliyyət göstərir.

"Azərbaycan Türkləri Cəmiyyəti" XX əsrin 90-cı illərinin sonunda fəaliyyətə başlamışdır. Cəmiyyətin əsas fəaliyyət sahələri mədəni tədbirlər, Azərbaycanın Britaniyadakı səfirliyinin qarşısında piketlərin keçirilməsi, bədii və poeziya gecələrinin təşkilindən ibarətdir.

2001-ci ildə Londonda təhsil alan və yaşayan bir qrup gənc tərəfindən yaradılmış "Vətən cəmiyyəti" AR-nın Britaniyadakı səfirliyi ilə sıx əməkdaşlıq edir. Səfirliyin dəstəyi ilə bir sıra tədbirlər keçirilmişdir. Lakin, 2003-2004-cü illərdə cəmiyyətin sədri təşkilatın ənənəvi siyasətini dəyişərək daha çox Azərbay-

candakı daxili ictimai-siyasi proseslərlə bağlı bəyanatlarla çıxış etməyə başlamışdır. Nəticədə cəmiyyətin üzvləri onun sıralarını tərk etmişlər.

Londonun İqtisadiyyat və Siyasi Elmlər Məktəbinin nəzdində fəaliyyət göstərən (London School of Economics and Political Science) "Azərbaycan Cəmiyyəti" 2005-ci ildə yaranmışdır. Bu təşkilat Azərbaycan həqiqətlərinin Britaniya ictimaiyyətinə çatdırılması istiqamətində fəal iş aparır. Təşkilatın mətbu orqanı fəaliyyət göstərir. Bununla yanaşı cəmiyyət Böyük Britaniyanın nüfuzlu şəxsləri ilə də əlaqələr qurmağa müvəffəq olmuşdur.

2005-ci ilin iyul ayından fəaliyyətə başlamış "Azərbaycan Gənclər Klubu" Britaniyadakı ən fəal diaspor təşkilatlarından hesab olunur. Təşkilatın bu ölkədəki türk diasporu ilə də sıx əlaqələri mövcuddur. Ötən müddət ərzində bu təşkilat türk icmaları, habelə Londonun İqtisadiyyat və Siyasi Elmlər Məktəbinin nəzdində fəaliyyət "Azərbaycan Cəmiyyəti" ilə birlikdə xalqımıza qarşı törədilmiş terror və soyqırım aktları, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çoxsaylı etiraz aksiyaları, fotosərgilər, elmi-praktik konfranslar təşkil etmişdir.

Böyük Britaniyada yaşayan soydaşlarımız milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, bu ölkədə məskunlaşmış azyaşlı soydaşlarımızın ölkəmizin tarixi, mədəniyyəti ilə bağlı məlumatlandırılması işinə də böyük diqqət göstərirlər. 2006-cı ilin aprel ayında İngiltərədə təhsil alan tələbələrin təşəbbüsü ilə Londonda təsis edilmiş "Caspian-Khazri" Azərbaycan məktəbi buna parlaq sübutdur. Bu məktəbin əsası Simuzər Baloğlanova tərəfindən qoyulmuşdur. O, öz şəxsi imkanları hesabına məktəbi qeydiyyatdan keçirmişdir və onun fəaliyyətini maliyyələşdirmişdir.

Son illərdə Avropada təsis olunmuş və bir neçə icmanı öz ətrafında birləşdirən təşkilatlardan biri də Benilüks Azərbaycanlıları Konqresidir. Dünya azərbaycanlılarının vahid təşkilatda birləşdirilməsi siyasətinin tərkib hissəsi olaraq, Dünya Azərbaycanlılarının II qurultayında Azərbaycan Respublikası Prezidentinin tarixi nitqi, diaspor quruculuğu siyasətinin yeni

mərhələsinin başlıca istiqamətlərini müəyyənlişdirmişdir. Bu məqsədlə xarici ölkələrdə yaşayan soydaşlarımız təşkilatlanaraq ölkəmizin milli maraqlarını daha təkmil şəkildə müdafiə etmək üçün öz qüvvələrini vahid mərkəzdə birləşdirməyə səy göstərirlər. Belə ki, Niderland, Belçika və Lüksemburqda fəaliyyət göstərən bir sıra diaspor təşkilatları 2006-cı ilin aprel ayının 15-də "Benilüks Azərbaycanlıları Konqresi"nin təsis olunması üçün Təşkilat Komitəsi yaratmışlar.

2006-cı ilin noyabr ayının 18-də Amsterdam şəhərində Benilüks Azərbaycanlıları Konqresinin təsis konfransı keçirilmişdir. Toplantıda Benilüks Azərbaycanlıları Konqresinə daxil olan təşkilatlar və digər cəmiyyətlərin nümayəndələri ilə bərabər Hollandiya Türk Federasiyasının, İraq Türkmənləri Məclisinin, Avropa ölkələrində fəaliyyət göstərən bir sıra diaspor təşkilatlarının nümayəndələri, Avropa Azərbaycanlıları Konqresinin Prezidenti iştirak etmişlər. "Benilüks Azərbaycanlıları Konqresi"nin təsis protokolunda Benilüks ölkələrində məskunlaşmış soydaşlarımızın tarixi vətənləri ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, türkdilli xalqlar arasında birliyin və həmrəyliyin təmin olunması, milli-mənəvi dəyərlərin birgə qorunması və Avropada təbliği Konqresin fəaliyyət platformasının əsas istiqamətləri kimi müəyyən edilmişdir. Konqresin sədri vəzifəsinə 1990-cı illərin əvvəllərindən Niderlandda yaşayan "Niderland-Azərbaycan" cəmiyyətinin təsisçisi, Avropa Azərbaycanlıları Konqresinin Vitse-Prezidenti *Sahil Qasımov seçilmişdir. Elsevər Məmmədov hazırda Konqresə sədrlik etməkdədir.*

Avropadakı Azərbaycan icmalarını öz ətrafında birləşdirən əsas təşkilat Avropa Azərbaycanlıları Konqresidir (AAK). Qeyd edək ki, bu qurumun təsis edilməsi üçün əvvəlcədən Avropada fəaliyyət göstərən diaspor təşkilatları ilə məqsədyönlü iş aparılmışdır. Belə ki, 2003-cü il aprel ayında Almaniya Federativ Respublikasının Maynts şəhərində 29 ölkədən 170 nümayəndənin iştirakı ilə keçirilən Dünya Azərbaycanlıları diaspor təşkilatları rəhbərlərinin I Forumunda səslənmiş əsas təkliflərdən biri Avropa

məkanında fəaliyyət göstərən Azərbaycan icma və birliklərinin vahid bir təşkilatda birləşdirilməsi ilə bağlı idi. 2003-cü ilin may ayında Türkiyənin İzmir şəhərində keçirilən «Azərbaycan diasporu: perspektivlər və reallıqlar» mövzusunda dünya azərbaycanlıları diaspor təşkilatı rəhbərlərinin növbəti konfransı zamanı Avropada fəaliyyət göstərən icma və birliklərin vahid təşkilatda birləşdirilməsi məsələsi bir daha gündəmə gətirildi. Bu ideyanın reallaşdırılmasının zəruriliyini nəzərə alaraq, 2004-cü ilin aprel ayının 17-də Berlin şəhərində Avropa Azərbaycanlıları Konqresinin təsis konfransı keçirildi. Avropa Azərbaycanlıları Konqresinin yüksək səviyyədə keçirilmiş təsis konfransında dünyanın 28 ölkəsində fəaliyyət göstərən 50-dən artıq diaspor təşkilatından 264 nümayəndə qatılmışdı. Konfransda Rusiya Federasiyası, Ukrayna, Belarus, İsveç, İsveçrə, Norveç, Danimarka, Fransa, Hollandiya, Avstriya, Çexiya, Bolqarıstan, Rumıniya, Macarıstan, Belçika, Finlandiya, Polşa, Estoniya və Almaniyadakı Azərbaycan icmalarının nümayəndələri, Türkiyə Böyük Millət Məclisinin, Almaniya Bundestaqının üzvləri, eyni zamanda, Azərbaycan nümayəndə heyəti iştirak etmişdir. Kifayət qədər səmərəli müzakirələr şəraitində keçmiş təsis konfransının sonunda 50-dən artıq icma və birliklərin iştirakı ilə rəsmi razılıq protokolu imzalanmış və tədbir iştirakçılarının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul olunmuşdu.

Konfransda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tədbir iştirakçılarına təbrik məktubu oxunmuşdur. Təsis konfransında AAK-ın nizamnaməsi qəbul edilmiş və qurumun rəhbər orqanları seçilmişdir. AAK-ın başlıca məqsədi Avropa ölkələrində fəaliyyət göstərən Azərbaycan icmalarının vahid təşkilatda birləşdirilməsinə xidmət etməkdir. Regionda məskunlaşmış azərbaycanlıların milli-mədəni xüsusiyyətlərini qorumaq, sosial və siyasi-hüquqi maraqlarını təmin etmək konqresin əsas vəzifələrindən biri kimi təsbit edilmişdir. Bunları həyata keçirmək dövrü nəşrlərdə, elektron kütləvi informasiya vasitələrində fəal təbliğat işi aparılmışdır. Bundan başqa, AAK-ın

fəaliyyət sahələrindən biri də Azərbaycan, Qafqaz və Xəzər bölgələri ilə əlaqəli elmi-tədqiqat işlərini dəstəkləmək, fondlar, tədqiqat institutları, kitabxanalar və arxivlər təsis etməkdən ibarətdir. Xüsusi tapşırıqların icrasını təmin etmək məqsədilə AAK öz nəzdində mətbuat bölməsi və komitələr yaratmaq səlahiyyətinə, müxtəlif mövzulara aid konfranslar, diskussiyalar, mətbuat üçün brifinqlər, kurslar, seminarlar, məruzələr, sərgilər, musiqili tədbirlər, təhsillə əlaqəli səfərlər təşkil etmək imkanına malikdir. Azərbaycan xalqının XX əsrdə yaşadığı faciələr, məruz qaldığı soyqırım aktları, Qarabağ münaqişəsinin səbəbləri, torpaqlarımızın 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı və digər faktların Avropa ictimaiyyətinə, burada fəaliyyət göstərən müxtəlif təşkilatlara obyektiv şəkildə çatdırılması AAK-ın prioritetləri sırasında dayanır.

2007-ci il martın 10-da Bakıda AAK-ın II qurultayı keçirilmişdir. Qurultayın işinə Avropanın 30-dan çox ölkəsində fəaliyyət göstərən 84 Azərbaycan diaspor təşkilatından 139 nümayəndə iştirak etmişdir. Konqresin sədri Bahəddin Kaya I qurultaydan keçən dövr ərzindəki fəaliyyəti barədə hesabatla çıxış etmişdir.

Ümumrusiya Azərbaycan Konqresinin vitse-prezidenti Natiq Ağamirov AAK-ın yeni prezidenti, Mərkəzi Şuranın 103 nəfərdən ibarət yeni tərkibi, AAK-ın birinci vitse-prezidenti və vitse-prezidentləri və qurumun İcraiyyə Komitəsinə 27 nəfər yeni üzvü seçilmişdir. Toplantının sonunda Qurultay iştirakçıları adından Azərbaycan Prezidenti İlham Əliyevə müraciət, Dağlıq Qaradağ münaqişəsi ilə bağlı beynəlxalq təşkilatlara müraciət və qurultayın Qətnaməsi qəbul edilmişdir. Hazırda Konqresin sədri Sahil Qasımovdur. Konqresin 2009-cu ildə III, 2012-ci ildə IV, 2017-ci ildə isə V Qurultayı keçirilmişdir. V Qurultayda 27 ölkədən 91 nümayəndə iştirak etmişdir. Konqresin əsas fəaliyyətin ilə bağlı çıxışlardan sonra təmsilçilər Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar Avropa ölkələrində təşkil edilən tədbirlər çərçivəsində Avropa Parlamentinin üzvləri ilə də görüşmüşlər.

Göründüyü kimi, Avropada yaşayan azərbaycanlılar arasında son illərdə təşkilatlanma prosesi xeyli dərəcədə sürətlənmişdir. Hazırda dünyadakı Azərbaycan diaspor təşkilatlarının çox böyük əksəriyyəti məhz Avropa ölkələrində fəaliyyət göstərir. Cənublu soydaşlarımızın bir qismi diaspor hərəkatında iştirak etsə də, onların əksəriyyəti bu proseslərdən kənarda qalmağa üstünlük verir. Bu əsasən İran hökumətinin mümkün təzyiqlərindən sığortalanmaq cəhdinin təzahürü kimi qiymətləndirilir. İctimai hərəkatlara, diaspor qurumlarına qoşulan cənublu soydaşlarımız bəzi hallarda İran hökumətinin təqiblərinə məruz qalır, bəzi hallarda isə onların vətəndə olan yaxınlarına qarşı təzyiqlər edilir. Bu isə soydaşlarımızın diaspor işindən kənarda qalmasını şərtləndirən əsas amillərdən biridir.

Cənubi azərbaycanlıların fəal hissəsi ictimai fəaliyyətlərində, diaspor quruculuğu işində, əsasən, Cənubi Azərbaycanın azadlığı ideyaları ətrafında birləşir, İran hökumətini milli azlıqların hüquqlarına hörmətsizlikdə ittiham edir və s. İranın ərazi bütövlüyünə hörmətlə yanaşan Müstəqil Azərbaycandan köçənlər üçün isə bu ideyalar eyni dərəcədə cəlbedici deyil. Məhz bu amil azərbaycanlılar arasında ideoloji sahədə müəyyən fikir ayrılıqları yaranmasına səbəb olur.

Bütün bunlara baxmayaraq, Azərbaycan dövlətinin son illərdə həyata keçirdiyi siyasət bu fikir ayrılıqlarını qismən aradan qaldırmağa və azərbaycanlıları vahid ideya ətrafında birləşdirməyə imkan yaratmışdır. Bu istiqamətdə son illərdə əldə olunmuş nailiyyətlər gələcəkdə azərbaycanlıların mütəşəkkil bir diaspor kimi Avropada ictimai-siyasi proseslərə real təsir imkanları qazanmasına zəmin yaratmaqdadır.

### 3.3. Türkiyə azərbaycanlıların diaspor quruculuğu

Bir millət, iki dövlət olan Azərbaycan və Türkiyə arasında münasibətlər qədim tarixə malikdir. Bu münasibətlər öz mənbəyini vahid etnomədəniyyət xəzinəsindən götürməklə, müasir milli

maraqların tələbləri kontekstində daha da zənginləşmiş və möhkəmlənmişdir.

Tarixin müxtəlif mərhələlərində Şimali Azərbaycanın müxtəlif bölgələrindən - Naxçıvandan, Zəngəzurdan, Gəncədən, Qarabağdan soydaşlarımız qardaş ölkəyə mühacirət etmişlər. Məhz buna görə də Türkiyə, azərbaycanlıların ən çox yaşadığı xarici ölkələrdən biridir. Soydaşlarımızın bu ölkədə sayı təqribən üç milyondan çoxdur.

Vətənə nostalji hisslərlə bağlı olan türkiyəli soydaşlarımız ailədə övladlarının milli ruhda böyüdülməsi, milli dəyərlərə münasibəti, Azərbaycan dili, mətbəxi, musiqisi, ədəbiyyatı və folkloru məsələlərində mühafizəkardırlar. Bununla paralel olaraq onlarda türkiyəçilik faktoru, türkçülük ideologiyası aparıcı yerdədir. Gənclər milli ruhda böyüdülməsinə baxmayaraq, Avropa və Qərb modeli təsiri altındadırlar. Əsasən ticarət işləri ilə məşğul olan türkiyəli soydaşlarımız siyasi fəaliyyətdə əvvəllər passiv olsalar da, son zamanlar bir qədər fəallaşıblar.

Türkiyədə azərbaycanlıların ən sıx məskunlaşdığı yerlərdən biri İstanbul şəhəridir. Bəzi məlumatlara görə burada 300 min nəfərdən çox azərbaycanlı yaşayır. Qeyd etmək lazımdır ki, azərbaycanlıların böyük əksəriyyəti rəsmi sənədlərdə milliyyətlərini türk kimi göstərdiklərindən onların sayı barədə dəqiq məlumat almaq olduqca çətindir. Bununla belə soydaşlarımızın Türkiyədə, belə demək mümkünsə, ən böyük milli azlıqlardan biri olduğu danılmazdır.

Azərbaycanlılar içərisində Türkiyənin rəsmi dövlət strukturlarında, parlament və bələdiyyə orqanlarında təmsil olunanların sayı da kifayət qədər çoxdur. Onlardan Türkiyə ordusunun Baş qərargah rəisi olmuş Yaşar Böyükanıt, Türkiyə parlamentinə seçilmiş Yücel Artantaş və digərlərini göstərmək mümkündür.

1994-cü ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyədə rəsmi səfərdə olarkən orada yaşayan azərbaycanlılarla görüşmüşdür. Görüşdə ümummilli lider Heydər Əliyev Türkiyədə yaşayan soydaşlarımızın vahid amal ətrafında

birləşdirilməsinin zəruriliyini vurğulamışdır. O, qeyd etmişdir ki, Türkiyə azərbaycanlıları ölkəmiz haqqında həqiqətlərin Türkiyə və dünya ictimaiyyətinə çatdırılmasında öz səylərini əsirgəməməli, doğma vətənlə əlaqələri daim inkişaf etdirməlidirlər. «Türkiyədə yaşayan azərbaycanlıların respublikamıza göstərdikləri kömək, qayğı, mənəvi dayaq çox önəmli və əhəmiyyətlidir. Türkiyə Cümhuriyyətinin və onun rəhbərlərinin son illərdə Azərbaycana göstərdikləri kömək çox böyükdür və biz bunu yüksək qiymətləndiririk. Ancaq onu da deyə bilərəm ki, Azərbaycanda Türkiyənin bu qardaşlıq yardımına bərabər səviyyədə işlər görülməyibdir. Bəlkə də görülsəydi, Azərbaycanda belə ağır vəziyyət yaranmazdı. Harada olursa-olsun, azərbaycanlıların birlikdə, bərabər olması əsas şərtlərdən biridir».

1994-cü ilin noyabr ayının 1-də Türkiyə Respublikasına növbəti səfəri zamanı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bu ölkədə yaşayan soydaşlarımızla növbəti dəfə görüşmüşdür. Qeyd edək ki, görüş Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi münasibətilə Türkiyədə keçirilən tədbirlər zamanı baş tutmuşdur. Prezident Heydər Əliyev görüşdə Azərbaycanın o dövrdəki vəziyyəti ilə bağlı ətraflı məlumat verərək, onları tarixi vətənin maraqları ətrafında daha sıx birləşməyə çağırmışdır. O, ölkədə gərginlik yaratmaq istəyən, Azərbaycanı parçalamaq, bir dövlət kimi dünya xəritəsindən silməyə cəhd edənlərin qarşısını qətiyyətlə alacağını, xalqın təhlükəsizliyini təmin edəcəyini bəyan edərək, bütün dünya azərbaycanlılarını vahid amal uğrunda mübarizəyə səsləmişdir. Heydər Əliyevin bu çağırışı milli dövlətçiliyin qorunması, Azərbaycan xalqının bir daha başqa dövlətlərin protektoratına çevrilməməsinə xidmət edən ideyaları özündə əks etdirirdi.

Bundan bir neçə il sonra 2001-ci ilin mart ayında Türkiyə Respublikasına səfəri zamanı Prezident Heydər Əliyev koalisiya hakimiyyətinin üzvü Ana Vətən Partiyasında təmsil olunan azərbaycanlılarla görüşmüşdür. Bu görüş artıq Azərbaycanın inkişaf yoluna qədəm qoyduğu, ictimai-siyasi sabitliyin təmin

edildiyi bir mərhələyə təsadüf edirdi. Heydər Əliyev azərbaycanlıların birliyini yenə də əsas amil kimi qabardaraq, bütün soydaşlarımızı tarixi vətənin maraqlarının müdafiəsinə çağırırdı. Ümumilli liderin bu çağırışları azərbaycançılıq ideologiyasının dünyanın müxtəlif ölkələrində yaşayan milyonlarla həmvətənlərimizi bir araya gətirən sosial-fəlsəfi konsepsiya kimi dərk edilməsində mühüm rol oynamışdır.

1949-cu ildə Türkiyədə dünyada ilk Azərbaycan diaspor təşkilatı kimi tarixə düşmüş Azərbaycan Kültür Dərnəyi yaradılmışdır. Bu təşkilat Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən olan Məhəmməd Əmin Rəsulzadə tərəfindən təsis edilmişdir. Dərnəyin ilk sədri Həmid Atanan olmuşdur. 1952-ci ildə dərnək «Azərbaycan» jurnalının nəşrinə başlamış, istiqlaliyyət ideyalarının təbliğinə çalışmışdır. Bununla yanaşı Azərbaycanın zəngin mədəni irsini və qədim tarixini təbliğ edən bir sıra kitablar da məhz bu dərnəyin yardımı ilə nəşr edilmişdir. Dərnəyin fəaliyyətinə H.Atanandan sonra R.Ünsal, Kərim Odal, Əhməd Yasaf, Cəmil Odeli, İsgəndər Ağüzüm, Məhəmməd Kəngərli və Camal Ünsal rəhbərlik etmişlər. Hazırda dərnəyə Cəmil Ünal sədrlik edir. 2000-ci ildə Azərbaycan Kültür Dərnəyinin 37-ci qurultayı keçirilmiş və təşkilatın fəaliyyətinin yeni istiqamətləri müəyyənləşdirilmişdir.

Qeyd edək ki, bu cəmiyyət əvvəllər Azərbaycanla o qədər də sıx əlaqələr saxlamamışdır. Lakin son illərdə aparılmış işlər nəticəsində cəmiyyətin işində fəallıq müşahidə edilməkdədir. 2006-cı ildə Azərbaycan Respublikasının Türkiyədəki səfiri cəmiyyət üzvləri ilə görüşmüş və bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparmışdır. Görüşün nəticəsi olaraq dərnək rəhbərliyinin Azərbaycana səfərinin təşkil edilməsi barədə ümumi razılıq əldə olunmuşdur. Cənab səfirin verdiyi məlumata görə bu barədə ölkə rəhbərliyinə məruzə olunmuş və dərnək üzvlərinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qəbul olunması məsələsinə baxılması məqsədəuyğun hesab edilmişdir. Azərbaycan Kültür Dərnəyinin sədri C.Ünal

cənab səfirlə görüş zamanı Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, ölkəmizin milli maraqlarının müdafiəsi işində həmişə fəal iştirak etməyə hazır olduqlarını bildirmişdir. Qeyd edək ki, Azərbaycan Kültür Dərnəyinin Ankarada təhsil alan azərbaycanlı tələbələrə təsiri kifayət qədər böyükdür. Dərnəyin maliyyə imkanları digər icmalarla müqayisədə daha geniş olduğundan Türkiyədə təhsil alan azərbaycanlı tələbələrə müəyyən yardımlar göstərə bilir ki, bu da nəticədə gənclər arasında nüfuzunun artmasına səbəb olur.

1992-ci ildə Türkiyədə yeni Azərbaycan diaspor təşkilatı Azərbaycanı Tanıtma Dərnəyi fəaliyyətə başlamışdır. Dərnəyin «Araz» adlı qəzetində Azərbaycanın tarixi və müasir həyatı ilə bağlı məlumatlar dərc olunur və Türkiyə ictimaiyyətinə çatdırılır.

1991-ci ildə İzmir şəhərində «Azərbaycan Dostluq, Kültür və Sənət Dərnəyi» yaradılmışdır. Dərnəyin yaradılmasında məqsəd İzmirdə yaşayan azərbaycanlıları vahid amal ətrafında birləşdirmək, milli-mənəvi dəyərləri qoruyub saxlamaq, Azərbaycan həqiqətlərinin daha operativ şəkildə təbliğinə nail olmaqdır.

1993-cü ildə Türkiyənin Ankara şəhərində Azad Azərbaycan Həmrəylik Qrupu yaradılmışdır. Bu quruma Azərbaycan icmaları ilə yanaşı, Türk Ziyalılar Cəmiyyəti, Ticarət Orqanları və Birjalar Birliyi və digər təşkilatlar üzv olmuşdur.

1994-cü ildə Türkiyənin Ərzurum şəhərində Azərbaycan Mədəniyyət və Təhsil Fondu təsis edilmişdir. Təşkilatın məqsədi Azərbaycanın mədəni irsini təbliğ etmək, soydaşlarımızın ana dilində təhsil almasına yardım göstərməkdən ibarətdir.

1996-cı ildə görkəmli alim İhsan Doğramacının təşəbbüsü əsasında Azərbaycan Prezidenti Heydər Əliyev və Türkiyə Prezidenti Süleyman Dəmirəlin fəxri sədrliyi ilə Türkiyə-Azərbaycan Dostluq Vəqfi təşkil olunmuşdur. Vəqfin ilk təşəbbüsü isə Türkiyədə «Azərbaycan evi»nin açılmasının təşkili olmuşdur.

Bununla yanaşı, 2003-cü ildə yaradılmış İzmir Azərbaycan Kültür Evi və Dayanışma Dərnəyi, Manisa Azərbaycan Kültür və

Dayanışma Dərnəyi, Balıkesir Azərbaycan Evi Dərnəyi, İstanbul Azərbaycan Kültür və Dayanışma Dərnəyi, 2004-cü ildə təsis edilmiş, Bursa Azərbaycan Evi Dərnəyi, Kocaeli Azərbaycan Evi Dərnəyi, Çanakkale Azərbaycan Evi Dərnəyi, Aydın Azərbaycan Evi Dərnəyi, Muğla Azərbaycan Evi Dərnəyi, Adana Azərbaycan Kültür və Dayanışma Dərnəyi, Antaliya Azərbaycan Evi Dərnəyi, Ankara Azərbaycan Kültür və Dayanışma Dərnəyi, İqdır Azərbaycan Kültür və Dayanışma Dərnəyi, Hatay Azərbaycan Türk Kültür Mərkəzi, Hatay-Dörtyol Azərbaycan Türk Kültür Dərnəyi, Ədirnə Azərbaycan Evi Dərnəyi, Azərbaycanlıların Dayanışma Dərnəyi qardaş ölkədə yaşayan soydaşlarımızı öz ətrafında birləşdirərək, ölkəmiz haqqında həqiqətlərin yayılmasında fəal iştirak edir. 2013-cü ildə isə Azərbaycan Təhsil, Mədəniyyət və Yardımlaşma dərnəyi İstanbulda fəaliyyətə başlamışdır. Diaspor fəaliyyəti ilə birlikdə dərnək azərbaycanlı tələbələrə təqaüd verilməsinə təmin etməkdədir. Ümumilikdə Türkiyədə rəsmi olaraq 50-dən çox diaspor təşkilatı fəaliyyət göstərməkdədir.

2003-cü ilin may ayında Türkiyənin İzmir şəhərində «Azərbaycan evi»nin açılışı olmuş, xalqımızın mədəni irsi, tarixi ənənələri, ictimai-siyasi və mədəni həyatı ilə bağlı müxtəlif eksponatlar nümayiş etdirilmişdir.

Elə həmin vaxt İzmir şəhəri yaxınlığında «Azərbaycan» parkının təməl daşının qoyulması mərasimi keçirilmişdir.

2004-cü ilin may ayının 28-də Türkiyə Respublikasının İsgəndərun şəhərində 18 Azərbaycan icma və birliklərini özündə birləşdirən Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının təsis konfransı keçirilmişdir. Konfransın işində Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri, Avropa Azərbaycanlıları Konqresinin rəhbərliyi, Türkiyə Cümhuriyyətinin siyasi və ictimai xadimləri, bir sıra ölkələrdə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının nümayəndələri də iştirak etmişlər.

Aparılmış müzakirələrin yekunu olaraq qətnamə qəbul edilmişdir. Qətnamədə Türkiyə Azərbaycan Dərnəkləri

Federasiyasının (TADEF) qardaş Türkiyədə fəaliyyət göstərən ayrı-ayrı Azərbaycan dərnəklərini, müxtəlif qurumları və onların timsalında burada yaşayan bütün həmvətənlərimizi öz ətrafında sıx birləşdirməyi qarşısına məqsəd qoyduğu xüsusi qeyd olunmuşdur. Sənəddə TADEF-in dünya azərbaycanlılarının təşkilatlanmasını vacib hesab etdiyi və bu sahədə əlindən gələni etməyə hazır olduğu da bəyan olunmuşdur.

TADEF-in təsisçiləri Türkiyədəki həmvətənlərimizi bir araya gətirmək, onların Azərbaycanla əlaqələrini daha da möhkəmləndirmək amalına sadiq qalaraq, eyni zamanda dünya azərbaycanlılarının vahid bir təşkilatda birləşdirilməsinin tarixi zərurət olduğunu qeyd edərək, TADEF-in Avropa Azərbaycanlıları Konqresinin tərkibinə daxil olmasını məqsədəuyğun hesab etmişlər.

Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının təsis olunması ilə bağlı rəsmi razılıq protokolunu qardaş ölkənin müxtəlif şəhərlərindəki Azərbaycan Kültür və Dayanışma mərkəzlərinin rəhbərləri imzalamış və Türkiyədə fəaliyyət göstərən digər Azərbaycan dərnək və qurumlarını da federasiya ətrafında sıx birləşməyə çağırmışlar. TADEF-in 6 qurultayı keçirilmişdir. VI Qurultayda TADEF üzvü olan 23 dərnəyin 82 nümayəndəsi iştirak etmişdir. İştirakçılar dünya azərbaycanlılarına və Cənubi Azərbaycanda yaşayan həmvətənlərə verdiyi dəstəyə görə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevə təşəkkür və dəstək məktubu ünvanlamışlar. Hazırda TADEF-ə Ədalət Turan sədrlik edir.

2006-cı ilin noyabr ayında Türkiyədə təsis edilmiş Türkiyə-Azərbaycan Strateji Araşdırmalar Mərkəzinin fəaliyyətinin əsas istiqamətlərindən biri də «erməni soyqırım» iddiaları ilə bağlı elmi-praktik konfranslar təşkil etmək, bu iddiaların reallıqdan tamamilə uzaq olduğunu sübut edən elmi araşdırmaların nəticələri barədə dünya ictimaiyyətini məlumatlandırmaqdan ibarətdir. Mərkəz Azərbaycanla Türkiyə arasında münasibətlərin inkişafına da töhfə verməyə çalışır, iki qardaş ölkənin dostluq və əməkdaşlıq

əlaqələrinin dərinləşməsinə xidmət edən tədbirlər təşkil edir.

Türkiyədə yaşayan azərbaycanlılar ölkəmizlə bağlı həqiqətlərin təbliği sahəsində fəal iş aparırlar. Ötən müddət ərzində Türkiyədəki Azərbaycan icmaları Xocalı soyqırımı, 31 mart Azərbaycanlıların Soyqırımı günü ilə bağlı müxtəlif etiraz aksiyaları, elmi-praktiki konfranslar, fotosərgilər təşkil etmişdir.

2006-cı ildə Xocalı faciəsinin ildönümü ilə bağlı Türkiyədəki Azərbaycan icmaları tərəfindən də müxtəlif tədbirlər keçirilmişdir. İstanbul Azərbaycan Kültür və Dayanışma Dərnəyi Xocalı faciəsinin ildönümü ilə əlaqədar olaraq İstanbul şəhərində anım mərasimi keçirmişdir. Tədbirdə İstanbul Azərbaycan Kültür və Dayanışma Dərnəyinin nümayəndələri, İstanbulda yaşayan soydaşlarımız və burada təhsil alan azərbaycanlı tələbələr iştirak etmişlər.

İzmir Azərbaycan Kültür Evi və Dayanışma Dərnəyi fevral ayının 26-da "Xocalı" faciəsinin ildönümü ilə əlaqədar olaraq tədbir keçirmişdir.

2005-ci ildə 31 mart - Azərbaycanlıların soyqırımı günü Ankarada geniş qeyd olunmuşdur. Dost və qardaş ölkə paytaxtının Keçiörən bələdiyyəsinin ərazisindəki parkda toplaşan həmvətənlərimiz, Türkiyə Böyük Millət Məclisinin üzvləri, Azərbaycan-Türkiyə dostluq cəmiyyətlərinin nümayəndələri, şəhər sakinləri, Ankarada işləyən professor və müəllimlərimiz, burada təhsil alan tələbələrimiz erməni terror dəstələrinin qurbanı olan şəhidlərimizin xatirəsini yad etmişlər. Esterqon qalası ətrafındakı parkda erməni millətçilərinin törətdikləri cinayətləri daim yada salacaq abidənin ucaldılacağı yerə təməl daşı qoyulmuşdur.

31 mart soyqırımı 2006-cı ildə də Türkiyədə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları tərəfindən də geniş qeyd edilmişdir. İstanbulda Azərbaycan Kültür və Dayanışma Dərnəyi tərəfindən mitinq təşkil olunmuşdur. İstanbulun Fateh Saraçxana parkında keçirilən aksiyada yüzlərlə azərbaycanlı iştirak etmişdir.

İzmir Azərbaycan Kültür Evi və Dayanışma Dərnəyi 400-ə yaxın azərbaycanlının iştirakı ilə 31 mart soyqırımına həsr

olunmuş konfrans keçirmişdir. Konfransda ermənilərin Azərbaycan və Türk xalqlarına qarşı apardıqları soyqırım və düşmənçilik siyasətinə dair məruzələr dinlənilmiş, fikir mübadiləsi aparılmışdır. Çıxış edənlər ermənilərin törətdikləri soyqırım aktlarının bütövlükdə bəşəriyyətə qarşı cinayət olduğunu vurğulamış və dünya ictimaiyyətinin bu məsələyə münasibət bildirməsinin zəruriliyini qeyd etmişlər. Forumun sonunda mətbuat nümayəndələri üçün brifinq təşkil edilmişdir.

Balıkəsr Azərbaycan Evi Dərnəyi öz ofisində 31 mart soyqırımına həsr olunmuş praktik konfrans keçirmişdir. Tədbirin sonunda kütləvi informasiya vasitələrinə 1918-ci il mart soyqırımına dair faktları əks etdirən xüsusi press-relizlər təqdim olunmuş və jurnalistlərin sualları cavablandırılmışdır.

Manisa Azərbaycan Kültür və Dayanışma Dərnəyi 31 mart soyqırımının qurbanlarının xatirəsinə həsr olunmuş anım mərasimi keçirmişdir. Burada azərbaycanlıların kütləvi soyqırımı ilə bağlı məlumatlar verilmiş, dəyirmi masa təşkil edilmişdir. İştirakçılar erməni vəhşiliklərinə dair materialların bütün Avropa ölkələrinin parlamentlərinə, beyənlxalq təşkilatlara göndərilməsinin zəruriliyini bildirmişlər.

2005-ci ilin noyabrında Türkiyə Respublikasının paytaxtı Ankara şəhərində "Türk- erməni əlaqələri və 1915-ci il hadisələri" mövzusunda beynəlxalq simpozium, mart ayında Dövlət Komitəsinin və Avstriya-Azərbaycan Akademik Birliyinin birgə təşəbbüsü ilə keçirilmiş tədbir, may ayının 1-də Türkiyə Respublikasının Ceyhan, İskəndərun, Payas, Dörtyol, Mersin, Toroslar, Sarımazı və Lapseki bələdiyyə sədrlərindən ibarət nümayəndə heyətinin Azərbaycana səfərinin təşkili buna parlaq misaldır.

Türk və Azərbaycan diasporları arasında əlaqələrin möhkəmlənməsi xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına müsbət təsir göstərməkdədir. Belə ki, 2005-ci il may ayının 1-də Türkiyə Respublikasının Ceyhan, İskəndərun, Payas, Dördyol, Mersin, Toroslar, Sarımazı və Lapseki bələdiyyə sərdlərindən ibarət nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşlar. Səfər

zamanı Azərbaycan Respublikasının Sumqayıt, Salyan, Lənkəran, Ağdaş, Qəbələ, Şəki, Yevlax, şəhərləri ilə Türkiyə Respublikasının Ceyhan, Dörtyol, İsgəndərun, Payas, Sarımazı, Lapseki və Toroslar bələdiyyələri arasında qardaşlaşma barədə protokollar imzalanmışdır.

2006-cı il iyun ayının 6-da Antaliyada keçirilən Dünya Azərbaycanlı Ziyalılarının Forumu çərçivəsində Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının növbəti toplantısı keçirilmişdir. Toplantıda təşkilatın strukturlarının yaradılması və sədr seçkiləri ilə bağlı məsələlər müzakirə edilmişdir. Müzakirələr zamanı Türkiyədəki Azərbaycan icmalarının fəaliyyətinin təkmilləşdirilməsi, TADEF-in növbəti qurultayının keçirilməsi ilə bağlı fikir mübadiləsi aparılmışdır.

TADEF üzvləri Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması ilə bağlı məsələlər ətrafında da fikir mübadiləsi aparmışlar. Qeyd olunmuşdur ki, bu sahədə əsaslı dönüş yaratmaq və Azərbaycan xalqının məruz qaldığı terror və soyqırım aktlarını dünya ictimaiyyətinin diqqətinə çatdırmaq üçün konkret strategiyaya əsaslanan tədbirlər həyata keçirilməlidir.

Türkiyə ilə münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıması Azərbaycan və Türk icmaları arasında əməkdaşlıq üçün də etibarlı zəmin yaratmışdır. Məhz bu zəmin 2006-cı ilin mart ayının 9-da Bakı şəhərində Azərbaycan və Türk Diaspor Təşkilatları Rəhbərlərinin I Forumunun keçirilməsinə imkan yaratmışdır. Bu forum Azərbaycan və Türkiyə arasında münasibətlərin nə qədər yüksək səviyyədə olduğunu təsdiqləməklə yanaşı, eyni zamanda iki xalqın diaspor təşkilatları arasında əməkdaşlığın inkişafının parlaq təzahürü olmuşdur. Forumda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, Türkiyə Respublikasının Baş naziri cənab Rəcəb Tayyib Ərdoğan və Şimali Kipr türk xalqının lideri cənab Mehmet Əli Tələtin iştirakı tədbirin əhəmiyyətini daha da artırmış, onun bütün türk xalqları üçün mühüm önəmə malik olduğunu təsdiqləyən amil

olmuşdur. Tədbirə ümumilikdə 48 ölkədən 513 nəfər qatılmışdır. Onlardan 173-ü Azərbaycan, 140-ı türk, 14-ü Ahıska, 23-ü İraq diaspor təşkilatlarının, 5-i isə Kipr türklərinin nümayəndələri olmuşlar. Türkiyə, Almaniya, ABŞ, Rusiya, Ukrayna, İsveç, Niderland, Rumıniya, Norveç və Litva Forumda ən çox nümayəndə heyəti ilə təmsil olunmuşlar. Forumda Azərbaycan və Türkiyə ilə yanaşı, Latviya, Estoniya, Litva, Ukrayna, Lüksemburq, Bolqarıstan, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın dövlət və hökumət nümayəndələri, parlament üzvləri iştirak etmişlər.

Forumda Azərbaycan və Türkiyə diaspor təşkilatlarının birgə fəaliyyət Strategiyası, Bakı Bəyannaməsi, türkdilli xalqlara müraciət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin parlamentlərinə, dövlət və hökumət nümayəndələrinə müraciət, 1915-ci il hadisələri ələ əlaqədar erməni iddiaları ilə bağlı qərar qəbul edən ölkələrə etiraz bəyanatı qəbul edilmişdir.

Forumun yekun sənədi olan Bakı Bəyannaməsi Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyasından irəli gələn məsələlərin həlli məqsədilə həyata keçiriləcək tədbirlərlə bağlı tövsiyələri özündə əks etdirir. Sənəddə Azərbaycan və Türkiyənin, habelə bütün Türk dünyasının milli maraqlarının müdafiəsi, xarici ölkələrdə yaşayan azərbaycanlıların və türklərin ictimai-siyasi fəallığının artırılması, təşkilatlanma prosesinə dəstək verilməsi, insan hüquq və azadlıqlarının təmini, lobbi quruculuğu sahəsində əməkdaşlıq, azərbaycanlı və türk iş adamlarının forumlarının keçirilməsi, xarici sərmayəçilərin Azərbaycan və Türkiyəyə investisiya qoymağa təşviq edilməsi ilə bağlı məsələlər öz əksini tapmışdır.

Forumda aparılmış müzakirələrin yekunu olaraq Azərbaycan və Türk diaspor təşkilatlarının Koordinasiya Şurası yaradılmışdır. Koordinasiya Şurasının üzvləri xarici ölkələrdə fəaliyyət göstərən azərbaycanlı və türk icmalarının rəhbərləri arasından seçilmişdir. Şura strategiyada nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini əlaqələndirir, Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin

növbəti forumuna qədər görülmüş işlər haqqında hesabat hazırlayır. Şuranın işinin təşkil edilməsi və üzvlərin fəaliyyətinin əlaqələndirilməsi məqsədilə həmsədrlik institutu yaradılmışdır.

2007-ci ilin 17-19 noyabrında Azərbaycan Prezidentinin təşəbbüsü ilə Bakı şəhərində keçirilmiş Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayı Azərbaycan və Türk diaspor təşkilatları arasında əməkdaşlığın spektrini daha da genişləndirmişdir. Məhz bu qurultaydan sonra türkdilli xalqların diaspor təşkilatları arasında əməkdaşlıq məsələsi gündəmə gəlmişdir. Qurultaya müstəqil Türkdilli dövlətlərin dövlət və hökumət rəsmiləri, Muxtar və Federal Türkdilli dövlətlərin, Muxtar Türkdilli vilayətlərin nümayəndələri, millət vəkilləri, ictimai birlik və qeyri-hökumət təşkilatlarının, xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan və türk icmalarının rəhbərləri dəvət olunmuşdur.

Qurultay çərçivəsində Türkdilli xalqlar arasında elm, texnika, mədəniyyət, təhsil, iqtisadiyyat, ticarət, turizm və maliyyə sahələrində əməkdaşlıq, Türk dünyasının mədəni irsinin təbliği, Türk gəncliyinin qarşısında duran vəzifələr, onların milli ruhda tərbiyə olunması problemləri, müasir qloballaşma proseslərinin xalqlarımızın həyatına təsiri ilə bağlı məsələlər müzakirə edilmişdir. Qurultayda Türk dünyasını narahat edən bir sıra digər problemlər - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Şimali Kiprin beynəlxalq təcriddən çıxarılması, İraq və Əfqanıstanda yaşayan türkdilli xalqların vəziyyəti, Ahıska türklərinin tarixi torpaqlarına qayıdışı ilə də bağlı fikir mübadiləsi aparılmış, bir sıra mühüm sənədlər qəbul edilmişdir.

30 ölkədən 550 nəfər nümayəndə və qonağın dəvət olunduğu qurultayın işində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan, Şimali Kipr Prezidenti Mehmet Əli Tələt, Türkiyə Respublikasının 9-cu Prezidenti Süleyman Dəmirəl, habelə Türkdilli ölkələrin yüksək dövlət və hökumət nümayəndələri iştirak etmişlər.

Toplantıda qurultayın yekun hesabatı, habelə ermənilərin soyqırım iddiaları ilə bağlı Bəyanatın mətni müzakirə və qəbul edilmişdir.

Türkiyədə yaşayan azərbaycanlılar əsasən bu ölkənin İqdır vilayətində və Azərbaycanla sərhəd bəzi rayonlarında olan aboregen əhalidir. Bununla yanaşı Türkiyədə diaspor olaraq, yəni bu ölkəyə sonradan köçmüş soydaşlarımız da var. Türkiyə ilə Azərbaycanın tarixi-etnik bağlılığı, burada diasporun fəaliyyətinin əhəmiyyətini müəyyən qədər arxa plana keçirir. Yəni Türkiyə Azərbaycana qardaş ölkə olduğundan burada xüsusi təbliğata başqa ölkələrlə müqayisədə o qədər də böyük ehtiyac duyulmur. Bununla belə, azərbaycanlılar Türkiyə ilə ölkəmiz arasında münasibətlərin inkişafında olduqca mühüm rol oynamaqdadırlar. Son illərdə isə bu ölkəyə köçənlərin böyük əksəriyyəti ictimai və mədəniyyət xadimləri, görkəmli sənət adamları, alimlər, bir sözlə ziyalı təbəqənin nümayəndələridir. Təbii ki, bu faktor Türkiyədə güclü Azərbaycan diasporunun formalaşması üçün yaxşı zəmin yaratmışdır. Təsadüf deyildir ki, bu gün Türkiyədə Azərbaycan diasporu ölkəmizlə bağlı həqiqətlərin təbliği sahəsində kifayət qədər fəal iş aparır. Eyni zamanda, xalqlarımız arasında çoxəsrlik qardaşlıq münasibətləri və dostluq əlaqələri sayəsində azərbaycanlılar ictimai fəaliyyətdə demək olar ki, heç bir maneə ilə qarşılaşmırlar. Əksinə bu yaxınlıq beynəlxalq miqyasda türk-azərbaycan diasporunun birgə fəaliyyəti üçün zəmin yaradır.

Türkiyənin strateji mövqeyi, siyasi imkanlarını nəzərə alaraq, habelə burada dünyanın müxtəlif xalqlarının təmsilçilərinin yaşaması, turist axınının böyüklüyü Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması baxımından əlverişli imkan yaradır. Fikrimizcə, gələcəkdə bu mühüm amilləri Azərbaycan diasporunun fəaliyyətində daha ciddi şəkildə nəzərə almaq lazımdır.

# IV FƏSİL. ŞƏRQ ÖLKƏLƏRİNDƏ YAŞAYAN AZƏRBAYCANLILARLA HƏMRƏYLİK: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR

## 4.1.Müsəlman Şərq ölkələrində yaşayan azərbaycanlılarla həmrəylik işinin müasir vəziyyəti

Azərbaycanlıların böyük bir hissəsi Şərq ölkələrində yaşayır. İran dövlətinin rəsmi məlumatlarında azərbaycanlıların sayı 16 milyondan çox olaraq göstərilir. Maraqlı faktlardan biri bundan ibarətdir ki, soydaşlarımızın sayı ilə bağlı İranın rəsmi orqanlarının yaydığı statistika bir neçə ildir ki, dəyişmir. Halbuki azərbaycanlıların sayının daha sürətlə artdığına dair məlumatlar ən müxtəlif mənbələrdə təsdiqini tapmaqdadır. Yeri gəlmişkən, İranda yaşayan azərbaycanlıların sayı YUNESKO-nun apardığı hesablamalara görə 30 milyondur. Dünya azərbaycanlıları Korqresi isə bu rəqəmin daha böyük – 35 milyon olduğunu bəyan etmişdir. Rəqəmlərin müxtəlif olmasına baxmayaraq azərbaycanlıların İranda ən böyük xalq olduğu danılmaz faktdır. Azərbaycanlılar İranda daim inqilabların, xalq üsyanlarının hərəkətverici qüvvəsi olduğundan rəsmi Tehran bütün imkanlarından istifadə edərək, soydaşlarımızın sıx yaşadığı regionlarda mümkün etirazların qarşısını almağa çalışır, milli şüurun inkişafına müxtəlif yollarla maneələr yaradır, xalqın milli özünüdərkini stimullaşdıran amilləri aradan qaldırmağa səy göstərir. Əlbəttə ki, Cənubi Azərbaycanda yaşayan soydaşlarımızı öz vətənində diaspor hesab etmək elmi baxımdan qətiyyən doğru deyildir. Lakin şübhəsiz ki, cənublu soydaşlarımızla həmrəylik olduqca vacib məsələlərdən biridir.

Azərbaycanlılar İranın ən böyük xalqı olmasına baxmayaraq bəzi acı reallıqlar onların ölkədə hakim xalqa çevrilməsinə imkan verməmişdir. Belə ki, İran dövləti azərbaycanlıların hakim xalqa çevrilməsi perspektivinin qarşısını almaq üçün İran xalqı terminini ortaya atmışdır.

Qeyd edək ki, İranda azərbaycanlıların sıxışdırılması prosesi bu gün də davam etməkdədir. Lakin Azərbaycanlılara qarşı yönəlmiş bütün hərəkatlar kütləvi etirazlarla müşaiyət olunur. Belə ki, 2006-cı ilin may ayında «İran» qəzetində dərc olunmuş karikaturada azərbaycanlıların həşərata bənzədilməsi ciddi etirazla qarşılanmışdır. Bir sıra şəhərlərdə, o cümlədən Urmiya, Təbriz, Ərdəbil, Həmədan və Zəncan şəhərlərindəki universitet tələbələri karikaturaya etiraz olaraq aksiyalar keçirmişlər. Etiraz aksiyaları Tehranın Şərif adına politexnik, Əllamə Təbatəbai, Behişti, Rəcai, Əlzəhra, İmam Sadiq, elm və texnologiya, Əmir Kəbir texniki, İnqilabi-islami, tibb və pedoqoji universitetlərinin azərbaycanlı tələbələri tərəfindən də təşkil olunmuşdur. Bundan başqa, Urmiya, Maku, Təbriz, Xoy şəhərlərinin adi sakinləri də bu aksiyaya qoşulmuşlar. Qeyd edək ki, bu hadisələr zamanı xarici ölkələrdə yaşayan azərbaycanlılar da öz etirazlarını ən müxtəlif formada ifadə edərək mitinqlər etmiş və yürüşlər keçirmiş, «İran» qəzetinin azərbaycanlılardan üzr istəməsini tələb etmişlər. Kütləvi etirazlar nəticəsində qəzet rəhbərliyi üzr istəmək məcburiyyətində qalmışdır. Bundan bir qədər sonra isə başqa bir məhkəmə işində qəzetin fəaliyyətinə müvəqqəti məhdudiyyət qoyulmuşdur. Qeyd etmək lazımdır ki, cənubi azərbaycanlıların hüquq və azadlıqlarının məhdudlaşdırılması bu gün beynəlxalq ictimaiyyətin də diqqət mərkəzindədir. Belə ki, 2006-cı ildə Amnesty İnternational-Beynəlxalq Amnistiya təşkilatının İranla bağlı bəyanatında dinc etiraz aksiyaları zamanı yüzlərlə insanın yaralanması, bir neçə nəfərin qətlə yetirilməsi ilə nəticələnən polis zorakılığı, eləcə də yüzlərlə azərbaycanlıların həbsə atılması pislənilmişdi. Eyni zamanda, Amnesty İnternational təcili olaraq rəsmi Tehrandan Azərbaycan türklərinin hüquqlarını tapdalamağa son qoymağı tələb etmişdir.

ABŞ Dövlət Departamenti də İranda yaşayan azərbaycanlılarla bağlı bəyanat verərək bildirmişdir ki, öz haqqını tələb etmək istəyənlərin sıxışdırılması İran rejimi tərəfindən bu ölkədə yaşayan azərbaycanlılara qarşı təzyiqdir. «Bu ilin mayında dinc

nümayiş zamanı azərbaycanlılar döyülüb, təzyiqə məruz qalıb və həbs olunub. Bundan başqa, İran məktəblərində Azərbaycan dilində təhsil qadağan edilir. Fəallar təqib olunur, həbs edilirlər. Departament bəyan edir ki, İran rejimi tərəfindən azərbaycanlılar, etnik ərəblər və kürdlərə qarşı repressiyalar dini azlıqlara, tələbələrə, qadınlara, həmkarlar ittifaqlarına və jurnalistlərə qarşı yönəldilib», - deyə sənəddə qeyd olunmuşdur. Dövlət departamenti İran hökumətini vətəndaşlarının hüquqlarına hörmətlə yanaşmağa, öz haqlarını tələb etmiş şəxsləri azad etməyə çağırmışdır. Qeyd edək ki, bu gün xaricdəki Azərbaycan diasporunun əsas hissəsini məhz cənubi azərbaycanlılar təşkil edir. CAMOH-un verdiyi məlumata görə hazırda İrandan xaricdə yaşayan cənublu soydaşlarımızın sayı bir milyon nəfərdən çoxdur. Bəzi digər məlumatlarda bu rəqəm 2 milyon göstərilir. Qeyd edək ki, İran rejiminin apardığı siyasət nəticəsində hazırda Cənubi Azərbaycanın bir sıra regionlarında digər xalqların məskunlaşdırılması prosesi həyata keçirilir. Ümumiyyətlə 6 milyon nəfərdən çox azərbaycanlı Cənubi Azərbaycanın tarixi sərhədlərindən kənarda, İranın müxtəlif regionlarında yaşamaqdadır.

Azərbaycan diasporunun mühüm qanadını təşkil edən cənublular, əsasən ziyalılar və biznesmenlərdən ibarətdir. Müxtəlif sahələrdə çalışan soydaşlarımız öz işlərində peşəkar mütəxəssislər hesab olunurlar. Ədəbiyyat, riyaziyyat, din, tarix, biologiya, iqtisadi elmlər sahəsində daha çox uğurlar əldə edən soydaşlarımız Qərb və Şərq ölkələrinin nüfuzlu ali və orta məktəblərində dərs deyir, elm dairələrində tanınırlar. Cənublu ziyalılarımızın elmi-bədii əsərləri Qərb və Şərqdə sevilən, oxudulan əsərlər olmaqla elmi araşdırmalar məqsədilə də istifadə olunur.

Cənubi azərbaycanlıların böyük bir hissəsi ticarət sahəsində çalışır və onların bir qismi böyük kapital mənbələrinə sahibdir. Güclü investisiya imkanları olan soydaşlarımızın sahib olduqları firmalar, şirkətlər, müəssisələr bir çox ölkələrin iqtisadiyyatına xeyir verir. Birləşmiş Ştatlar, Kanada, Böyük Britaniya, Fransa, Danimarka, İsveç, Avstraliya və digər ölkələrdə cənublular böyük

imkanlara malikdirlər. Cənubi Azərbaycanlıların ən çox məskunlaşdığı ölkələr sırasında ABŞ, İsveç, Almaniyanı göstərmək olar. Onlar diaspor olaraq Cənubi Azərbaycanın müstəqilliyi ideyalarını təbliğ etsələr də, Azərbaycan Respublikası Beynəlxalq Konvensiyalardan çıxış edərək İranın ərazi bütövlüyünə hörmətlə yanaşır. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsi isə Azərbaycan və İran arasında münasibətlərindəki kifayət qədər həssas məqamları nəzərə alaraq, İranda, yəni Cənubi Azərbaycanda yaşayan azərbaycanlılarla milli həmrəylik hərəkatı sahəsində heç bir iş aparmır. Dövlət Komitəsinin rəsmisi E.Miraləm bu barədə 2006-cı ildə Azadlıq radiosuna müsahibəsində demişdir: «Biz Dövlət Komitəsi olaraq, ümumiyyətlə, İranda yaşayan azərbaycanlılarla heç bir iş aparmırıq. Bu İran-Azərbaycan münasibətlərində bəzi həssas siyasi məqamlarla bağlıdır. Biz Azərbaycan-İran münasibətlərinin indiki səviyyəsinə xələl gətirə biləcək hər hansı addımın atılmasını istəmirik».

Lakin fikrimizcə, İranda yaşayan azərbaycanlılarla milli həmrəylik sahəsində iş aparılmaması o qədər də düzgün strategiya deyil. Bizcə bu ölkədəki soydaşlarımızla ən azı mədəni-iqtisadi əlaqələri həyata keçirmək mümkündür. Doğrudur, digər dövlət qurumları bu fəaliyyəti həyata keçirirlər, lakin bilavasitə xaricdə yaşayan azərbaycanlılarla iş aparan dövlət orqanının da sözügedən məsələyə diqqət göstərməsi üçün imkanlar axtarılmalıdır. Yeri gəlmişkən İran İslam Respublikasının Azərbaycan Respublikasındakı səfiri ANS televiziyasına müsahibəsində 2006-cı ilin mart ayında Bakıda keçirilmiş Dünya azərbaycanlılarının II qurultayına İranda yaşayan azərbaycanlıların dəvət olunmamasını təəccüblə qarşıladığını bildirmişdir. «Qurultayın təşkilatçıları İranda yaşayan azərbaycanlılardan bir nəfər də olsun nümayəndə dəvət etməmişdilər. Halbuki, onlar da azərbaycanlıdır və Təşkilat Komitəsi bunu nəzərə almalıydı. Bu bizdə çox təəccüb doğurur». Bu ölkədə yaşayan azərbaycanlılarla həmrəylik hərəkatı dövlət siyasəti səviyyəsinə yüksəlməmişdir. Fikrimizcə, gələcəkdə İran

dövlətinin suverenliyi gözlənilmək şərti ilə, bu problemi həll edəcək, həmvətənlərlə həmrəylik hərəkatına perspektiv açacaq dövlət proqramının hazırlanması zəruridir.

Azərbaycanlıların ən çox məskunlaşdığı müsəlman Şərq ölkələrindən biri də İraqdır. YUNESKO-nun təqdim etdiyi rəsmi statistikaya görə İraqda təxminən 1 milyon civarında azərbaycanlı yaşayır. Onlar özlərini əsasən türkmən adlandırırlar. İslam Ensiklopediyasında göstərilir ki, İraq Türkmənləri, yəni Oğuz dil qrupunun Azəri Türkcəsində danışan Türklərdir. Bəzi mənbələrdə isə İraq türkmənlərinin Osmanlı türklərinin bir qolu olduğuna dair mülahizələr irəli sürülür. Lakin İraq türkmənlərinin dilində bəzi osmanlı türk sözlərinə rast gəlinsə də, bütöv şəkildə aparılmış müqayisəli təhlillər, onların daha çox Azərbaycan dilinə yaxın olduğunu göstərir.

İraqda azərbaycanlılar ölkənin şimalında - əsasən Kərkük vilayətində yaşayırlar. Kərkük şəhəri, Tuz Xurmatu, Altun kürpü, Təzə Xurmatu Daquq, Badava, Bəşir, Böyük hasar, Biləvə, Qarabulaq, Qızılyar, İftixar, Yayçı, Yarvərli, Yengicə, Küküz, Gümbədlər, Leylan, Ümər Məndən, Tərcil, Tisin, Toxmaqlı, Türgələn, Çardaxlı kəndlərində, Kifri, Tərətəppə, Əbud, Birəvçulu, Bostamlı, Talxanlu, Qaranaz, Ənbuhəsən, Ənbusabah, Əmirli, Əski Kifri, Yeşiltəpə, Kəhriz, Kinkirban, Kütəburun, Laqum, Məftun, Para-para, Pirvaz, Pirəhməd, Səyyad, Süleyman bək, Tel Mənzil, Üçtəpə, Xasadarlı, Hasarlı, Hələvə, Cabbarlı, Şirvanə kimi şəhər və qəsəbələrdə məskən salmışlar. Bundan başqa, Diyalə vilayətində, Şahraban, Dəlli Abbas, Məndəli, Qarağan, Qızlarbat, Qızılca, Mənzəriyyə, həmçinin Ərbil, Mosul, Bağdad, Samirə kimi şəhərlər soydaşlarımızın yaşadığı əsas ərazilərdir.

XX əsrin 80-ci illərindən etibarən azərbaycanlılara qarşı genişlənən təzyiqlər 1990-cı ildə qəbul olunmuş Konstitusiya ilə təsbit olunmuşdur. İraq xalqının ərəblərdən və kürdlərdən ibarət olması haqqında maddə hökumətin azərbaycanlıların-türkmənlərin nəinki hüquqlarını, hətta mövcudluğunu belə tanımamasının göstəricisidir.

Səddam Hüseyn rejiminin devrilməsindən sonra isə hakimiyyətə gəlmiş siyasi qüvvələr bu siyasəti daha da sərtləşdirməkdə davam edirlər.

Bütün bunlara baxmayaraq, İraq azərbaycanlıları-türkmənləri öz hüquqlarının təmin edilməsi istiqamətində mübarizə aparırlar. Bu gün İraqda Milli Azadlıq Hərəkatı, Şimali İraq Türkmən Cəbhəsi, Türkmən Milli Cəbhəsi, Milli Türkmən Partiyası, Türkmən Bağımsızlar Partiyası, Qardaşlıq Ocağı, Türkmənlərin Kültür Dərnəyi, İraq Türklərinin Kültür və Yardımlaşma Dərnəyi, Avropa Türkmən Dərnəyi, Türkmən Eli Gənclik və Tələbə Birliyi, Türk Milli Vəqfi, Kərkük Vəqfi və s. kimi qurumlar məhz İraq türkmənlərinin hüquqlarının qorunması istiqamətində fəaliyyət göstərirlər.

İndi dünyanın ən "qaynar nöqtə"si olan Əfqanıstanda 500 minə yaxın azərbaycanlı yaşayır. Əfqanıstan azərbaycanlıları iki qrupa bölünür: qızılbaşlar və əfşarlar. Bu ölkədə onları bəzən şahsevənlər və şiələr də adlandırırlar. Qeyd etmək lazımdır ki, adı çəkilən ölkədə türk soyundan olan, lakin türk dillərində danışmayan xeyli etnik xalq yaşayır ki, azərbaycanlılar da bu sıraya aid edilir.

Tarixi qaynaqlarda Azərbaycan türklərinin Əfqanıstana gəlməsinə dair müxtəlif məlumatlar var. Yeri gəlmişkən, paytaxt Kabil yaxınlığında soydaşlarımızın yaşadağı Qarabağlılar adlı məhəllə də yerləşir.

Əfşarların Əfqanıstana ilk gəlişi 11-12-ci əsrlərdə türkmən səlcuqlarla birlikdə olub. Daha sonra, 18-ci əsrdə özü də əfşar olan Nadir şah tərəfindən Güney Azərbaycanın Urmiya və Həmədan bölgələrindən xeyli azərbaycanlı (həm əfşarlar, həm də qızılbaşlar) Əfqanıstana köçürülüb. Onlar Əfqansıtanın Kabil və Herat şəhərlərində, Kabil və Qəndəhar şəhərlərinin ətraf bölgələrində yerləşdiriliblər. Əfşarlar bugünkü Əfqanıstanda azərbaycanca danışan tək etnik qrupdur. Onların özləri danışdıqları dili əfşari adlandırırlar. Qeyd edilməlidir ki, Əfqanıstan azərbaycancası zaman-zaman fars dilinin təsirinə məruz qalıb. Bu səbəbdən də

Əfqanıstanın Kabilətrafı ərazilərində yaşayan əfşarların əksəriyyəti demək olar ki, doğma dillərini unudublar.

Əfqanıstan azərbaycanlıları barədə məlumat bütün dünyaya 1990-cı illərdən sonra yayılıb ki, bu da onların qətliama məruz qalması üzündən baş verib. Əfqanıstan paytaxtı Kabilin daha çox qərb tərəfi əfşar məhəllələri kimi tanınır. 1993-cü ilin 11-12 fevralında əfşar məhəllələrində gerçəkləşdirilən qətliamlar zamanı 1000 nəfərədək insan həlak olub. Qeyd edək ki, keçmiş SSRİ dövləti Kabil Politexnik İnstitutunu məhz həmin bölgədə yaratmışdı. Əfşarların sayının təxminən 10 minə yaxın olduğu bildirilir.

Qızılbaşlar (azərbaycanlılar) Əfqanıstana 1737-ci ildən sonra Nadir şah və Abdallı Əhməd xan Durrani tərəfindən köçürülüblər. Vaxtilə onlar həm saray işlərində çalışıb, həm də tacir, hərbçi kimi fəaliyyət göstəriblər. Vaxtilə Nadir şahın mühafizəçisi olan, sonralar Əfqanıstan dövlətini quran Əhməd xan Durraninin sarayında qızılbaşlar saylarına mütənasib olmayan çox böyük güc və nüfuz qazanıblarmış. Bu isə Əfqanıstandakı hakim Puştunlar arasında rahatsızlığa səbəb olmuşdu. İllər keçdikcə, xüsusilə I İngilis-Əfqan savaşında (1832-1842) qızılbaşların açıq şəkildə ingilislərlə itttifaqa girməsi onların Puştun əmiri Əbdürrəhmanın qəzəbinə tüş gəlmələrilə nəticələndi. 1891-1893-cü illərdə qızılbaşlar puştunların təqib və təzyiqlərinə məruz qaldılar.

Bu gün Əfqanıstanda yaşayan qızılbaşlar vaxtilə İrandan köçüb gələn azərbaycanlıların nəslindəndirlər. İndiki qızılbaşlar Əfqanıstanın ən savadlı tayfalarından sayılır. Qızılbaşların sayının 400 minə yaxın olduğu bildirilir. Lakin onların dəqiq sayı barədə məlumat yoxdur. Dini ayrı-seçkilik və siyasi təzyiqlərdən qoxduqları üçün qızılbaşların bir çoxu özlərini qorumaq məqsədilə sünni tacik kimi qələmə verirlər. Etnik mənşəcə əfşarlarla eyni olan qızılbaşların böyük əksəriyyəti Azərbaycan türkcəsini unudaraq Dəri (fars) və Tacik dillərində danışırlar.

Müasir Əfqanıstan azərbaycanlıları demək olar ki, dünyadan qopmuş vəziyyətdə yaşayırlar. Müharibələr, qardaş qırğınları,

səfalət, ölkədə gedən ictimai, siyasi və hərbi proseslər onların da həyatına mənfi təsir göstərib.

Onların dünya azərbaycanlıları ilə əlaqələri zəifdir. Yaşı 35-dən az olan Əfqanıstan azərbaycanlılarının heç biri doğma dilini bilmir.

Əfqanıstan azərbaycanlılarından Qarabağa dəstək - 2020-ci ildə Herat şəhərində dəfələrlə #KarabakhisAzerbaijan devizi ilə yığıncaqlar keçirilmiş, şəhidlərimizin ruhuna Quran oxunmuş və Qarabağın tezliklə Azərbaycanın nəzarətinə qaytarılmasının gərəkliliyi vurğulanmışdı.

Onlardan bəziləri sosial şəbəkələrdə profilinə Azərbaycan bayrağını və "Karabakh is Azerbaijan" yazılarını qoyur, hər şəkildə, hər vəchlə Azərbaycan türkü olduqlarını, Heratın qəlbində "Kiçik Azərbaycan" olduqlarını vurğulamağa çalışırlar. 1.8 milyon əhalisi olan Herat vilayətində soydaşlarımız 10 min nəfər sayla kiçik bir azlıq olsalar da, təhsilə diqqətlərinə, açıq dünyagörüşlərinə, fərasətlərinə görə orada hörmət-izzət sahibidirlər və saylarından qat-qat artıq təsirə malikdirlər. Heratda onlar bir çox sahələrdə təmsil olunurlar. Özləri həmişə bunu vurğulamağı sevirlər: "Biz burada başqaları kimi deyilik, təhsil bizim üçün birinci yerdə gəlir, bizim 2 min nəfər ali təhsillimiz var".

Cəmi 10 min nəfərlik toplumda memarından tutmuş siyasətçisinədək, futbolçusundan şairinədək, həkiminədək hər məsləkdən fəxr edə biləcəyimiz soydaşımız tapılır.

Səudiyyə Ərəbistan kralığında azərbaycanlıların diaspora təşkilatı fəaliyyət göstərmir. Təşkilatlanma yalniz səfirlik vasitasilə həyata keçirilir. İl ərzində Səfirlik vasitəsilə təşkil edilən bütün tədbirlərdə həmvətənlərimizin təmin olunur, xüsusilə də 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik günü krallığda yaşayan bütün azərbaycanlılarda həmrəylik və birlik nümayiş etdirmək üçün təntənəli şəkildə qeyd edilir. Səudiyyə Ərəbistanı Krallığında yaşayan həmvətənlərimiz əsasən tibb, neft mədəni sənayəsi, informasiya və kommunikasiya eləcə də kiçik biznes sahələrində fəaliyyət göstərirlər. Həmvətənlərimiz əsasən Ər-

Riyad, Xobar, Domman, Ciddə, Mədinə kimi böyük şəhərlərdə yaşayırlar.

Faktların təhlili bu ölkədə yaşayan soydaşlarla həmrəylik hərəkatı sahəsində fəaliyyətin İranda olduğundan elə də fərqlənmədiyini göstərir. Fikrimizcə, bu istiqamətdə də reallıqları nəzərə alan dövlət proqramına ehtiyac vardır.

Bundan başqa digər müsəlman Şərq ölkələrində də soydaşlarımız yaşayır. Əfqanıstanda 430 min, Suriyada 90 min, Səudiyyə Ərəbistandaisə 40 min nəfər azərbaycanlı yaşayır. Lakin müsəlman Şərq ölkələrində yaşayan azərbaycanlıların təşkilatlanma səviyyəsi və onlar arasında əlaqələr hələ qənaətbəxş səviyyədə deyil.

Müsəlman Şərqində azərbaycanlıların həmrəylik hərəkatı spesifik xarakter daşıyır və onun inkişaf etdirilməsi üçün daha ciddi iş aparmağa ehtiyac vardır. Nəzərə almaq lazımdır ki, cənubi azərbaycanlılar öz tarixi vətənində yaşayırlar və diaspor hesab olunmurlar. Lakin burada da güclü diasporun formalaşması, azərbaycanlılar arasında milli həmrəylik hərəkatının inkişafı sahəsində konseptual iş aparılmasına ehtiyac var. Fikrimizcə, Azərbaycan dövlətinin bununla bağlı konkret strategiyası olmalıdır. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin Avropa, ABŞ, MDB və digər regionlarla bağlı diaspor quruculuğu sahəsində müəyyənləşmiş hədəfləri və konkret fəaliyyət konsepsiyası olsa da, müsəlman Şərq ölkələri ilə bağlı istiqamətlər və prinsiplər müəyyənləşməmiş qalır. Buna görə də müsəlman Şərq ölkələrində yaşayan azərbaycanlıların milli həmrəylik hərəkatının genişləndirilməsi Azərbaycanın diaspor quruculuğu sahəsində dövlət siyasətinin əsas problemlərindən biri olaraq qiymətləndirilə bilər.

## 4.2. Azərbaycanlıların həmrəyliyi siyasətində qeyri-müsəlman Şərq ölkələrində yaşayan azərbaycanlılarla iş

Azərbaycanlılar Şərqin bir neçə qeyri-müsəlman ölkəsində

də məskunlaşmışlar. Bu ölkələrin içərisində İsrail xüsusi yer tutur. Doğrudur İsrailə Azərbaycandan köçənlərin əksəriyyəti milliyyətcə azərbaycanlı deyil, lakin onlar Azərbaycanı özlərinin vətəni hesab edir və ölkəmizin milli maraqlarının müdafiəsi işində fəal iştirak edirlər.

Bunun əsas səbəbi Azərbaycanda uzun əsrlərdən bəri mövcud olan dini və etnik tolerantlıqla bağlıdır. Bəzi tarixi faktlara diqqət yetirdikdə yəhudilərin Azərbaycana olan sevgisinin səbəblərini daha aydın görmək mümkündür. Azərbaycanda yəhudilərin məskunlaşması tarixi kifayət qədər dərin köklərə malikdir. Tarixi mənbələrə əsaslansaq, yəhudilərin Azərbaycan ərazilərində məskunlaşma tarixi iki min beş yüz ilə yaxındır. Hələ eramızdan əvvəl 722-ci ildə Assuriya Çarı II Sarqonun hücumlarından sonra İsrail çarlığının əhalisi kütləvi şəkildə müasir İranın yerləşdiyi Midiya ərazisinə və qədim Azərbaycan torpaqlarına köçürülmüşdür. Tarixi mənbələr Atropatenada digər xalqlarla yanaşı yəhudilərin də yaşadığı göstərilir.

Hazırda respublikamızda 16 mindən çox yəhudi yaşayır. Müasir dövrdə Azərbaycan ərazisində üç yəhudi icması mövcuddur: dağ yəhudiləri, yəhudi-aşkenazilər və gürcü yəhudiləri. Onlardan ən qədimi dağ yəhudiləri hesab olunur ki, tarixi mənbələrə görə onlar bu ərazidə 15 əsr bundan əvvəl məskunlaşmışlar. Yəhudi – aşkenazilər isə Azərbaycan ərazisinə XIX əsrin əvvəllərində köçmüşlər. XIX əsrin ortalarında Bakıda neft sənayesinin inkişaf etməyə başlaması müxtəlif millətlərin, o cümlədən yəhudilərin regiona köçünün daha geniş miqyas almasına səbəb olmuşdur.

XIX əsrin sonları, XX əsrin əvvəllərində Bakıda yəhudi teatrı və məktəbləri fəaliyyət göstərmiş, yəhudi dilində qəzetlər nəşr edilmişdir. Maraqlı faktdır ki, həmin dövrdə sinaqoqlar olmayan yerlərdə ravinlər yerli yəhudilərə məhz məscidlərdə ibadət etməyi tövsiyə edirdilər.

Azərbaycan Xalq Cumhuriyyəti dövründə yəhudilər Azərbaycan Parlamentində və hökumətdə təmsil olunmuşlar.

Sovet hakimiyyəti illərində Azərbaycanda yəhudilərin sayı üç dəfə artmışdır. 1937-1938-ci və 1952-ci illərdə antisemitizmin bütün SSRİ-də geniş miqyasda yayıldığı dövrdə belə, Azərbaycanda məskunlaşmış yəhudilər bu qorxulu prosesin təzahürləri ilə qarşılaşmamışlar. Yəhudi icmasının bir çox nümayəndələri respublikanın siyasi, iqtisadi və mədəni həyatında çox fəal şəkildə iştirak etmişlər.

SSRİ-nin süqutundan sonra baş vermiş ciddi sosial-iqtisadi və siyasi dəyişikliklərə baxmayaraq, digər postsovet ölkələrindən fərqli olaraq Azərbaycanda yəhudilərə münasibət kifayət qədər tolerant xarakter kəsb etmişdir. Azərbaycan müstəqillik əldə etdikdən sonra yəhudilərə dövlət tərəfindən göstərilən diqqət və qayğı daha da artmışdır. Hazırda Azərbaycanda 8 yəhudi dini icması dövlət qeydiyyatına alınmışdır. Bakıda 3, Oğuzda və Qubada 1 sinaqoq fəaliyyət göstərir. Ümumilikdə Azərbaycanda 7 sineqoq var. 2003-cü il mart ayında Bakıda yeni yəhudi sinaqoqu istifadəyə verilmişdir.

Bu gün Azərbaycanda yəhudi mədəniyyət mərkəzləri, dini icmaları, sinaqoqları, məktəbləri fəaliyyət göstərir. 2003-cü ilin sentyabr ayında Bakıda "Od-Avner" Xabad Lyubaviç Beynəlxalq Fondunun maliyyələşdirdiyi ilk yəhudi orta ümumtəhsil məktəbi fəaliyyətə başlamışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 oktyabr 2006-cı il tarixli 222 saylı Qərarına əsasən Quba rayonu Qırmızı qəsəbədə yerləşən 1 nömrəli məktəbə yəhudi xalqının böyük oğlu İsaak Xanukovun adı verilmişdir. Yəhudilər Azərbaycan parlamentində də təmsil olunurlar.

XX əsrin sonlarında SSRİ-nin süqutu ərəfəsində yaranmış ictimai-siyasi qeyri-sabitlik Azərbaycan yəhudilərinin İsrailə miqrasiyasını şərtləndirən əsas amillərdən biri olmuşdur. İsrailin İnteqrasiya və Absorbsiya Nazirliyinin verdiyi məlumata görə 1990-2006-cı illər ərzində İsrail postsovet ölkələrində ümumilikdə bir milyon 200 min nəfərə yaxın yəhudi repertriantı qəbul etmişdir. Bunların böyük əksəriyyəti yüksək ixtisaslı həkimlər, mühəndislər və müəllimlər olmuşdur. Peşəkar kadrların ölkəyə immiqrasiyası

İsralin sosial-iqtisadi inkişafının sürətlənməsində mühüm rol oynamışdır.

İsrail əhalisinin ümumi sayı 9 milyondan çoxdur. Əhalinin təxminən 3 miylon nəfərdən çoxunu müxtəlif dövrlərdə İsrailə köçmüş repatriantlar təşkil edir.

2001-ci ilin rəsmi məlumatlarına görə İsrailə MDB ölkələrindən təxminən 950 min nəfər köçmüşdür. Bu dövr üçün Azərbaycandan İsrailə köçmüş repatriantların 75 min nəfərə yaxın olduğu göstərilir. Lakin bu rəsmi rəqəmlərdir, çünki İsrailin müvafiq hökumət strukturları repatriantların hamısının sayını dəqiq şəkildə müəyyənləşdirməkdə çətinlik çəkirlər. Bununla belə, hətta rəsmi rəqəmlərə istinad etdikdə də məlum olur ki, Azərbaycandan köçmüş yəhudilər repatriantların təxminən 8 faizini təşkil edir.

İsrail hökuməti immiqrantların ölkə ərazisində məskunlaşmasına maksimum diqqət və qayğı ilə yanaşmağa çalışsa da, onlar müəyyən psixoloji problemlərlə qarşılaşmalı olurlar. Belə ki, yerli əhali arasında repatriantlara münasibət o qədər də yüksək səviyyədə deyil. Yerlilər onları «gəlmə» hesab edir və bu nəticədə qarşılıqlı münasibətlərə də təsirini göstərir. Buna görə də repatriantlar təşkilatlanmağa və ayrıca icma halında yaşamağa meyl göstərməyə başlamışlar.

İsrail qanunlarında dövlətə qarşı təhlükə yaratmadığı halda ərazisində müxtəlif təşkilat və birliklərin yaradılması qadağan edilmir.

İsrailə Azərbaycan yəhudilərinin kütləvi şəkildə miqrasiyası 1989-cu ildən sonra başlamışdır. Həmin il ABŞ SSRİ-dən köçən yəhudi qaçqınlarının qəbul olunmasına məhdudiyyətlər tətbiq etdiyindən, onların əksəriyyəti məhz İsrailə köçmüşlər. Yalnız 1990-cı ildə İsrailə SSRİ-dən 200 min nəfər yəhudi köçmüşdür. SSRİ-nin süqutundan sonra yaranmış sosial-iqtisadi və siyasi böhran repatriasiyanın səviyyəsinin həddən artıq yüksəlməsinə səbəb olmuşdur.

İsrailə köçmüş repatriantların əksəriyyəti daha çox

intellektual sahələrdə çalışırlar. Bu da ondan irəli gəlir ki, hökumət daha çox intellektual repatriantların ölkəyə gəlişini təmin etməyə çalışır. Yüksək ixtisaslı mühəndislər, kompüter texnologiyaları mütəxəssisləri, ticarət menecerləri üçün daha əlverişli şərait yaradıldığından emmiqrantların içərisində məhz bu sahələrin peşəkarları üstünlük təşkil edir.

1990-2001-ci illər ərzində İsrailə Ukraynadan 296 min nəfər, Rusiya Federasiyasından 300 min nəfər, Orta Asiya respublikalarından 113.4 min nəfər, Belarusdan 70 min nəfər, Moldovadan 50 min nəfərə yaxın, Baltikyanı ölkələrdən 21,1 min nəfər repatriant köçmüşdür. İmmiqrantların ölkəyə gəlişinin ən çox müşahidə olunduğu 1989-2001-ci illər İsraildə repatriasiya mərhələsi adlandırmaq olar. İsrailə MDB ölkələrindən repatriantların ən böyük köçü 1990 və 1991-ci illərə təsadüf edir.

1990-cı ildə Azərbaycanda törədilmiş «20 Yanvar» hadisələrindən sonra respublikada vəziyyətin gərginləşməsi və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin kəskinləşməsi nəticəsində bir çox yəhudi ailələri Azərbaycanı tərk etmişlər. 1996-2000-ci illərdə Azərbaycana gələn və buradan köçən yəhudilərin sayı tez-tez dəyişdiyindən İsrailə köçmüş Azərbaycan yəhudilərinin dəqiq sayını söyləmək çətindir.

Bəzi məlumatlara görə, İsrailə son 15 il ərzində 50 min nəfərdən çox Azərbaycan yəhudisinin köçdüyü bildirilir. Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyasının apardığı araşdırmalara görə isə İsraildə yaşayan Azərbaycan yəhudilərinin sayı 100 min nəfərdən çoxdur.

Azərbaycanda gedən sosial-iqtisadi inkişaf prosesləri, habelə İsraildəki qeyri-sabit ictimai-siyasi vəziyyət, qonşu ölkələrlə yaşanan gərginliklər yəhudilərin İsrailə immiqrasiyasını obyektiv olaraq məhdudlaşdırdığından, Azərbaycan yəhudilərinin İsrailə repatriasiyasının səviyyəsi də son illərdə xeyli dərəcədə azalmışdır.

Azərbaycan yəhudiləri əsasən İsrailin iri sənaye şəhərlərində məskunlaşmışlar. «Aziz»-in əldə etdiyi məlumatlara görə Azərbaycan yəhudiləri əsasən Təl-əviv, Xayfa, Yerusəlim, Rişon,

Aşdot, Netanya, Ber-Şeva, Aşkelon, Nezaret, Neşer və digər şəhərdə məskunlaşmışlar. Bütün digər ölkələrdən gəlmiş repatriantlar kimi Azərbaycan yəhudiləri də Fələstinlə münaqişə bölgəsindən uzaqda, Aralıq dənizi sahillərində yaşamağa üstünlük verir.

Azərbaycandan köçmüş yəhudilərin cəmiyyətə inteqrasiyasi prosesində müəyyən çətinliklər özünü göstərir. Bu da, əsasən, onunla bağlıdır ki, bütün digər postsovet ölkələri kimi, Azərbaycandan köçmüş yəhudilərin cəmiyyətə inteqrasiyası üçün nəzərdə tutulmuş müddət 13 ildir. İsrail hökuməti hesab edir ki, dünyanın müxtəlif ölkələrindən gəlmiş repatriantların hamısına inteqrasiya üçün eyni vaxt vermək olmaz. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsi sədrinin İsrailin İnteqrasiya və Absorbsiya nazirliyində keçirdiyi görüş zamanı nazir Zeev Boym bunu belə izah etmişdir ki, Qərb ölkələrindən köçmüş repatriantlarla, postsovet məkanından və inkişaf etməkdə olan ölkələrdən köçmüş repatriantlar arasında ciddi fərqlər var. Birincilər İsrail cəmiyyətinə daha asan inteqrasiya olunduğundan, onların vətəndaşlığa qəbul edilməsi üçün tələb olunan şərtlərin yerinə yetirilməsinə 5 il müddət kifayət edir. Lakin inkişaf etməkdə olan ölkələrdən gələnlər üçün bu müddət kifayət etmədiyindən, hökumət müəyyən məhdudiyyətlər tətbiq etməyə məcburdur.

Məhz yeni həyat şəraitinə adaptasiyanın səviyyəsinin yüksəldilməsi, cəmiyyət hüquqlarının müdafiəsinin təşkili, problemlərin nizama salınması İsraildə yaşayan Azərbaycan yəhudilərini təşkilatlanmağa səfərbər etmişdir. İsraildə yaşayan Azərbaycan yəhudiləri cəmiyyətə inteqrasiya sahəsində qarşılaşdıqları problemlərin daha asan və qısa vaxtda həll olunmasını təmin etmək məqsədilə müxtəlif təşkilatlarda birləşmişlər. Azərbaycandan köçmüş yəhudiləri öz ətrafında birləşdirən bu icma və birliklər təmsil etdikləri repatriantların hüquq və azadlıqlarının qorunmasına çalışır, özlərinin ikinci vətən hesab etdikləri Azərbaycan haqqında ölkə ictimaiyyətini

məlumatlandırmağa səy göstərir, mədəni-kütləvi tədbirlər təşkil edir, ictimai-siyasi proseslərdə fəal iştirak edir, problemlərin həllinə çalışırlar.

«Xaricdə Yaşayan Azərbaycanlılarla Bağlı Dövlət Siyasəti Haqqında» qanunda «azərbaycanlı» anlayışının təkcə milli-etnik məzmunda yox, məhz Azərbaycana bağlılıq mənasında təfsir edilməsindən çıxış edilməklə, Azərbaycandan İsrailə köçən yəhudilərlə həmrəylik işinin səviyyəsinin yüksəldilməsi, onların qayğılarının həlli dövlət əhəmiyyətli məzmun kəsb edir. Azərbaycandan köçmüş yəhudilərin problemlərindən biri qarışıq nigahlı ailələrlə bağlıdır. Yəhudi və Azərbaycan xalqlarının milli mənsubiyyətə baxışlarındakı fərqlər bu ailələrin müəyyən çətinliklərlə qarşılaşmasına səbəb olur. Belə ki, Azərbaycanda milli mənsubluq atanın milliyyəti ilə müəyyənləşirsə, yəhudilərin inacına görə bu ana xətti ilə, ananın hansı milliyyəti təmsil etməsi ilə müəyyən olunur. Anası azərbaycanlı olanlar qeyri-yəhudi adlandırılır və onların cəmiyyətə inteqrasiyasında da mürəkkəb şərtləri yerinə yetirməli olurlar. Bu isə bəzi hallarda Azərbaycandan İsrailə köçmüş insanların milli mənsubiyyətini gizlətməsinə səbəb olur. Belə anlaşılmazlıqlar İsrailə Azərbaycandan köçmüş yəhudilərin və azərbaycanlıların dəqiq sayını da müəyyənləşdirməyə imkan vermir.

İsraildə yaşayan Azərbaycan yəhudiləri daim Azərbaycan dövlətinə xüsusi rəğbətlə yanaşmaqdadır. Onlar Azərbaycan mədəniyyətini, adət-ənənələrini unutmamışlar. Həmvətənlərimiz peyk vasitəsilə yayımlanan Azərbaycan telekanalları ilə ölkəmizdə baş verən ictimai-siyasi hadisələrlə bağlı yenilikləri daim izləyirlər. 2006-cı ilin may ayında İsrail parlamentinin üzvü İosif Şaqal Azərbaycana səfəri zamanı Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovla görüşmüşdür. Görüşdə Azərbaycanın haqq səsinin dünyaya bəyan edilməsi, Ermənistanın təcavüzkar siyasətinin dayandırılması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Bundan başqa, yəhudi və Azərbaycan diaspor

təşkilatları arasında əlaqələrin inkişaf etdirilməsinin zəruriliyi və bu sahədə qarşıda duran vəzifələr də müzakirə olunmuşdur. 2007-ci il avqustun 15-də İsrail baş nazirinin müavini, Strateji planlaşdırma naziri, "İsrail bizim evimizdir" partiyasının sədri Aviqdor Liberman Azərbaycana səfərə gəlmişdir. A.Liberman Yəhudi Mədəniyyət Mərkəzinin açılışına qatılmış və Qubanın Qırmızı qəsəbəsindəki yəhudi icması ilə görüşmüşdür. Azərbaycan Prezidenti İlham Əliyev A.Libermanı qəbul etmişdir. Azərbaycan Respublikasının Baş naziri və Milli Məclis sədri İsrail rəsmilərini qəbul etmişlər. Bununla yanaşı İsrail baş nazirinin müavini Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsi və İqtisadi İnkişaf Nazirliyinin rəhbərliyi ilə də görüşlər keçirmişdir.

2007-ci ilin aprel ayının 9-da Azərbayca-İsrail Beynəlxalq Assosiasiyasının təsis qurultayı ilə əlaqədar Xayfa şəhərində Azərbaycan incəsənət ustalarının böyük konsert proqramı təşkil olunmuşdur. 800 nəfərdən çox Azərbaycandan köçmüş yəhudinin iştirak etdiyi konsertdə Xayfa şəhərinin meri  Yona Lav da iştirak etmişdir. Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyasının (Azİz) təsis qurultayı çərçivəsində qurultayın keçirildiyi salonda xalqımızın zəngin mədəni irsini əks etdirən rəsm sərgisi də təşkil olunmuşdur.

Azərbaycandan köçmüş yəhudilərin ölkənin ictimai-siyasi həyatında da fəal iştirak etmək imkanları mövcuddur. İsrail parlamentinin – Knessetin bir üzvü məhz Azərbaycandan köçmüş repatriant İosif Şaqal olmuşdur. Bununla belə, azərbaycanlı yəhudilərin cəmiyyətə inteqrasiyası sahəsində müəyyən problemlər hələ də qalır.

İsraildə yaşayan Azərbaycan yəhudilərinin böyük əksəriyyəti respublikamızdakı ictimai-siyasi şərait, tolerantlığın səviyyəsi barədə çox yüksək fikirdə olub, hesab edirlər ki, Azərbaycandakı tolerantlıq, xalqımızın qonaqpərvərliyi, mehribanlığı, yəhudi xalqına qarşı tarixin müxtəlif mərhələlərində nümayiş etdirilmiş dostluq və qardaşlıq münasibəti İsrail-Azərbaycan münasibətlərinin inkişafı üçün möhkəm zəmin hazırlamışdır. Onlar bütün sahələrdə əməkdaşlığın inkişaf

etdirilməsinin vacib olduğu qənaətindədir.

İsraildəki Azərbaycan icmaları hesab edir ki, Azərbaycan dövləti ilə müqayisədə daha böyük siyasət təcrübəsinə malik İsrail dövləti Azərbaycana beynəlxalq siyasi məsələlərdə ciddi dəstək verməlidir. İnkar edilməyən bu qənaət xarici ölkələrdə yaşayan azərbaycanlı diaspor təşkilatlarının dünyanın məşhur yəhudi diasporu ilə əlaqələrin yaradılması və möhkəmləndirilməsini tələb edir. Bu istiqamətdə fəaliyyət, gələcəkdə yuxarıda haqqında bəhs etdiyimiz Azərbaycan və türk diasporlarının birliyinə yeni bir güc də qata bilər.

2007-ci il aprel ayının 12-də Təl-Əviv şəhərində Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyasının təsis Qurultayı bu məqsədin reallaşdırılmasında ilk addımlardandır. Qurultayda İsrail baş nazirinin müavini, strateji planlaşdırma naziri Aviqdor Liberman, turizm naziri İsax Aranoviç, nəqliyyat naziri Şaul Mofaz, bu ölkənin bir sıra tanınmış ictimai xadimləri, kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişdir. Azərbaycan Respublikası Qurultayda Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunmuşdur. Türkiyədən bu ölkənin İsraildəki səfiri Mehmet Tan, Mərmərə Sosial-Siyasi araşdırmalar Vəqfinin prezidenti Akkan Suverin başçılığı ilə nümayəndə heyəti qurultayda qonaq qismində iştirak etmişdir. Qurultayda ABŞ, İsveçrə, Ukrayna, Rusiya, Moldova, Özbəkistan və digər ölkələrdəki yəhudi icmalarının nümayəndələri iştirak etmişlər.

Qurultayda İsralin 26 şəhərində yaşayan 30 minə yaxın Azərbaycandan köçmüş yəhudini təmsil edən 30 Azərbaycan icması tərəfindən seçilmiş 408 nəfər nümayəndə iştirak etmişdir.

Assosiasiyanın proqram və nizamnaməsi təsdiq edildikdən sonra qurultay nümayəndələrinin yekdil rəyi əsasında İsrail Parlamentinin deputatı İosif Şaqal Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyasının sədri seçilmişdir. Daha sonra regionlar üzrə sədr müavinləri, Rəyasət Heyətinin, İdarə heyətinin, İctimai Şura və

Ağsaqallar Şurasının üzvləri seçilmiş, Təşkilatın nəzdində müxtəlif sahələr üzrə fəaliyyət göstərəcək komitələr yaradılmışdır. Azİz-in bu günə qədər IV Qurultayı keçirilib ki, bunlardan sonuncusu 2023-cü ildə İsrailin Rişon le-Sion şəhərində baş tutmuşdur. Qurultay zamanı Azİz-in yeni prezidenti vəzifəsinə Adam Amilov seçilmişdir. Onu da qeyd edək ki, A.Amilov 1966-cı ildə Quba rayonunda yerləşən Qırmızı qəsəbədə anadan olmuşdur.

Sonda qurultayın qətnaməsi və iştirakçılar adından Azərbaycan Prezidentinə və İsrail Baş nazirinə müraciət qəbul edilmişdir. Fikrimizcə, həmin qurultayın qərarları beynəlxalq miqyasda birgə fəaliyyət üçün təməl yaratmaqla bərabər, müxtəlif ölkələrdə azərbaycanlı diasporunun təşkilatlanma səviyyəsinin, təşkilatların daxili strukturunun müəyyənləşdirilməsi üçün də ibrət mənbəyi ola bilər.

Azərbaycanlıların kompakt halda yaşadığı daha bir qeyri-müsəlman Şərq ölkəsi isə Yaponiyadır. Bəzi mənbələrdə göstərilən məlumatlara görə bu ölkədə təxminən 10 min nəfərə yaxın soydaşımız yaşayır. Lakin Yaponiyadakı Azərbaycan diaspor təşkilatları, o cümlədən Yaponiya-Azərbaycan Dostluq Cəmiyyəti soydaşlarımızın sayının 5 min nəfərdən çox olmadığını bildirir. Yaponiyada yaşayan azərbaycanlıların əksəriyyəti Cənubi Azərbaycandandır. 2022-ci ilin statistik məlumatlarına görə Yaponiyada 157 azərbaycan vətəndaşı yaşayır ki, bunlara da əsasən tələbələr, səfirlikdə və oradakı şirkətlərdə işləyənlər daxildir.

Azərbaycan Respublikasından Yaponiyaya miqrasiya müstəqilliyin ilk illərinə təsadüf etmişdir. Bu dövrdə respublikada yaranmış iqtisadi və siyasi böhran nəticəsində azərbaycanlılar inkişaf etmiş ölkələrə miqrasiya etməyə üstünlük verirdi. Yaponiyaya köçənlərin sayı o qədər çox olmasa da, qeyd etmək lazımdır ki, bu ölkədə məskunlaşmış soydaşlarımız diaspor quruculuğu istiqamətində müəyyən nailiyyətlər qazanmışlar.

Hazırda Yaponiyada fəaliyyət göstərən ən böyük diaspor təşkilatı Azərbaycan-Yaponiya Dostluq Cəmiyyətidir (AYDC). 21

noyabr 2002-ci ildə Yaponiyanın Naqoya şəhərində təsis edilmiş bu təşkilat 2006-cı ildə dövlət qeydiyyatına alınmışdır. Qeyd edək ki, bu Yaponiyada qeydiyyata alınan və rəsmi şəkildə fəaliyyət göstərən ilk Azərbaycan diaspor təşkilatıdır. Yaponiyada qeyri-hökumət təşkilatlarının qeydə alınması kifayət qədər uzun vaxt tələb etdiyindən təşkilatın dövlət qeydiyyatına düşməsi yalnız 4 ildən sonra mümkün olmuşdur. Azərbaycan-Yaponiya Dostluq Cəmiyyəti fəaliyyət göstərdiyi müddətdə Azərbaycan həqiqət-lərinin Yaponiya ictimaiyyətinə çatdırılması, ölkələrimiz arasında əlaqələrin inkişafı, xalqımızın qədim və zəngin mədəniyyətinin təbliği məqsədilə bir sıra tədbirlər keçirmişdir. Cəmiyyət Azərbaycanın xaricdəki fəal diaspor təşkilatlarından biri kimi tanınır.

2005-ci ildə Osaka-Mino şəhərində keçirilən "Xalqların Tanıtımı" festivalında Azərbaycan-Yaponiya Dostluq Cəmiyyəti Azərbaycan stendi açaraq ölkəmiz haqqında tamaşaçılara ətraflı məlumat vermişdir. Festivalda Azərbaycan haqqında video film nümayiş etdirilmiş, milli musiqi nümunələrimiz səsləndirilmiş, üzərində bayraq, gerb və Azərbaycan xəritəsini əks etdirən pamfletlər iştirakçılara paylanılmışdır. Ölkəmizin tarixi, coğrafiyası, Qarabağ münaqişəsinin tarixi kökləri və nəticələri, xalqımızın məruz qaldığı terror və soyqırım aktları ilə bağlı ətraflı məlumatlar verilmişdir. Cəmiyyət Xocalı Soyqırımının ildönümü ilə bağlı bir sıra təhsil ocaqlarında müxtəlif dövrlərdə Azərbaycanda baş verən hadisələr barədə yapon şagird və müəllimlərə məlumat vermişlər. Müxtəlif mövzuları əhatə edən bu tədbirlərin əsas məqsədi 1988-1994-cü illər arasında Azərbaycanın başına gətirilən müsibətlər - 20 Yanvar, Qarabağ müharibəsi, Xocalı Soyqırımı və bunların acı nəticələri olmuşdur.

2006-cı ilin fevralında isə Cəmiyyət Xocalı Soyqırımına həsr edilmiş tədbirlər keçirmişdir. Müxtəlif orta məktəblərdə yapon şagird və müəllimlərə ən qədim zamanlardan tutmuş müasir dövrümüzə qədər Azərbaycanda baş verən hadisələrdən geniş bəhs edilmişdir. Tarix, mədəniyyət, coğrafiya, iqlim və bu kimi

mövzuları əhatə edən bu tədbirlərin əsas mövzusu 1988-1994-cü illər arasında Azərbaycanın başına gətirilən müsibətlər, Qanlı 20 Yanvar, Qarabağ müharibəsi, Xocalı Soyqırımı və bunların acı nəticələri olmuşdur. 31 Mart Azərbaycanlıların Soyqrımı Günü ilə əlaqədar Cəmiyyət tərəfindən təşkil olunmuş tədbirdə Dostluq Cəmiyyətinin üzvləri, Osaka Universitetində təhsil alan tələbələr və Yaponiyada yaşayan azərbaycanlılar iştirak etmişlər. 2006-cı ildə noyabr ayının 25-də "Qafqaz-Xəzər Salonu" proqramının "Azərbaycan Milli Musiqisi və Rəqsi" adı altında növbəti tədbir milli rəqsimizi əks etdirən fotoşəkillərlə dizayn edilmiş plakatlar və broşürlər Osaka əyalətinin elan guşələrinə və eləcə də Yaponiyada fəaliyyət göstərən xeyli sayda beynəlxalq mərkəzlərə asılmışdır. Tədbir barəsində Yapon qəzetlərində və AYDC-nin veb saytında yapon və ingilis dillərində elanlar dərc olunmuşdur. Tədbirin bütün Yaponiya ictimaiyyətinə elan olunması, onun iştirakçılarının tərkibinin çoxmilliliyini təmin etmişdi.

Cəmiyyətin hazırladığı layihə 2006-cı ilin aprel ayında Yaponiyada 30-a yaxın QHT-nin iştirak etdiyi qrant müsabiqəsinin qalibi olmuşdur. Alınan qrant vəsaiti və diasporun öz imkanları hesabına Azərbaycanı Yaponiyada geniş şəkildə təbliğ edən seminarlar və konfranslar, müxtəlif tədbirlər təşkil olunmuşdur.

2006-cı il iyul ayının 8-də Azərbaycan-Yaponiya Dostluq Cəmiyyəti (AYDC) "Qafqaz-Xəzər Salonu" adlı Azərbaycanı Yaponiyada tanıtım-təbliğat silsilə proqramı çərçivəsində sayca ikinci seminarını keçirmişdir. Azərbaycan-Yaponiya Dostluq Cəmiyyətinin Osaka Universiteti ilə birgə təşkil etdiyi tədbir Osaka Universitetində baş tutmuşdur. Seminarda müxtəlif təşkilatlardan, universitetlərdən, elmi tədqiqat mərkəzlərindən xeyli sayda professor, tədqiqatçı, tələbə və eləcə də sıravi vətəndaşlar iştirak etmişlər. Üç saata yaxın davam edən AYDC-nin "Qafqaz-Xəzər Salonu"nun ikinci mərhələsi sual-cavab sessiyasindan sonra başa çatmışdır. 25 fevral 2007-ci il tarixində Yaponiyanın Osaka əyalətində Xocalı soyqırımının ildönümünə həsr olunmuş bütün gün boyunca davam edən tədbirlər proqramı

həyata keçirilmişdir. Tədbirə hazırlıqlar bir ay əvvəlcədən başlamışdı. AYDC-nin veb saytında üç dildə elan yerləşdirilmiş, bir sıra ictimai yerlərə və beynəlxalq mərkəzlərə bu barədə plakatlar asılmışdır. Sərgidə Xocalı soyqırımı həqiqətlərini əks etdirən xeyli sayda fotoşəkil nümayiş etdirilmişdir.

Azərbaycanlıların yaşadığı qeyri-müsəlman Şərq ölkələrindən olan Çin və Hindistan kimi nəhəng ölkələrdə nə qədər azərbaycanlının yaşadığı barədə dəqiq məlumat olmasa da, bu ölkələrin böyük şəhərlərində sayca az da olsa soydaşların yaşadığına dair informasiyalar mövcuddur. Belə ki, hazırda Pekində xaricilərin yaşadığı Yabolu rayonunda əsasən, MDB ölkələrindən gələnlər yaşayır ki, onların da 50-60 faizini azərbaycanlılar təşkil edir. Azərbaycanlılar buraya əsasən, Cənubi Azərbaycandan köçmüşlər. Müstəqil Azərbaycan Respublikasından köçənlər, əsasən, 90-cı illərin əvvəllərində miqrasiya etmişlər.

